4. Kanchan T., Menezes R. G., Kumar T. S., Bakkannavar S. M., Bukelo M. J., Sharma P. S., Rasquinha J. M., Shetty B. S. Toxicoepidemiology of fatal poisonings in Southern India // J Forensic Leg Med. 2010, v.17, N. 6, p. 344-347
5. Bronstein A. C., Spyker D. A., Cantilena L. R. Jr., Green J. L., Rumack B. H., Giffin S. L. 2009 Annual Report of the American Association of Poison Control Centers' National Poison Data System (NPDS): 27th Annual Report // Clin Toxicol. 2010, v. 48, N.10, p.979-1178

6. Leverton K., Cox V., Battershill J., Coggon D. Hospital admission for accidental pesticide poisoning among adults of working age in England, 1998-2003 // Clin Toxicol. 2007, v.45, N.5, p. 594-597.

XÜLASƏ

1991-2010-cu İLLƏRDƏ AZƏRBAYCANDA KƏSKİN PESTİSİDLƏRLƏ ZƏHƏRLƏNMƏLƏRİNİN İCMALI

İ. N.Əfəndiyev

Azərbaycanda pestisidlərlə kəskin zəhərlənmələrinin epidemiologiyası bu günə kimi öyrənilməyib. Bu məqalədə biz Azərbaycanda pestisidlərlə kəskin intoksikasiyaların iyirmi illik epidemioloji profilini təqdim edirik.Kəskin pestisidlərlə zəhərlənmə diaqnozu ilə olan və 1991-2010-cu illərdə toksikoloji mərkəzdə stasionar müalicə alan 823 xəstənin məlumatları araşdırılmışdır. Cəmi hospitalizasiyalardan (n=26223) 3,1%-i kəskin pestisidlərlə zəhərlənmə ilə xəstələr olmuşdur. Onlar əksəriyyəti (78%) fosforüzvü və karbamat pestisidlərlə zəhərlənmələr təşkil edirdi. Yerdə qalar 22% xəstələr – xlorüzvü pestisidlər, rodentisidlər, piretroidlər və digər pestisidlərlə intoksikasiyalar təşkir edtmişdir. Kişi/qadın nisbəti 1,1:1 olmuşdur. Uşaq qrupu (yaşı <15) - bu nozologiya ilə olan xəstələrin 22,7%-i təşkil edirdi (cəmi 187 xəstə). Pestisidlərlə zəhərələnmə ilə daxil olan pasientlərin 67%-i intihar cəhdləri olmuşdur. Xəstələrin 86%-i respublikanın aqrar rayonların və Bakı kəndlərinin sakinləri idi. Fosforüzvü pestisilərlə zəhərənmələrin klinikasında xolinerqik, muskarin, nikotin sindromları və MSS-nin patoloji effektləri qeyd olunurdu. Azərbaycanda xolinesterazanın reaktivatorların (oksimlərin) olmamasına görə spesifik müalicə əsasən antimuskarin preparatı olan atropin və dezintoksikasıyadan ibarət idi. Pestisidlərlə kəskin zəhərlənmələrdən letallığı 4,7% təşkil etmişdir (47 xəstə). Müxtəlif qruplara aid pestisidlərlə zəhərlənmələr Azərbaycanda toksikoloji xəstələrin mühüm bir hissəsini təşkil edir. Fosforüzvü pestisidlərlə kəskin intoksikasiyaların əksəriyyəti nəzərə çarpan kliniki əlamətlərlə və ağır proqnozla xarakterizə olunmuşdurlar.

SUMMARY

REVIEW OF ACUTE PESTICIDE POISONINGS CASES IN AZERBAIJAN IN 1991-2010

I. N.Afandiyev

The epidemiology of acute pesticide poisonings in Azerbaijan is uninvestigated. We present a study of the pesticides intoxications profile in Azerbaijan for the past 20 years. We analyzed case records of 823 patients admitted to Center of Clinical Toxicology (CCT) MoH, Baku, Azerbaijan in 1991-2010. 3.1 percent of CTT total hospitalizations (n=26223) were poisonings caused by pesticides. Most cases (78%) comprised of organophosphate and carbamate pesticides poisonings, 22% of cases - organochlorine pesticides, rodenticides, pyrethroids and unspecified pesticides acute intoxications. Ratio of male to female was 1.1:1. 187 patients (22.7%) were children (age <15 year). 67% of all pesticide poisoning admissions were suicidal attempts. 86% of patient were inhabitants of rural areas and Baku suburbs. Patients with organophosphate pesticide poisonings, had severe symptoms of cholinergic syndrome with muscarinic, nicotinic and CNS effects typical for this intoxication. Due to absence of enzyme reactivators (pralidoxime et al.) in Azerbaijan specific treatment included antimuscarinic agent atropine and detoxication therapy. Mortality due to pesticides intoxications was 4.7% (47 patients). Acute pesticide poisonings are a significant part of toxicological admissions in Azerbaijan. Most of the patients with organophosphate pesticide poisonings showed marked clinical manifestation and may have severe prognosis.

Daxil olub:14.02.2011

КОРРЕКЦИЯ ЦИТОПЕНИЙ ПРЕПАРАТОМ "КОШАЧИЙ КОГОТЬ" У БОЛЬНЫХ ХРОНИЧЕСКИМ ВИРУСНЫМ ГЕПАТИТОМ С, В ПРОЦЕССЕ ПРОВЕДЕНИЯ ПРОТИВОВИРУСНОГО ЛЕЧЕНИЯ АЛЬФА-ИНТЕРФЕРОНАМИ

С.Н.Малышев, А.И.Николаева, Э.И.Ахмедов

Лечебно-реабилитационный центр МПС РФ,

Городская клиническая больница N.1, г.Москва

В настоящее время единственным эффективным методом лечения больных хроническим вирусных гепатитом С (ХГС) признается рациональное и длительное (не менее 6 мес) применение комбинированной противовирусной терапии, проводимой препаратами альфа-интерферона в комбинации с рибавирином [1].

Однако все препараты интеферона обладают определенными побочными токсическими эффектами и, в том числе, умеренным миелодепрессивным действием в форме развития лейкопении и тромбоцитопении [3]. И хотя данный побочный эффект отмечается лишь у сравнительно небольшой части пациентов, в некоторых случаях его выраженность приобретает опасный характер, вынуждая прекратить лечение.

И если лейкопения поддается эффективной лекарственной кор- рекции с помощью препаратов колониестимулирующих факторов и, в частности, нейпогена [5], то развитие выраженной тромбоцитопении ставит перед врачом вопрос о прекращении лечения, поскольку доступные для широкого применения препараты стимуляторов мегакариоцитарного ростка гемопоеза пока не созданы.

В связи с изложенным выше мы обратили внимание на представленные в литературе, хотя и немногочисленные данные о том, что способностью стимулировать кроветворение и, в том числе, угнетенное под действием цитостатических препаратов, обладает экстракт, полученный из растущей в Южной Америке лианы Uncaria tomentosa [2]. Этот экстракт известен также под тривиальным названием "кошачий коготь" (cat's claw) и содержиться в составе ряда одноименных лекарственных препаратах и различных пищевых добавок [6, 7].

Приняв во внимание имеющееся в литературе сообщение об использовании этих препаратов в лекарственном лечении хронических гепатитов [4], мы задались целью клинически оценить возможность их применения для коррекции лейкоцитопении и тромбоцитопении у больных ХГС, получающих препараты пегилированных интерферонов.

Ниже мы приводим краткую характеристику результатов проведенного нами в 2006-2010 гг клинико-лабораторного наблюдения за больными ХГС, у которых отмечалась упомянутые выше цитопении.

Под нашим наблюдением находились 32 больных ХГС, получавших противовирусную терапию пегасисом или пегинтроном по стандартным программам. У 23 из них имелась умеренно выраженная лейкопения, а у 9 - умеренно выраженная тромбоцитопения. Все больные еженедельно проходили лабораторный мониторинг количества лейкоцитов или тромбоцитов в периферической крови, соответственно.

Для коррекции указанных цитопений был использован препарат "кошачий коготь" (КК), произведенный Induquimica Lab. (Перу) в форме капсул, содержащих по 230 активного вещества. Препарат назначался по программе: 3 капсулы per os ежедневно в течение 3 мес. В ситуациях, когда несмотря на прием препарата выраженность цитопении возрастала, противовирусное лечение (ПВЛ) прекращалось.

Анализ и обобщение результатов этого наблюдения позволил прийти к следующим выводам.

Прием препарата КК на фоне ПВЛ у больных с лейкопенией уже через неделю у 19 (82,6%) пациентов привел к стабилизации количества лейкоцитов в крови, что позволило продолжить ПВЛ, по крайней мере, на протяжение последующих 11 недель.

К концу 3-х месячного курса приема КК количество лейкоцитов у этих пациентов не препятствовало дальнейшему проведеннию ПВЛ: у 16 (69,6%) из них число лейкоцитов в крови практически не изменилось, а у 2 (8,7%) пациентов была отмечена умеренно выраженная тенденция этого показателя к увеличению.

Лишь у 4 (17,4%) пациентов прием препарата КК не привел к ожидаемому результату - увеличение выраженности лейкопении побудило нас прекратить ПВЛ.

У пациентов с тромбоцитопенией применение КК также обеспечило определенный терапевтический эффект. Уже через неделю после начала приема препарата КК у всех пациентов была отмечено стабилизация количества тромбоцитов в крови.

Однако дальнейшее наблюдение показало, что уже через 2 недели после после начала приема препарата КК число тромбоцитов в крови не снизилось лишь у 5 (55,6%) пациентов. У 1 (11,1%) пациента через неделю было отмечено лишь незначительное (менее, чем на 15%) снижение количества этих клеток, а к концу 2-й недели приема препарата КК стабилизация числа этих клеток в крови. Это позволило продолжить ПВЛ, проводимое этим 6 пациентам. В дальнейшем этим 6 пациентам, продолжившим прием препарата КК, ПВЛ было успешно продолжено в течение последующих 10 недель, на протяжение которых они принимали препарат КК.

И лишь у остальных 3 (33,4%) число этих клеток, несмотря на прием препарата КК, продолжало снижаться, что послужило причиной прекращения ПВЛ уже через 2 недели от начала приема препарата КК.

Итак, приведенные выше результаты нашего наблюдения прямо указывали на то, что прием препарата КК оказался способным ослаблять миелодепрессивное влияния препаратов

интерферона. В частности, прием этого препарата позволил коррегировать лейкоцитопению у получающих интерферонотерапию большинства больных ХГС и коррегировать тромбоцитопению более, чем у половины таких больных.

Вместе с тем, мы полагали, что эти данные следует рассматривать лишь как предварительные, поскольку для объективной оценки отмеченной способности препарата КК необходимо получить аналогичные результаты в рандомизированном, а в идеальном случае, в плацебо-контрольируемом двойном слепом наблюдении за репрезентатиным числом лиц, вовлеченных в такое наблюдение.

ЛИТЕРАТУРА

1. Гастроэнтерология. Национальное руководство. Под ред.В.Т. Ивашкина и Т.Л.Лапиной. М.: Геотар-Медиа, 2008, 704 с.

2. Герасимова Г.К., Трещалина Е.М., Гетманская Н.В. и др. Перспектиыы использования экстракта ункарии в онкологии. // Азерб. Ж. онкологии, 1996, N.1,с.66-68;

3. Ершов Ф.И., Киселев О.И. Интерфероны и их индукторы. М.: Геотар-Медицина, 2005, 368 с.

4. Литвинов В.И., Александрова Н.П. Опыт применения экстракта ункарии при лечении хронических гепатитов. // Vita Med. J., 2000, N.1, с.66.

5. Filgrastim (r-CSF) in clinical practice. Eds. G.Morstin T.Dexter, M.Foote. NY: Markel Dekker Inc., 1998, 675 p.

6. Keplinger K., Laus G., Wurm M. et al. Uncaria tomentosa (Wild) - ethnomedicinal use and new pharmacological, toxicological and botanical results. // J.Ethnopharmacology, 1999, v.64, p. 23-24;

7. Schauss A. The health benefits of Cat claw, New Caanan: Keats publish., 1996;

XÜLASƏ

ALFA-1 INTERFERONLA MÜALICƏ PROSESINDƏ XRONIK VIRUSLU HEPATITLI XƏSTƏLƏRDƏ "PIŞIK CAYNAĞI" PREPARATI ILƏ SITOPENIYANIN KORREKSIYASI

S.N.Malışev, A.İ.Nikolayeva, E.A.Əhmədov

Müəlliflər tərəfindən aparılan tədqiqatların nəticələrindən məlum olmuşdur ki, "pişik caynağı" (Uncaria Tomentosa ekstraktı) xronik C hepatitli xəstələrdə limfopeniya və trombositopeniyanın korreksiyası üçün istifadə olunmuşdur. Bu preparat pegiləolunmuş alfa- interferonla virusəleyhinə terapiyaya daxil edilmişdir.

SUMMARY

CYTOPENIA CORRECTION WITH "CAT'S CLAW" AT CHRONIC VIRAL HEPATITIS C DURING PROCESS OF ANTIVIRAL TREATMENT WITH ALPHA-INTERFERONS

S.N.Maliyshev, A.I.Nikolayeva, E.A.Akhmedov

The authors presented results of clinical observation demonstrated that "cat's claw" (Uncaria tomentosa extract) was applicated for drug correction of lymphopenia and trombocytopenia at chronic hepatitis C patients undergone combined antiviral therapy with pegilated alpha-interferons.

Daxil olub:14.01.2011

XRONIKI BÖYRƏK ÇATMAMAZLIĞININ TERMINAL MƏRHƏLƏYƏ QƏDƏR MÜDDƏTININ PROQNOZLAŞDIRILMASI BARƏDƏ

Ş.M.Cabbarov

Ə.Əliyev adına Azərbaycan Dövlət həkimləri təkmilləşdirmə institutu, Bakı

Xroniki böyrək çatmamazlığının (XBÇ) tibbi-sosial ağırlığı praktik səhiyyədə bu patologiyanın terminal mərhələyə keçidinin proqnozunu və modifikasiya imkanlarının əsaslandırmaq zərurətini yaradır. Hal-hazırda XBÇ fonunda orqanizmin funksional durumu dərindən öyrənilmiş və onu qiymətləndirmək üçün mühüm meyarlar toplumu işlənmişdir [1,5,6,7]. Patologiya əksər orqan və sistem-ləri zədələdiyinə görə onun zəngin klinik təzahürləri mövcuddur. Bir sıra əlamətlər XBÇ-nin ağır nəticələrini proqnozlaşdırmağa imkan verir, xüsusən əvəzedici terapiyanın insan ömrünü uzatmaq-da rolunu əks etdirən meyarlar əsaslandırılmışdır [2,5,6]. Tədqiqatımızda MƏQSƏD XBÇ-nin terminal mərhələyə qədər müddətinin proqnozlaşdırılması üçün orqanizmin funksional durumunu əks etdirən və XBÇ üçün təyini ənənəvi hesab edilən meyarların yararlı olması ehtimalını qiymətləndirmək olmuşdur.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Tədqiqatın müşahidə vahidi terminal mərhələnin ərəfəsində olan (kreatinin klirensi dəqiqədə 10 ml-ə qədər) xəstə olmuşdur. Müşahidənin obyektini 153 pasiyent (48 diabetik nefroskleroz, 56 xroniki qlomerulonefrit, 26 xroniki pielonefrit və 23 digər səbəblərlə bağlı XBÇ) təşkil etmişdir. Anamnestik məlumatlardan və retrospektiv

sənədlərdən istifadə edərək XBÇ-nin terminal mərhələyə qədər müddəti müəyyən edil-mişdir. Bu müddətə görə pasiyentlər iki yarımqrupa bölünmüşdür (157 aya qədər və 157 aydan çox davam edən XBÇ). Müşahidə Azər-baycan Respublikası Səhiyyə Nazirliyinin akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının nefroloji şöbəsində aparıl-mışdır. Bütün pasiyentlərdə klinik tövsiyələrə müvafiq standart me-yarlar (qanda kreatinin, kreatinin klirensi, bədən kütləsi və onun indeksi, qanda zülal və onun fraksiyaları, kalsium, fosfor, xoles-terin, hemoqlobin, eritrositlərin çökmə sürəti, arterial təzyiq və sair, elektro və exokardioqrafiya) qiymətləndirilmişdir. XBÇ-nin ilkin səbəbini nəzərə almaqla iki qrup (diabetik və qeyri diabetik mənşəli XBÇ) ayırd edilmişdir. Xroniki böyrək çatmamazlığının terminal mərhələyə qədər müddətinə (XBÇTMQM) görə ayırd et-diyimiz yarımqruplarda yuxarıda qeyd etdiyimiz meyarların sə-viyyələri müqayisə olunmuşdur. Statistik işləmədə orta və nisbi kə-miyyətlərin təhlili metodları tətbiq edilmişdir [3].

ALINMIŞ NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI. Xəstələrin yaşı 14-80 intervalında dəyişmiş və XBÇ-nin ilkin səbəbindən asılı fərqli sə-ciyyələrə malik olmuşdur (Cədvəl 1). Xəstələrin yaşı orta hesabla 49,2±0,42 il təşkil etmiş, onların çoxu (göstəricinin modası) 53 yaşda olmuşdur. Pasiyentlərin orta yaşı XBÇ-nin səbəbindən asılı fərqlidir: 42,3±0,46 xroniki qlomerulonefrit, 50,6±0,42 xroniki pielonefrit, 56,2±0,25 diabetik nefroskleroz, 45,4±0,80 böyrəklərin polikistozu, 55,6±0,87 hipertonik nefrosklerozla bağlı XBÇ-da. XBÇ-nin ilkin səbəbindən asılı terminal mərhələyə keçidin ən çox müşahidə olunduğu yaş (yaş göstəricisinin modası) bir-birindən daha kəskin fərqlənir: 34,0 xroniki qlomerulonefritdə, 67,5 xroniki pielonefritdə, 56,0 diabetik nefrosklerozda, 36,0 böyrəklərin po-likistozunda və 66,0 hipertonik nefrosklerozda.

Müşahidəmizdə olan pasiyentlərdə XBÇTMQM 102,5-242,5 ay intervalında dəyişmişdir, onların 76 nəfərində (35 xroniki qlomerulonefrit, 29 diabetik nefroskleroz, 5 xroniki pielonefrit və 7 digər patologiyalar) bu göstəricinin səviyyəsi 157 aydan az, 77 nəfərində (21 xroniki qlomerulonefrit, 19 diabetik nefroskleroz, 21 xroniki pielonefrit, 16 digər patologiyalar) 157 aydan çox olmuşdur. Dia-betik və qeyri diabetik mənşəli XBÇTMQM-indən asılı pasiyent-lərin bir sıra meyarlara görə səciyyələri 2-ci cədvəldə verilmişdir.

Cədvəl 1

Xroniki böyrək çatmamazlığının terminal mərhələyə keçidində xəstələrin yaş səciyyələri

Xəstələr	Yaş səciyyələri (illər)									
	Minimal	Maksimal	Moda	Mediana	Orta	Sentillər				
						2,5	16	50	84	97,5
Cəmi, o cümlədən	14,0	80,0	53,0	52,0	49,2±0,42	17,2	33,5	52,0	63,0	72,0
Xroniki qlomerulo-nefrit	17,0	80,0	34,0	42,0	42,3±0,46	17,0	26,6	42,0	57,0	73,3
Xroniki pielonefrit	15,0	72,0	67,5	53,0	50,6±0,42	17,5	40,0	53,0	68,0	70,8
Diabetik nefropatiya	37,0	77,0	56,0	56,0	56,2±0,25	42,4	47,5	56,0	64,5	72,8
Böyrəklərin polikistozu	33,0	69,0	36,0	43,0	45,4±0,80	33,0	38,5	43,0	52,2	59,8
Hipertoniya nefroskleroz	39	70,0	66,0	61,0	55,6±0,87	43,2	49,5	61,0	61,8	68,2

Göründüyü kimi, kreatinin qanda miqdarı XBÇTMQM 157 aydan az və 157 aydan çox olan diabetik və qeyri diabetik mənşəli XBÇ olan yarımqruplarda bir-birindən statistik dürüst fərqlənir. Terminal mərhələyə keçid dövründə kreatinin qanda miqdarı diabetik mənşəli XBÇ fonunda nisbətən yüksəkdir. Hər iki qrup üçün (diabetik və qeyri diabetik) ümumi səciyyə odur ki, nisbətən tez proqressivləşən XBÇ daha çox qanda kreatinin miqdarının çoxalması ilə assosiasiya olunur. Kreatinin klirensi 9,1±0,22 ml/dəq ilə 9,9±0,19 ml/dəq arasında tərəddüd edərək bir-birindən statistik dürüst fərqlənir (P< 0,05). XBÇTMQM 157 aydan az və 157 aydan çox olan yarımqruplar üzrə göstəricinin səviyyəsi həm diabetik (9,1±0,22 və 9,8±0,20 ml/dəq), həm də qeyri diabetik (9,2±0,21 və 9,9±0,19 ml/dəq) mənşəli XBÇ-lərdə bir-birindən dürüst seçilmişdir (P<0,05). Nisbətən tez proqressivləşən XBÇ kreatinin kli-rensinin daha çox azalması ilə assosiasiya olunmuşdur. Müqayisə olunan yarımqruplarda pasiyentlərin bədən kütləsinin indeksi də bir-birindən statistik dürüst fərqlənmişdir. Göstəricinin nisbətən aşağı səviyyəsi XBÇTMQM 157 aydan az olan yarımqruplarda qeydə alınmışdır.

Cədvəl 2

Xroniki böyrək çatmamazlığının terminal mərhələyə qədər müddətinin uzunluğundan (XBGTMQM) asılı pasiyentlərin səciyyələri

Göstəricilər	Diabetik mənşəli XBÇ			Qeyri diabet mənşəli XBÇ		
	XBGTMQM		P	XBGTMQM		P
	<157 ay	>157 ay		<157 ay	>157 ay	
Kreatinin,mmol/l	0,82±0,021	0,70±0,019	<0,001	0,72±0,015	0,63±0,013	<0,001
Kreatinin klirensi, ml/dəq	9,1±0,22	9,8±0,20	<0,005	9,2±0,21	9,9±0,19	<0,005
Bədən kütləsinin indeksi, kq/m^2	22,2±0,15	23,9±0,18	<0,001	22,0±0,12	23,1±0,15	<0,001
Qanda: albumin, q/l	37,8±0,13	38,9±0,22	<0,001	37,9±0,16	38,8±0,22	<0,001
α_2-qlobulin, %	11,5±0,21	12,4±0,18	<0,005	10,9±0,23	12,0±0,17	<0,001
γ -qlobulin, %	19,9±0,15	20,8±0,16	<0,001	18,8±0,17	19,5±0,14	<0,005
Eritrositlərin çökmə sürəti, mm/s	45,6±0,74	43,4±0,65	<0,005	46,8±0,73	45,2±0,74	>0,005
Qanda: kalsium, mmol/l	2,11±0,013	2,22±0,012	<0,001	2,16±0,015	2,34±0,014	<0,001
fosfor, mmol/l	1,96±0,021	1,83±0,022	<0,001	1,98±0,018	1,80±0,019	<0,001
xolestrin, mmol/l	6,21±0,019	6,01±0,016	<0,001	5,88±0,016	5,74±0,015	<0,001
hemoqlobin, q/l	78,5±1,2	88,8±1,3	<0,001	74,8±1,3	82,6±1,4	<0,001
Arterial təzyiq: sistolik	154,2±1,1	146,5±1,2	<0,001	159,5±1,3	153,2±1,1	<0,001
diastalik	88,5±0,8	84,6±0,9	<0,001	89,9±0,9	87,5±0,8	<0,005
orta	108,2±0,9	104,1±1,0	<0,001	109,8±1,1	107,1±1,0	<0,005
nəbzi	63,4±0,8	60,2±0,9	<0,001	64,2±0,9	61,3±1,1	<0,001
Sol mədəciyin: kütləsi (q)	298,5±1,8	291,2±2,0	<0,001	309,5±2,2	301,4±1,9	<0,001
indeksi (q/m^2)	169,5±1,9	162,4±1,8	<0,001	184,2±2,1	176,5±2,2	<0,005
həcmi (ml)	152,2±2,5	145,6±2,1	<0,001	168,4±2,6	159,9±2,5	<0,001

Bədən kütləsinin indeksi diabetik və qeyri diabetik mənşəli nisbətən tez (157 aydan az) və ləng (157 aydan çox) proqressiv-ləşən XBÇ fonunda bir-birindən statistik dürüst fərqlənir. Statistik dürüst fərq pasiyentlərin qanında albuminin, α_2 və γ qlobulinin miqdarına görə də izlənilir. Bu göstəricilərin hamısına görə dia-betik mənşəli XBÇ olan pasiyentlərin müvafiq qrupları bir-birindən statistik dürüst fərqlənmirlər. Ümumi səciyyə odur ki, nisbətən az proqressivləşən XBÇ bədən kütləsi indeksinin, qanda albuminin, α_2 və γ qlobulinin miqdarının az olması ilə assosiasiya olunur.

Diabetik və qeyri diabetik mənşəli XBÇ olan pasiyentlər bir-birindən eritrositlərin çökmə sürətinə və hemoqlobinin qanda miq-darına görə statistik dürüst fərqlənir: qeyri diabetik mənşəli XBÇ fonunda eritrositlərin çökmə sürəti nisbətən yüksəkdir, hemoqlobinin qanda miqdarı isə azdır. Hər iki formalı XBÇ-nin nisbətən tez proqressivləşən variantı ləng proqressivləşən variantla müqayisədə bu göstəricilərin statistik dürüst fərqli olması ilə səciyyələnir (erit-rositlərin çökmə sürəti yüksək, hemoqlobinin qanda miqdarı azdır).

Diabetik və qeyri diabetik mənşəli XBÇ fonunda pasiyentlərin qanında kalsiumun, fosforun və xolestrinin miqdarının fərqli statistik dürüst deyildir, amma XBÇ-nin proqressivləşmə intensivliyinə görə ayırd edilmiş qruplarda (XBÇTMQM 157 aydan az və 157 ay-dan çox) bu göstəricilərin səviyyələri statistik dürüst fərqlənir. Nisbətən tez proqressivləşən XBÇ hiperxolestrinemiyanın və hiperfosfotemiyanın, hipokalsiemiyanın daha kəskin olması ilə səciyyələnir.

Diabetik və qeyri diabetik mənşəli XBÇ fonunda pasiyentlər bir-birindən arterial təzyiqin səviyyəsinə və əsas exokardioqrafik göstəricilərə görə də statistik dürüst fərqlənirlər: qeyri diabetik XBÇ üçün arterial hipertenziyanın, sol mədəciyin kütləsinin, indek-sinin və həcminin nisbətən yüksək olması səciyyəvidir. Hər iki for-malı XBÇ-nin nisbətən tez və ləng proqressivləşən variantlarında bu göstəricilərin fərqi statistik olmuşdur. Göstəricilərin nisbi yüksək səviyyəsi XBÇTMQM 157 aydan az olan yarımqruplarda qeydə alınmışdır.

Beləliklə, XBÇ-nin klinik təzahürünün əsas meyarları (qanda kreatinin, albuminin, qlobulinlərin, hemoqlobinin, xolestrinin, kal-sium və exokardioqrafik əlamətlər) patologiyanın proqressivləşmə intensivliyindən asılı statistik dürüst fərqlənir. Bu həmin meyar-ların XBÇTMQM-in proqnozlaşdırılması üçün istifadəsi imkanını sübut edir. Onların proqnostik əhəmiyyətini

qiymətləndirmək üçün istifadə olunmuş meyarların səviyyələri iki qismə bölünmüş, XBÇ-nin ağırlığını təyin etməkdə roluna görə + (daha çox ağırlıq əlaməti) və - (nisbətən ağırlığın azlığı) qiyməti verilmişdir. Bu qiymətə müvafiq sayılmış pasiyentlərin sayı XBÇTMQM 157 aydan az və 157 aydan cox olduğu qruplarda müəyyənləşdirilmişdir. Belə bölgü istifadə olunan meyarların həssaslığını, spesifikliyini, proqnostik əhəmiyyətini hesablamaq üçün yararlıdır. Göstəricilər ənənəvi qaydada [4] hesablanmışdır. Alınmış nəticələrin fraqmenti 3-cü cəd-vəldə verilmişdir.

Göründüyü kimi təqdim etdiyimiz meyarların XBÇTMQM-in qiymətləndirilməsi üçün həsasslığı 64,5±5,5%-lə 92,1±3,1% arasın-da, spesifikliyi 55,8±5,7%-lə 80,5±4,5% arasında tərəddüd etmiş və etibarlı sayıla bilən dərəcədə yüksəkdir. Göstəricilərin proqnostik əhəmiyyəti də yüksəkdir (63,1±4,6%-lə 81,0±4,4% arasında dəyişir).

Cədvəl 3

Xroniki böyrək çatmamazlığının terminal mərhələyə qədər müddətinin prediktorlarının həssaslığı, spesifikliyi və proqnostik əhəmiyyəti (PV+göstəricinin+qiymətinin proqnostik əhəmiyyəti; PV-göstəricinin – qiymətinin proqnostik əhəmiyyəti)

Prediktorlar	Səviyyə	XBÇTMQM (ay)		Həssaslıq, %	Spesifiklik %	PV+	PV-
		<157 n=76(+)	>157 n=77(-)				
Kriatinin klirensi, ml/dəq	<9,0 (+)	59	34	77,6±4,8	55,8±5,7	63,4±5,0	28,3±5,8
	>9,0 (-)	17	43				
Qanda albumin q/l	<36 (+)	62	31	81,6±4,4	59,7±5,6	66,7±4,9	23,3±5,5
	>36 (-)	14	46				
Qanda γ qlobulin %	<19 (+)	57	29	75,0±5,0	62,3±5,5	66,2±5,1	28,4±5,5
	>19(-)	19	48				
Qanda kalsium mmol/l	<1,9 (+)	49	26	64,5±5,5	66,2±5,4	65,3±5,5	35,5±5,4
	>1,9(-)	27	51				
Hemoqlobin q/l	<80 (+)	64	15	84,2±4,2	80,5±4,5	81,0±4,4	16,2±4,3
	>80 (-)	12	62				
Sol mədəciyin kütləsi (q)	<295 (+)	70	41	92,1±3,1	46,8±5,7	63,1±4,6	14,3±5,4
	>295 (-)	6	36				

Alınmış nəticələrin yekun müddəaları kimi aşağıdakıları qeyd etmək olar: 1.Xroniki böyrək çatmamazlığının terminal mərhələyə keçdiyi orta yaş 49,2±0,42 ildir və XBÇ-nin ilkin səbəblərindən asılı fərqlənir (nisbətən gənc yaş-42,3±0,46 il xroniki qlomerulo-nefrit, ahıl yaş isə-56,2±0,95 il diabetik nefroskleroz üçün səciyyəvidir); 2.Xroniki böyrək çatmamazlığının terminal mərhələyə qədər müddəti geniş intervalda (102,5-242,5 ay) dəyişir və onun ilkin səbəbindən asılı fərqlənir; pasiyentlərin orta hesabla yarısı üçün bu müddət 157 aydan azdır; 3.Xroniki böyrək çatmamazlığının terminal mərhələyə qədər müd-dəti 157 aydan az və çox olan pasiyent qrupları bir-birindən xəstəliyin ağırlığını əks etdirən əlamətlərin əksəriyyətinə görə (kreatinin klirensi, bədən kütləsinin indeksi, qanda albumin və qlobulinlərin, hemoqlobinin, xolesterinin, kalsium, fosfor və sair; arterial təzyiq, exokardioqrafik meyarlar) bir-birindn sta-tistik dürüst fərqlənir, həmin əlamətlərin XBÇ-nin intensiv proqressivləşməsinin prediktoru kimi istifadəsi mümkündür (həs-saslığı və proqnostik əhəmiyyəti yüksəkdir).

ƏDƏBIYYAT

1. Cavadzadə M.C., Həmidov İ.M., Babayev F.H. Xroniki böyrək çatışmazlığı. Bakı: Çaşıoğlu, 2007, 176 s.
2. Гусейнова Ш.С., Джавадов Ф.Г. Сравнительная оценка предикторов летального исхода у больных с диабетической и не диабетической нефропатиями //Azərbaycan təb. müasir nailiyyətləri,2008,№3, c.76-79
3. Стентон Г. Медико-биологическая статистика. М., Практика. 1999, 459 с.
4. Флетчер Р., Флетчер С., Вагнер Э. Клиническая эпидемиология. Основы доказательной медицины. М.: Медиа. Сфера, 1998, 352 с.
5. Choi E.S., Ahn S.J. Jin D.C. Korean Renal Registry Report // Nephrol., 2000, №5, p. 139-144
6. Cooper M.E. Pathogenesis, prevention and treatment of diabeticnephropathy//Lancet,1998,v.352,p.213-219
7. Hoy W. Renal disease in Australian Aborigines // Nephrol. Dial. Transplant., 2000, №15, p. 1293-1297

РЕЗЮМЕ

О ПРОГНОЗИРОВАНИЕ ПРОДОЛЖИТЕЛЬНОСТИ ДОТЕРМИНАЛЬНОЙ ХРОНИЧЕСКОЙ

Ш.М.Джаббаров

В работе поставлена цель, оценить возможности прогнозирования продолжительности до терминальной хронической почечной недостаточности (ХПН). Под наблюдением находились пациенты,

у которых продолжительность дотерминальной ХПН составляла меньше и больше 157 месяцев. В этих группах проведено сравнение уровней традиционных критериев ХПН (клиренс креатинина, индекс массы тела, содержания в крови альбумина и глобулинов, кальция и фосфора, гемоглобина и прочих; артериальное давление и эхокардиографические показатели). Показано, что все эти критерии достоверно отличаются в группах с разной продолжительностью до терминальной ХПН. Рекомендуется использование этих критериев для прогнозирования вероятности прогрессирования ХПН.

SUMMARY

ABOUT PROGNOSTICATION OF DURATION PRETERMINAL CHRONIC RENAL INSUFFICIENCY

Sh.M.Jabbarov

In work it was raised an object in order to value the possibilities of prognostication of duration pre terminal chronic renal insuf-ficiency (CRI). The patients were under observation who duration the terminal CRI had formed less and more 157 months. In these groups it was conducted the comparison of the levels of the traditional criteria of CRI (clearance of creatinine, index of body mass, content of albumin and globulines in blood, calcium and phosphorus, hemoglobin and so on; arterial pressure and echocardiograph cal parameters). It was shown that all these criteria differed for certain in groups with the different duration pre terminal CRI. It is recommended an application of these criteria for prognostication of probability of CRI progressiveness.

Daxil olub:07.03.2011

BUD SÜMÜYÜNÜN XRONİKİ OSTEOMİELİTİNİN CƏRRAHİ MÜALİCƏSİNDƏ İNTELLEKTUAL SİSTEMLƏRİN ROLU

E.İ. Qubadov

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi- tədqiqat travmatologiya və ortopediya institutu, Bakı

Uzun sümüklərin osteomielitinin müalicəsi probleminin aktuallığı xəstəliyin rastgəlmə faizinin yüksəkliyi, patoloji prosesin gedişinin ağırlılığı və davamlılığı, müalicənin mürəkkəbliyi və çətinliyi ilə müəyyən olunur. Bir xəstəyə sərf olunan külli miqdarda maddi vəsait, əmək qabiliyyətinin uzun müddətə itirilməsi və əlilliyin yüksək faizi (11% və daha çox) problemin sosial əhəmiyyətini müəyyənləşdirir [13,14]

Travmatologiya və ortopediya sahəsində əldə edilən uğurlara baxmayaraq bud sümüyünün xroniki osteomielitinin müalicəsi böyük çətinliklər törədən və bir çox hallarda əlilliyə gətirib çıxaran xəstəlik olaraq qalmaqdadır [3,17,18,19].

Bud sümüyündə aparılan planlı cərrahi müdaxilələrdən sonra osteomielit 2%-dən 5-10%-ə qədər, həmçinin ortopedik əməliyyatlardan sonra 3,9%- 4,8% hallarda inkişaf edir [6,15].

Xəstələrin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün iri oynaqların endoprotezləşdirilməsinin intensiv inkişafında əldə edilən aşkar uğurlara baxmayaraq endoprotez nahiyəsində irinləmələrin sayının artması müşahidə olunmaqdadır.

Dayaq–hərəkət aparatının infeksiyasının müaliəcəsi zamanı cərrahın qarşısında 3 əsas vəzifə durur: - irinli-iltihabi prosesin ləğv edilməsi, ətrafların dayaq qabiliyyətinin bərpa edilməsi, ortopedik qüsurların korreksiyası.

Tərəfimizdən istifadə edilən elmi ədəbiyyatın təhlilindən məlum olur ki, patoloji ocağın (bitişən sınıq, bitişməyən sınıq, metal konstruksiya və sekvestrlərin olması, periostal reaksiyaların baş verməsi) vəziyyətindən asılı olaraq osteomielitin cərrahi müalicəsinin vahid konsepsiyası işlənməmişdir. Bu patologiyadan əziyyət çəkən xəstələrin müalicəsinin müxtəlifliyini və bu sahədə standartlaşdırmanın həyata keçirilməməsini osteomielitin təsnifatının olmaması ilə izah etmək olar. Belə təsnifat müəyyən əsas amillər üzrə patoloji ocağın vəziyyətinin maksimal saylarını sistemləşdirməyə imkan verə bilər.

Bu və ya digər məsələləri həll etmək üçün təbabətdə son illər müxtəlif ekspert sistemləri (ES) işlənib hazırlanır və istifadə olunur. Yeni texnologiyaların tətbiq edildiyi tibb sahələrinin sayı çoxdur və ketdikcə artmaqdadır.

Azərbaycanda travmatologiya və ortopediya sahəsində ES-lərdən istifadə haqqında ilk məlumatlar mətbuatda 2001-ci ildə [2,5], neyron şəbəkə texnologiyalarının tətbiqi üzrə ilk tədqiqat işləri isə ilk dəfə 2003-cü ildə öz əksini tapmışdır [1,4].

Ekspert sistem «Proloq» proqram dilində tərtib edilmişdir. Xroniki osteomielitdən əziyyət çəkən xəstələrin müalicəsi üçün cərrahi müdaxilə növünün seçimində onun effektivliyi qabarıq şəkildə özünü göstərmişdir. Travmatologiya və ortopediyada bu istiqamətlərin inkişafı uşaq ortopediyası, travmatologiyası, irinli travmatologiya üzrə yeni ekspert sistemlərin qurulması üçün alqoritm modellərinin işlənməsində öz əksini tapmışdır [2,3,7,8,9,10,11,12].

Azərbaycanda tibb sahəsində neyron şəbəkələrdən istifadə üzrə ilkin tədiqaqat işləri 2003-cü ildə meydana gəlmişdir [1,16]. Özünün «Ortopediyada cərrahi müdaxilə seçiminin intellektual sistemi» adlı dissertasiyasında Hacıyev Z.A. travmatoloji xəstələrdə patoloji ocağın maketinin qurulması üçün fotorobotlu ES proqramını yaratmışdır [7]. İlk dəfə olaraq fotorobotun köməkliyi ilə başlıca əlamətlər əsasında patoloji ocağın maketinin qurulması imkanı əldə edilmişdir.

Travmatologiya və ortopediyada kompüter texnologiyalarının inkişafı nəinki xroniki osteomielitin diaqnostikasını, həm də xəstələrin müalicəsinin nəticələrini kifayət qədər yaxşılaşdırmağa imkan vermişdir. Buna baxmayaraq mövcud ES cərrahi müdaxilələrin optimal variantının seçimini böyük dəqiqliklə aparmağa imkan vermir, belə ki, onlarda patoloji ocaqların çox az əlamətləri əks olunmuşdur. Xüsusilə, BSXO zamanı çoxlu sayda cərrahi müdaxilələr məlumdur, lakin praktiki olaraq onların bu və ya digər patoloji ocaqla əlaqəsi yoxdur.

Beləliklə, təbabətdə əsas etibarilə cərrahi müaliəcənin konkret növünə göstərişin seçimi üsulunun optimallaşdırılması BSXO-nun müalicəsi üçün bir çox məsələləri həll edə bilər, hansı ki, ədəbiyyatda bu barədə məlumat yoxdur.

MATERİALLAR VƏ METODLAR. Tədqiqatın aparılması məqsədilə tərəfimizdən Azərbaycan Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun, Bakı şəhər Kliniki Travmatologiya Xəstəxanasının və Lənkəran RMX-nın travmatologiya-ortopediya şöbəsinin materiallarına əsasən BSXO olan 200 xəstənin müayinə və müalicəsinin analizi aparılmışdır. Bunlardan 175-i ilkin, 25-i təkrar daxil olmuşdur. Yaş hədlərinə görə bütün xəstələr aşağıdakı bölgü üzrə ayrılmışlar:

Xəstəliyin etiologiyasına görə xəstələr aşağıdakı kimi qruplaşdırılmılmışlar: hematogen osteomielitlə - 95 xəstə, əməliyyatdansonrakı osteomielitlə - 59 xəstə, gülləyarasıdansonrakı osteomielitlə - 18 xəstə, travmadansonrakı və mil osteomieliti ilə uyğun olaraq – 2 və 2 xəstə.

Beləliklə, alınmış məlumatların təhlilindən görünür ki, xəstələrin əsas hissəsini hematogen osteomielitli (53%) və əməliyyatdansonrakı osteomielitli (34%) xəstələr təşkil edir.

Patoloji prosesin bud sümüyü boyunca yerləşməsinə görə xəstələr aşağıdakı kimi bölünmüşlər. Proksimal və distal epimetafizar nahiyələr - 45 (26%) xəstədə zədələnmişdir. 130 (74%) xəstədə patoloji proses bud sümüyünün diafizar hissəsində yerləşmişdir. Əlbəttə, patoloji ocağın belə bölgüsü şərti xarakter daşıyır, belə ki, osteomielit zamanı bütün sümük toxuması zədələnmiş olur.

BSXO olan xəstələrdə patoloji ocağın vəziyyətinin müxtəlifliyini nəzərə alaraq, cərrahi müdaxilə metodunu seçdikdə onlardan hansının daha vacib və əsas olduğunu təyin etməyə çalışdıq. Bizim fikrimizcə, bu məsələlərdən daha vacibi bud sümüyü tamlığının pozulub-pozulmamasını müəyyən etməkdir.

BSXO olan xəstələrin cərrahi müalicəsi zamanı cərrahi müdaxilə metodunu seçərkən daha bir əhəmiyyətli amil patoloji ocaqda müxtəlif yad cisimlərin- metal qurğuların olmasıdır.

XO-nun ən xarakterik rentgenoloji əlamətlərindən biri sekvestrlərin olmasıdır. Sonuncular müxtəlif formalarda və ölçülərdə ola bilər. Bizim xəstələrdə 97 (55.4%) halda sekvestr aşkar olunmuşdur.

ŞÜA DİAQNOSTİKASI. Bud sümüyünün xroniki osteomielitinin diaqnostikasının şüa metodlarına 2 proyeksiyalı adi rentgenoqrafiya, fistul yolunun müayinəsi üçün fistuloqrafiya, kompüter tomoqrafiyası, nüvə maqnit rezonansı, sintiqrafiya aiddir. Şüa metodlarından daha geniş yayılanı rentgenoqrafiya və fistuloqrafiyadır.

Daxil olan zaman bütün xəstələr üzərində 2 proyeksiyalı standart rentgenoloji müayinələr aparılmışdır. Sonradan zəruri hallarda dinamik renetgenoloji müayinələr aparılmışdır. Fistulu olan xəstələrə fistuloqrafiya tətbiq edilmişdir.

Son zamanlar xəstələrin kompleks müayinəsində biz KT və Azərbaycanda ilk dəfə olaraq KT-fistuloqrafiyadan istifadə etməyə başladıq. Tədqiqat standart protokollardan istifadə etməklə SHİMADZU firmasının spiral şəkilli kompüter tomoqrafında aparılmışdır. Kompleks müayinə zamanı biz 3D rekonstruksiyalı KT və 3D rekonstruksiyalı KT-fistuloqrafiyadan istifadə etmişik.

Xroniki osteomielitin diaqnozunun qoyulmasında anamnez məlumatları, klinik əlamətlər, laborator və instrumental müayinələrin nəticələri nəzərə alınır. Bundan əlavə, sümükdə və yumşaq toxumalarda zədələnmələrin həcminin və xarakterinin müəyyən olunması üçün mütləq və əlavə müayinə metodlarından da istifadə etmək məqəsədəuyğundur. Ona görə də əlamətlərin olub-olmaması haqqında məlumatların bütün mümkün kombinasiyalarının siyahısı çoxlu sayda vəziyyətlər siyahısından ibarət olacaqdır. Bu, bizim qarşımıza orqanizmin vəziyyətinin diaqnostikası və düzgün cərrahi müdaxilə seçimi zamanı yeni yaradılmış modellərdən istifadə etməyin, başqa sözlə əldə edilmiş məlumatlar əsasında müxtəlif patologiyaların təsvirini qurmağa imkan verən modellərdən istifadə etməyin (lakin onları təqdim edilən siyahıdan seçməmək) labüdlüyünü qoyur. Bu zaman orqanizmdə gedən proseslərin mürəkkəbliyi və proseslərin formalaşmaması ilə əlaqədar olaraq yeganə çıxış yolu insan (bu halda təcrübəli klinisitlər) bacarıqlarının immitasiyası və təhlilinə yönəldilmiş ekspert sistemləri (ES) metodudur. Ekspert sistem - mürəkkəb texniki, təşkilati, tibbi və s. sistemlərin idarə olunması metodudur.

Cərrahi müdaxilə haqqında qərar verməzdən əvvəl cərrah bir sıra hərəkətləri edir. Cərrah tərəfindən cərrahi müdaxilə haqqındakı qərarın qəbul edilməsi mexanizmini təsvir edən model tərtib etmişik.

Aparılmış müayinələr nəticəsində məlumatların toplanması prosesi bitdikdən sonra diaqnoz formalaşdırılır və ya patoloji ocağı xarakterizə edən konkret vəziyyət təyin edilir. Bundan sonra, çox zaman isə bu prosesə paralel olaraq cərrah tərəfindən öz təcrübə və biliklərinin, buna bənzər vəziyyətlərin, qərarların və bu qərarların nəticələrinin təhlili aparılır. Çətinlik yaranarsa, cərrah digər həmkarlarının təcrübəsinə - konsiliuma müraciət edir. Yalnız bundan sonra cərrahi müdaxilə haqqında optimal qərar qəbud edilir.

Diaqnoz patoloji ocağı xarakterizə edən əsas əlamətlərin aşkarlanması hesabına qoyulur. Bud sümüyünün müxtəlif irinli- iltihablı xəstəlikləri zamanı xəstələrin kliniki-rentgenoloji məlumatlarının təhlili patoloji ocaqları xarakterizə edən əsas informativ əlamətləri aşkar etməyə imkan verdi. Konkret olaraq, bud sümüyünün xroniki osteomeliti olan 200 xəstənin müayinəsi və müalicəsi əsasında patoloji ocağı daha dəqiq xarakterizə edəcək aşağıdakı əlamətləri aşkar etmişik:

1. Sümük tamlığının vəziyyəti;
2. Patoloji ocağın lokalizasiyası;
3. Oynaq qığırdağında zədənin olub-olmaması;
4. Metal konstruksiyanın olması;
5. Osteosintezin stabilliyi;
6. Deformasiyanın olması;
7. Fraqmentlərin uclarında periostal reaksiyanın baş verməsi;
8. Sekvestrin olması;
9. Fistulun olması.

Yuxarıda sadalanan əlamətlərin hər biri proqramda təsvir olunmaq üçün maksimum dərəcədə sadələşdirilib. Məsələn, sekvestrin olub-olmaması əlaməti sadəliyi ilə yanaşı özündə böyük informativlik daşıyır, çünki burada sekvestrin yerləşməsi, onun ölçüsü və s. qeyd olunmur.

Sümük tamlığının pozulması əlaməti proqrama sadə şəkildə daxil edilmək üçün daha da mücərrədləşdirilmişdir. Sümük tamlığının pozulması, xəstənin sümüyündə müayinəyə qədər gedən müxtəlif patoloji proseslərin son nəticəsi ola bilər. Onlara patoloji sınıq, yalançı oynaq, bitişməyən sınıq, qüsur-diastaz aiddir. Bu əlamətin periostal reaksiyanın (fraqmentləri sonluqlarında baş verən periostal reaksiyanın olması nəzərdə tutulur) baş verməsi kimi digər əlamətlə kombinasiyası, təkcə diaqnozun (məsələn: yalançı oynaq) qoyulmasını deyil, həm də buna uyğun olan cərrahi müdaxilənin düzgün seçimini müəyyən edə bilər.

Oynaq qığırdağının zədələnməsinin olub-olmaması kimi əlamətin informativliyi şübhə doğurmur. Belə ki, sümüyün oynaq sonluqlarının rezeksiyası kimi vacib qərarın qəbul edilməsi bu əlamətin mövcudluğundan asılıdır.

Metal konstrusiyanın olub-olmaması əlaməti özündə osteosintez, eləcə də endoprotez üçün məlum konstruksiyaların bütün arsenalını əks etdirir. Həm rentgenoloji, həm də kliniki məlumatlar əsasında əldə edilən stabillik kimi əlamətlə bu əlamətin kombinasiyası cərrahi müdaxilə prosesində konstruksiyanın saxlanılması və ya çıxarılması kimi vacib qərarın qəbul edilməsində əsas rol oynaya bilər.

Bütün mövcud deformasiya növəlrinin müxtəlifliyi - bucaq, rotasiya, eninə və uzununa yerdəyişmələr, sümük toxumusının qüsurunu biz bir əlamət şəklində- deformasiyanın olub-olmaması əlaməti ilə birləşdirdik.

Periostal reaksiyanın olub-olmaması əlaməti sümük toxumasının həyat qabiliyyətli olduğunu xarakterizə edir. Onun baş verməməsi sümük toxumasının nekrozundan xəbər verir. Təcrübəli klinisist əməliyyat zamanı sümüyün hansı hissəsinin rezeksiyasının mümkün olduğunu əvvəlcədən görə bilər.

Beləliklə, əsas əlamətlərin müəyyən edilməsi bizə patoloji ocaqda mövcud olan əlamətlərin kombinasiyasından asılı olaraq vəziyyətlərin öyrənilməsi qaydalarının ağacşəkilli ierarxik sxemini qurmağa imkan verdi.


Vəziyyət dedikdə patoloji ocağın konkret vəziyyəti nəzərdə tutulur. Beləliklə, alınmış ağacşəkilli quruluş mövcud vəziyyəti təyin etmək üçün nizamlanmış məlumatlar hesab olunur və tibbi ekspert sistemin biliklər bazasının hazırlanması üçün istifadə oluna bilər. Ekspert sistemi (ES) - insan-ekspertin hərəkət tərzini immitasiya edən kompüter proqramıdır. ES-in tibbə tətbiqi, xüsusilə də cərrahi müalicənin konkret növünün seçiminin optimallaşdırılması üçün, osteomielitli xəstələrin müalicəsi zamanı bir çox problemləri həll etməyə kömək edəcək.

Patoloji ocaq haqqında informasiya verən bu əlamətlərin kombinasiyası konkret vəziyyət kimi təsvir olunur. Əlbəttə ki, patoloji ocağı təsvir edən bir sıra başqa əlamətlər də vardır, lakin onların əməliyyat haqqında qərarın qəbul edilməsində rolu çox da əhəmiyyətli deyildir. Məhz yuxarıda adı çəkilən əlamətlərin olub-olmaması cərraha imkan verir ki, cərrahi müdaxilə haqqında bu və ya digər qərarı qəbul etsin. Bu da öz növbəsində bir neçə ardıcıl cərrahi manipulyasiyalardan ibarət olacaqdır. Buna əsasən patoloji ocağın əsas əlamətlərinə uyğun olaraq ardıcıl aparılan cərrahi manipulyasiyalar dəsti olmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, irinli travmatologiyada bir əməliyyat zamanı bir neçə manipulyasiya icra olunur. Onları müəyyən ardıcıllıqla apramaq lazımdır. Bu və ya digər manipulyasiyalar və onların ardıcıllığının optimal seçimi üçün standartlaşdırmanın aparılması və şəraitin yaradılması məqsədilə biz patoloji ocağın vəziyyətindən asılı olaraq ayrı-ayrı cərrahi manipulyasiyaların təsvirini tərtib etmişik. Onlara aiddir:

1. Nekroektomiya;
2. Fistulonekroektomiya;
3. Sekvestronekroektomiya;
4. Fistulosekvestronekroektomiya;
5. Metal konstruksiyanın çıxarılması;
6. Sağlam toxumalar çərçivəsində fraqment sonluqlarının rezeksiyası;
7. Xarici fiksə aparatı ilə osteosintez;
8. İlizarov metodu ilə monolokal osteosintez;
9. İlizarov metodu ilə biolokal osteosintez;
10. İlizarov metodu ilə pilolokal osteosintez;
11. Endirilmiş fraqmentin əlavə ostoetomiyası ilə birgə trilokal ostosintez,
12. Əmiraslanov metodu ilə sümuk-plastik trepanasiyası;
13. Metal konstruksiyalar ilə osteosintez;
14. Sümük toxumasının autorplatikası;
15. İncik sümüyü autoplastikası;
16. Papinea metodu və s.

Yuxarıda sadalanan manipulyasiyalar siyahısından məlum olur ki, onları şərti olaraq əməliyyat mərhələlərinə bölmək olar: debritman, fraqmentlərin stabilləşdirilməsi ilə əlaqədar

olan manipulyasiya, ətrafların rekonstruksiyasına yönəldilmiş manipulyasiya, regenerasiya və reparasiya proseslərinin stimullaşdırılmasına yönəldilmiş manipylyasiyalar. Beləliklə, 4 manipulyasiyanı özündə birləşdirən cərrahi müalicə taktikası meydana gəlir (Şək. 1).



Şək. 1. Cərrahi manipulyasiya və patoloji ocaqların əlamətlərinin qarşılıqlı əlaqə sxemi

Cərrahi əməliyyatın munipulyasiayalar dəsti patoloji ocaq əlamətlərinin konkret kombinasiyasından asılıdır. Beləliklə, cərrahi manipulyasiyaların düzgün seçilməsi və ardıcıllıqla növbələşdirilməsi nəticəsində optimal cərrahi müdaxilə seçimi formalaşdırılır.


Hər bir əsas əlamətin rolunun müəyyənləşdirilməsi məqsədilə patoloji ocağı vizuallaşdırmaq üçün tərəfimizdən patoloji ocağın sxematik təsviri təklif olunumuşdur. Fotorobotun tərtibi prosesi cərraha daha dəqiqliklə, nəinki patoloji ocağın əsas əlamətlərini (bu, təkrar olaraq dəfələrlə onu həmin əlamətləri aşkar etmək üçün daha dəqiq müəyinənin aparılmasına gətirəcək), həm də fotorobotun tərtibi prosesində əlamətlərin təsviri ardıcıllığını müəyyən etməyə imkan verəcək. Bu da öz növbəsində cərrahi manipulyasiyaların aparılması ardıcıllığını müəyyən etməyə şərait yaradacaqdır.

Fotorobotun tərtib edilməsi, bu və ya digər əlamətlərin kodlaşdırılmış təsvirlərinin toplanmasına əsaslanır. Bu təsvirlər fotorobot proqramının verilənlər bazasına qabaqcadan daxil edilmişdir. Buraya osteosintez üçün istifadə edilən bütün məlum metal konstruksiyaların sxematik təsvirləri də daxildir.

Fotorobotun tərtib edilməsi bud sümüyü boyunca pratoloji ocağın yerinin təyin edilməsindən başlanır. Bundan sonra sxemə sümük tamlığının pozulub-pozulmaması əlaməti daxil edilir.


Daha sonra ardıcıl olaraq həmin xəstəyə məxsus olan digər əlamətlər, eləcə də metal konstruksiyaların növləri də daxil edilir.

Patoloji ocağın fotorobotu tərtib edildikdən sonra cərrahi müdaxilələrin aparılması ardıcıllığı ümumi şəkildə məlum olur. Belə ki, ekspert sistem fotorobotun tərtibi prosesinə paralel olaraq sorğu-cavab yolu ilə yekun vəziyyəti müəyyən edir. Bundan sonra istifadəçinin tələbi ilə ekspert sistem bu və ya digər cərrahi müdaxilənin aparılması və ardıcıllığı haqqında tövsiyələr verir. Proqram elə bir şəkildə tərtib edilmişdir ki, ikinci pəncərədə ES-nin təklif etdiyi manipulyasiyalar ardıcıllığının qurulması aparılarkən əməliyyatdan sonra proqnozlaşdırılan yeni yekun vəziyyətin sxematik təsvirini qurmaq mümkün olur. Buna görə də fotorobota ya yeni əlamətlər daxil edilir, ya da köhnələri oradan çıxarılır. Beləliklə, cərrah əməliyyata qədər əməliyyatdan sonra proqnozlaşdırılan yeni yekun vəziyyətin sxematik modelini qabaqcadan görə bilir. Başqa sözlə, cərrahi müdaxilənin nəticəsinin qısa müddətli proqnozunu tərtib etmək mümkün olur (Şək. 2).



Şək. 2 Fotorobot cərrahi müdaxilə və ondan sonrakı vəziyyət haqqında tövsiyələr verən pəncərəsinin maketi

BSXO olan xəstələr üzərində cərrahi müdaxilənin optimal metodunun seçimi üzrə ekspert sistem yaradıldıqdan sonra onun carrah tərəfindən qərar qəbul etmə prosesində yeri haqqında sual meydana çıxır. Bizim fikrimizcə, bu ekspert sistem cərrahın əlavə məsləhət üçün müraciət edə biləcəyi vacib tamamlanmış biliklər obyektidir. Ekspert sistem öz qərarını təkrarən yoxlamağa və ekspert-cərrahın təcrübəsi ilə müqayisə etməyə şərait yaradır. Bundan əlavə ekspert sistem diaqnozun tərtib edilməsi üçün məlumatların toplanması prosesində cərrahın diqqətinin patoloji ocağı xarakterizə edən əsas simptomların toplanması və təhlilinə cəlb edilməsinə imkan yaradacaqdır (Şək. 3).



Şək. 3 Cərrah tərəfindən optimal cərrahi müdaxilənin seçimi prosesində ekspert sistemin yeri

Paralel olaraq ekspert sistemdə vəziyyətin keyfiyyət və kəmiyyət baxımından formalaşması baş verir. Daha sonra ekspert sistemə müraciət edilərkən bu və ya digər cərrahi müdaxilənin aparılmasına dair məsləhətlər verilir. Bu məsləhətlərin nəticələrini də fotorobot proqramının köməkliyi ilə vizuallaşdırmaq mümkündür.

Beləliklə, cərrahi müdaxilənin seçimi haqqında qərarın qəbul olunmasına görə ekspert sistemin yaradılması konkret vəziyyətin dəqiqliklə təyin edilməsinə (diaqnozun qoyulmasına), digər tərəfdən cərrahi müdaxilə metodunun seçimi haqqında qərarı konkretləşdirməyə imkan yaradır.

ƏDƏBİYYAT

1. Абдуллаева Г.Г., Али–заде Ч.А., Гаджиев З.А, Гаджиев Р.Э. Применение методов искусственного интеллекта для оптимизации выбора оперативного лечения больных с хроническим остеомиелитом / Научн. практ. конфер. Новые технологии в диагностике и лечении хирургической инфекции на основе доказательной медицины. Тезисы докладов. М., 2003, с. 1-3

2. Али-Заде Ч.А., Аль Хайсам Абдалла Анализ хирургической ситуации у больных с хроническим постоперационным остеомиелитом, предшествующей его возникновению / Достиж. мед. науки и прак Здравоох. Азерб. Баку, 2002, Т.2, с.223-232

3. Али-заде Ч.А., АльХайсам Абдалла, Гаджиев Р.Э. Комплексное лечение больных с постоперационным остеомиелитом / Научн.практ. конфер. Новые технологии в диагностике и лечении хирургической инфекции на основе «доказательной медицины». М., 2003, с. 140-146

4. Али–заде Ч.А., Гаджиев Р.Э., Губадов Э.И. Имитационная модель медицинской экспертной системы в травматологии, построенная на результатах исследования процессов принятия решения с врачами –клиницистами / Azəbaycanda tibb elmi və praktik səhiyyənin müasir naliyyətləri. Bakı, 2005, I c., с. 290-293

5. Али-Заде Ч.А., АльХайсам Абдалла, Гулиев Ф.Г., Гаджиев Р.Э. Поиск методов оптимизации выбора оперативного лечения у больных с постоперационным остеомиелитом / Науч. практ. конфер. станда-рты диагностики и лечения в гнойной хирургии. М., 2001, с.11-13

6. Ангельский А.А. Хирургическое лечение посттравматического остеомиелита бедренной кости / Реконструктивные методы лечения в травматологии и ортопедии. Кемерово, 1992, с.11-13

7. Гаджиев З.А. Интеллектуальная система выбора оперативного вмешательства в ортопедии: Автореф. дис. … канд. тех. наук. Баку, 2005, 18 с.

8. Гаджиев Р.Э. Консультирующая система в помощь хирургу // Петербургский журнал электроника, 2005, № 2, с.88-91

9. Гаджиев Р.Э, Кулиев А.М. Построение модели медицинской экспертной системы в ортопедии, основанной на идеях искусственного интеллекта // Azərbaycan tibb jurnalı, 2005, №3, с.116- 118

10. Гаджиев Р.Э. О моделировании процессов принятия решения человеком на основе технологии экспертных систем // Milli Aviasiya Akademiyası, 2005, №4, с. 75-79

11. Гаджиев Р.Э Применение методологии искусственного интеллекта в моделировании травматологии и ортопедии / Национальной Академии Наук Азерб. Серия физико-математических и технических наук. Информатика и проблемы управления. Баку, 2005, Т.25, с. 98-102

12. Гаджиев Р.Э. Экспертная система в ортопедии, как пример средств программирования в интеллектуальных системах / Национальная Академия Наук Азерб. Респ., АНАКА., Национальная Академия Авиации. Труды Юбилейной международной научно- технической конференции, посвященной 70-летию академика А.Ш. Мехтиева. Информационные и электронные технологии в дистанционном зондировании, 20-23 декабря. Баку, 2004

13. Грицай Н.П. О результатах лечения больных с посттравматическим остеомиелитом // Ортопед., травмат., протезир., 1991, №9, с.15-18

14. Каплан А.В., Махсон Н.Е., Мельникова В.М. Гнойная травматология костей и суставов. М.: Медицина, 1985, 384с.

15. Никитин Г.Д., Рак А.В.,ЛинникС.А. и др.Хирургическое лечение остеомиелита.СПб.,2000,287 с.

16. Ali-zade Ch., Gadjiev R., Jalilov Y., Gadjiev Z. Modem Approaches to Complex Treatment of Patients With Chronic Osteomyelis / 3 Meeting A.S.M.I. Inter. Istambul, 2004, p.284

17.Chen C.E, Ko J.Y, Wang J.W, Wang C.J.J. Infection after intramedullary nailing of the femur // Trauma, 2003, v.55, p.338-344

18.Martini M, Daoud A, Saighi-Bouaouina A. Surgical treatment of chronic hematogenous osteomyelitis. A series of 420 cases // Rev Chir Orthop Reparatrice Appar Mot., 1994, v.80, p.642-650

19.Richter J, Schulze W, Muhr G. Diaphyseal femur pseudarthroses-only a technical problem? // Chirurg, 2000, v.71, p.1098-1106

РЕЗЮМЕ

РОЛЬ ИНТЕЛЛЕКТУАЛЬНЫХ СИСТНМ В ХИРУРУГИЧЕСКОМ ЛЕЧЕНИИ ХРОНИЧЕСКОГО ОСТЕОМИЕЛИТА БЕДРЕННОЙ КОСТИ

Э.И.Губадов

Хирургическое лечение хронического остеомиелита бедренной кости является актульной проблемы хирургии и травматологии. Целью нашего исследования является изучение роли интеллектуальных систем в оптимизации хирургического лечения хронического остеомиелита бедренной кости. Исследование проводилось в Научно- исследовательском институте травматологии и ортопедии Министерства Здравоохранения Азербайджанской республики. В исследование вошли 200 больныз. они были диагностированы и получили лечение по поводу хронического остеомиели. Из 175 больных обращались в первые, а 25 больных вторично. Таким образом, использование эксперт системов помогает принять решение по поводу выбора метода лечения и оптимизировать хирургического лечения хронического остеомиелита бедренной кости

SUMMARY

ROLE IN OPTIMIZING INTELLIGENT SISTEM SURGERY TREATMENT OF CHRONIC OSTEOMYELITIS OF THE FEMUR

E.I.Gubadov

Surgery treatment of chronic osteomyelitis of the femur is a problem actual Surgery and Traumatology. Purpose of our study is to examine the role of intelligent systems to optimize the surgery treatment of chronic

osteomyelitis femur. The study was conducted at the Research Institute of Traumatology and Orthopedics of the Ministry of Health Azerbaijan Republic. The study included 200 patients. They were diagnosed and received treatment for chronic osteomyelitis on 175 patients treated at first, and 25 patients with sick again. Thus, the use of expert system helps to make a decision about the choice of treatment and to optimize the surgical treatment of chronic osteomyelitis of the femur.

Daxil olub: 21.11.2010

DƏRİNİN AÇIQ ZƏDƏLƏNMƏLƏRİ İLƏ İNTENSİV TERAPİYA BÖLMƏSİNDƏ MÜALİCƏ ALAN XƏSTƏLƏRDƏN İZOLƏ EDİLMİŞ MİKROORQANİZMLƏRİN MORFOBİOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ ANTİBİOTİKLƏRƏ HƏSSASLIĞI

H.T. Mansurova, R.B.Bayramlı
Azərbaycan tibb universiteti, Bakı

Dəri və dərialtı toxumanın cərrahi, yanıq və travmatik mənşəli zədələnmələri müxtəlif bakterial ştammlarla yoluxma riskini artırır. Bu ştammlar bəzən müxtəlif amillərin təsirindən antibiotiklərə yüksək dərəcədə rezistentlik qazanmış və xəstəxana mühitində uzun müddət dövr edən mikroorqanizmlər olur. Bu tip ştammlarla yoluxma adətən nozokomial xarakter daşıyır.

Cərrahi əməliyyatdan sonra inkişaf edən yara infeksiyaları piodermiya, abses, fleqmona və s. kimi lokal, bəzən isə septik infeksiya şəklində ağırlaşmış xarakterdə olur. Əksər müəlliflərin fikrincə, cərrahi yaraların irinləməsi heç də hər zaman nozokomial infeksiya hesab olunmur [3]. Cərrahi əməliyyat aparılarkən anatomik baryerlər, o cümlədən dərinin tamlığı pozulduğuna görə dərinin səthində məskunlaşan mikrofloranın yerdəyişməsi baş verir. İnvaziv müdaxilədən əvvəl dəri səthində çoxsaylı antibiotiklərə davamlı nozokomial törədicilərin məskunlaşması təhlükəli infeksiya riskini artırır.

Qeyd etmək lazımdır ki, hər bir tibb müəssisəsində çoxsaylı antibiotiklərə davamlı mikrofloranın dövr etməsi xəstəxana və şöbənin tipindən, xəstələrin patologiyasından, eyni zamanda tibbi yardımın növündən asılıdır. Bu və bir sıra digər amillər nəzərə alınaraq immun reaktivliyi zəifləmiş, ağır patologiyalı xəstələrdə əməliyyatdan öncə profilaktik məqsədlə tətbiq edilən antibiotiklərin seçimində diqqətli olmaq lazımdır. Bu zaman əməliyyat bölgəsi, burada kolonizasiya edə biləcək mikroorqanizmlər və dərmanın farmakoloji xüsusiyyətləri nəzərə alınmalıdır [2].


Başlıca hospital ştammmlar stafilokoklar, enterobakteriyalar və fermentasiya etməyən Qram mənfi bakteriyalardır. Bu mikroorqanizmlər toxumalara yüksək kolonizasiya qabiliyyəti, virulentlik, antibiotiklərə genetik davamlılıq, antiseptik və dezinfektantlara həssaslığın zəifləməsi ilə xarakterizə olunur. Adı çəkilən törədicilərlə baş verən yara infeksiyaları əməliyyatdan 3-7 gün sonra inkişaf edir. Bəzən yara infeksiyaları assosiativ xüsusiyyət daşıyır. Cruse yara infeksiyalarını bakteriyalarla kontaminasiya dərəcəsinə görə 4 yerə ayırmışdır: təmiz sayılan yarada bakteriyalar 2%-ə qədər, şərti təmiz sayılan yaralarda 7,8-11%, kontaminə olmuş yarada 12,9 -17%, çirkli yaralarda 10-40% miqdarda rast gəlinir [12]. Nozokomial infeksiya probleminə həsr olunmuş əksər məqalələrdə fermentasiya etməyən bakteriyalardan *Pseudomonas aeruginosa* və *Acinetobacter baummanii* ştammları, Genişlənmiş Spektrli Beta-laktamaza (GSBL) sintez edən *Enterobacteriaceae* nümayəndələri (*K.pneumoniae*, *E.coli*, *Proteus spp.* və s.), metisillinə davamlı stafilokoklar və vankomisinə davamlı enterokoklardan bəhs edilir [4,11].

Bu məqalədə təqdim olunan araşdırmaların əsas MƏQSƏDI Mərkəzi Hərbi Klinik Hospitalın (MHKH) intensiv terapiya bölməsində stasionar müalicə alan, bu və ya digər amillərin təsirindən dərisinin tamlığı pozulmuş xəstələrin travma nahiyəsində inkişaf edən, həmçinin generalizə edən infeksiya törədicilərinin və onların antibiotiklərə həssaslıq spektrinin müəyyən edilməsi, müalicə və profilaktika üçün bir sıra təkliflərin hazırlanmasıdır.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Tədqiqatlar 2009-2010-cu illərdə MHKH-nin intensiv terapiya bölməsində müalicə alan 42 nəfər xəstəni əhatə etmişdir. Müayinə üçün hospitalda 48 saatdan artıq müddətdə müalicə alan şəxslər seçilmişdir. Tədqiqat qrupunun 17 nəfərində travmadan, 7 nəfərində yaralanmadan, 4 nəfərində yanıqdan, 14 nəfərində isə cərrahi əməliyyatdan sonra dəri tamlığının pozulması baş vermiş, zədə nahiyəsində irinli proses inkişaf etmişdir (Şəkil 1).

Yara nahiyəsindən götürülmüş patoloji materiallar (irin, nekrotik toxuma) ATU- nun Mikrobiologiya və İmmunologiya kafedrasının elmi - tədqiqat laboratoriyasında bakterioloji

üsullarla müayinə olunmuşdur. Patoloji materiallar kultivasiya edildikdən sonra aerob şəraitdə inkubasiya edilmişdir. 48 saatdan sonra inkişaf etmiş koloniyalar konvensional üsullarla identifikasiya edilmişdir. Patoloji materialda kritik miqdarda (>10^5 KƏV/q) olan Qram mənfi bakteriyalara məxsus (Enterobacteriaceae və fermentasiya etməyən) ştammların antibiotiklərə həssaslığı disk-diffuziya üsulu ilə öyrənilmişdir. Bu zaman CLSİ standartlarına əməl olunmuşdur. Qram müsbət bakteriyalara məxsus ştammlar isə sonrakı tədqiqatlar üçün dərin dondurucuda saxlanılmışdır.



Şək. 1. Müayinə olunmuş xəstələr

İzolə edilmiş ştammların epidemioloji xüsusiyyətləri Ondokuz Mayıs Universitetinin (Türkiyə, Samsun) molekulyar araşdırma laboratoriyasında PFGE üsulu ilə öyrənilmişdir.

TƏDQIQATIN NƏTICƏLƏRI. Apardığımız bakterioloji müayinə nəticəsində xəstələrdən fermentasiya qabiliyyəti olmayan Pseudomonas və Acinetobacter, Enterobacteriaceae fəsiləsinə daxil olan Klebsiella, Escherichia, Proteus cinsli Qram mənfi bakteriyalar, koaqulaza neqativ və pozitiv stafilokoklar izolə olunmuşdur (Cədvəl 1).

Etioloji agentlər mono- və poli- infeksiya şəklində infeksion fəsadlaşma nahiyəsində aşkar olunmuşlar. Xəstələrin 48 % - də (n=20) mono-, 52% - də isə poli-infeksiya müşahidə olunmuşdur (Cədvəl 2). Monoinfeksiya törədiciləri kimi Pseudomonas (60%) və Klebsiella (40%) cinsinə daxil olan bakteriyalar ayırd edilmişdir. Polimikrob infeksiyada bu bakteriyalar bir-biri ilə (45%), Acinetobacter (18%) cinsli bakteryialarla, o cümlədən E.coli və Proteus spp.(9%) qarışığından ibarət olaraq müəyyənləşdirilmişdir.

Cədvəl 1

Dəri tamlığının pozulmasından sonra izolə edilmiş mikroorqanizmlər

Dəri tamlığının zədələnmə səbəbi			İzolə edilmiş mikroorqanizm ştammları		İzolə edilmiş mikroorqanizmlər						
					S.aureus	KNS	E.coli	Klebsiella spp	Proteus spp	P.aeruginosa	Acinetobacter
	n	%	N	%							
Travma	17	40,5	23	48	6	9	--	2	-	5	1
Yaralanma	7	16,6	12	25	4	-	2	6	1	8	2
Yanıq	4	9,5	9	18,7	2	1	2	4	1	10	4
Cərrahi əməliyyat	14	33,4	4	8,3	8	4	--	10	-	5	1
Cəmi	42	100	48	100	20	14	4	22	2	28	

Xəstələrin 28 nəfərində Pseudomonas, 22 nəfərində Klebsiella, 8 nəfərində Acinetobacter, 4 nəfərində E.coli, 2 nəfərində Proteus cinsli bakteriyalar aşkar olunmuşdur. Aldığımız nəticələrdən məlum olur ki, həm monoinfeksiya, həm də qarışıq infeksiya törədiciləri arasında domonantlıq Pseudomonas, Klebsiella və Acinetobacter cinsli Qram mənfi bakteriyalara məxsusdur. Mikrofloranın kəmiyyət və keyfiyyət xarakteristikası aparıldıqdan sonra Pseudomonas və Klebsiella cinsli bakteriyaların yanıq, travma və cərrahi əməliyyatlardan sonrakı infeksion fəsadlaşmada daha sürətlə kolonizasiya etmələri müəyyənləşdirildi. Xəstələr arasında Pseudomonas və Acinetobacter cinsli

bakteriyaların yayılmasının nozokomial xarakterli olması molekulyar-epidemioloji tədqiqatlarla (PFGE) öz təsdiqini tapmışdır.

Cədvəl 2

Yaralardan izolə edilmiş ştammmlar

Etioloji struktur		Nisbi miqdar	Kəmiyyət tərkibi (KƏV/q)
Monoinfeksiya	20	48%	
1.Pseudomonas 2.Klebsiella	12 8	60% 40%	$>10^5$ $>10^5$
Poliinfeksiya	22	52%	
1. Pseudomonas Klebsiella	10	45%	10^6 10^4
2. Pseudomonas Acinetobacter	4	18%	10^6 10^5
3.Pseudomonas E.coli	2	9%	$>10^5$ 10^4
4. Acinetobacter Klebsiella	4	18%	10^6 10^5
5. Proteus E.coli	2	9%	$>10^5$ $>10^5$

Yara infeksiyalarından aşkar edilmiş nozokomial ştammmların antibiotiklərə rezistentliyi disk - diffuziya üsulu ilə öyrənilmişdir. Cədvəl 3-də əldə etdiyimiz nəticələr qeyd olunmuşdur:

Cədvəl 3

Yaralardan izolə edilmiş ştammmların antibiotiklərə rezistentliyi

Antibiotik	Pseudomonas (n=28)	Klebsiella (n=22)	Acinetobacter (n=8)	E.coli (n=4)	Proteus (n=2)
Amoxisillin+clavulonic asit	28 (100%)	0%	8 (100%)	0%	0%
Seftazidim	23(82%)	8,4(38%)	6,4 (80%)	1(25%)	2(100%)
Sefotaksim	21(76%)	8(37%)	6(74%)	1(25%)	1(50%)
Amikasin	3(12%)	2(9%)	1(9%)	2(50%)	1(50%)
Siprofloksasin	9(33%)	3(13%)	3(32%)	3(75%)	1(50%)
İmipenem	1(3%)	0%	0%	0%	0%
GSBL	20(70%)	22 (100%	5(63%)	4 (100%)	2(100%

Apardığımız tədqiqatlarının nəticələrini nəzərə alaraq aşağıdakı qiymətləndirməni apara bilərik. Əldə etdiyimiz əksər nozokomial ştammmların amikasin, seftazidim, sefotaksim, siprofloksasin, amoksasillin / klavulanat kimi antibakterial preparatlara yüksək rezistentlik səviyyəsini nəzərə alaraq bu antibiotiklərin praktik olaraq istifadəsi yol verilməzdir. Həyati təhlükə yaradan infeksiyaların müalicəində ən "etibarlı", nozokomial patogenlərin çoxsaylı rezistentlik mexanizimlərini üstələyən karbapenemlərdir. Onlar bir çox aerob və anaerob, Qram mənfi və Qram müsbət (metisillinə rezistent stafilokokklardan başqa), 3-cü, 4-cü nəsl sefalosporinlər və ftorxinolonlara qarşı rezistent Qram mənfi bakteriyalar tərəfindən törənmiş ağır hospital infeksiyaların müalicəsində seçici preparatdırlar. Karbapenemlər bir çox antibiotiklər arasında 1-ci tip beta laktamaza və GSBL olan şəraitdə stabilliyini qoruyan yeganə antibiotikdir. "Problem bakteriya" P.aeruginosa-nın müalicəsində onun ən yüksək həssaslıq göstərdiyi meropenem, imipenem və digər karbapenemlər, o cümlədən aminoqlikozidlərdən amikasin, siprofloksasin kimi preparatlar təyin edilə bilər.

Çoxsaylı antibiotiklərə qarşı təbii rezistentliyə malik olan, yaxud həmin xüsusiyyəti müalicə prosesində formalaşdırmış nozokomial infeksiya törədicilərində rezistentlik xromosomla idarə olunan GSBL –ın hiperproduksiyası, hüceyrə divarında antibiotik üçün keçiriciliyin zəifləməsi və preparatın hüceyrədən aktiv xaric edilməsi ilə əlaqədardır.

GSBL və C sinfindən olan xromosomal beta laktamaza hazırlayan ştammmlar tərəfindən yaranan Nİ-da letallıq yüksək olur. Bunları nəzərə alaraq Nİ-ın müalicəsi üçün optimal antibakterial müalicə rejiminin seçilməsi şübhə doğurmur. Müvafiq start antibiotik müalicə prosesinin əvvəlində təyin edilməlidir. Seçilmiş antibakterial rejim lokal törədicilər və onların antibiotiklərə rezistentliyi,

infeksiyanın lokalizasyası, ağırlıq dərəcəsi, xəstənin vəziyyəti nəzərə alınaraq aparılmalıdır. Antibiotikin özünün farmakokinetik və farmakodinamik göstəriciləri nəzərədə tutularaq doza və kurs müalicə təyin edilməlidir. Empirik qaydada antibakterial preparat mikrobioloji müayinənin nəticələrini nəzərə alaraq məlum törədiciləri əhatə edən geniş təsir spektrli (Qram mənfi və Qram müsbət törədicilərə təsir göstərən) tədricən daha dar aktivlik spektirinə malik olan preparata keçməklə deeskalasion şəkildə müalicə təyin edilir. Deeskalasion antibiotik müalicə rejimi Nİ-da problem yaradan polirezistent ştammmlara qarşı aktiv olan karbapenemlər (imipenem, meropenem) 3-cü nəsl sefalosporinlər(məs, sefoperazon / sulbaktam) və s. başlayır. Rezistent Qram müsbət kokkların müalicəsində vankomisin və ya linezolid empirik müalicə preparatı kimi istifadə olunmalıdır [1].

3-cü nəsil sefalosporinlərdən sefaperazon/sulbaktamın antipseudomonad aktivliyi yüksəkdir. Enterobacteriaceae fəsiləsi hospital ştammmlarının hazırladığı GSBL və C sinfindən olan xromosom beta-laktamaza fermentlərinin hidrolizindən qorumaq məqsədilə suibaktam ingibitoru əlavə olunmuşdur. Bu preparat RİTŞ (reanimasiya və intensiv terapiya şöbəsi)-ində nozokomial yara infeksiyalarının empirik müalicəsində istifadə olunmalıdır. Ümumiyyətlə 3-cü nəsl sefalosporinlərindən nəzarətasiz istifadə olunması zamanı enterobakteriyalar tərəfindən yaranan infeksiyalara rastlanır. Bu səbəbdən xəstələrdən enterobakteriyalar izolə edilərsə həssaslıq öyrənilmədən belə 3-cü nəsil sefalosporinlər istifadə edilməməlidir [12].

Nozokomial infeksiyaların müalicəsində daha çox istifadə olunan antibiotiklərə qarşı, aşkar etdiyimiz nozokomial ştammmların rezistentlik vəziyyətini öyrəndikdən sonra aşağıdakı nəticələrə gəldik. P.aeruginosa Qram mənfi, fermentasiya qabiliyyəti olmayan bakteriyalar arasında nozokomial infeksiyaların müalicə prosesində antibiotiklərə qarşı ən davamlı bakteriya olmuşdur. P.aeruginosa tərəfindən yaranan infeksiyalar potensial təhlükəli və ağır gedişə malikdir. Bu mikroorqanizmlər müxtəlif məhlullar, ləvazimatlar, dəri və selikli qişa səthlərində kolonizasiya olunma xüsusiyyəti ilə seçilirlər. Digər nozokomial infeksiya törədicisi Acinetobacter təbii olaraq az virulentlidir. Lakin uzun müddətli antibiotik müalicəsi fonunda istifadə olunmuş əksər antibiotiklərə qarşı onun davamlı ştammmlarının seleksiyası baş verir [4].

Enterobacteriacea fəsiləsi nümayəndələri arasında E.coli, K.pneumonia, Proteus spp., Enterobacter spp.-da xromosomla idarə olunan GSBL (genişlənmiş spektrli beta laktamaza) ilə əlaqəli rezistentlik formalaşdırırlar.

Mikrobioloji diaqnostik məlumatlara əsaslanmadan təyin edilmiş empirik müalicə uğursuz nəticələnir. Antibiotiklərə qarşı mikroorqanizmlərdə formalaşan rezistentlik çox vaxt antibiotik istifadəsi zamanı əmələ gəldiyi üçün doğru antibiotik profilaktikası ilə həm yara infeksiyalarının qarşısı alınar, həm də gərəksiz antibiotik istifadəsini azaltmaqla maddi xərcləri azaltmaq və antibiotiklərə qarşı rezistentliyin qarşısını almaq mümkündür [12].

ƏDƏBIYYAT

1. Белобородов В.Б. //Клиническая фармакология и терапия, 2002, №11(2),с.16-19.
2. Бейкин Я.Б., Руднов В.А., Шилова В.П. и др. Стандартные операционных процедуры: микробиологическая диагностика госпитальных инфекции. // Инфекции в хирургии, 2008, №1, с.19-27.
3. Гучев И.А., Французов В.Н. Рациональная антибактериальная терапия тяжелых хирургических инфекции // Русский медицинский журнал, 2006, №1.
4. Илюкевич Г.В. Деэскалация – новый подход в антибактериальной терапии госпитальных инфекции. // Медицинские новости, 2004, №2, с.3-9
5. Сидоренко С.В., Резван С.П., Еремина Л.В. Этиология и антибиотикочувствительность возбудителей тяжелых госпитальных инфекции в отделениях реанимации // Антибиотики и химиотерапия, 2005, №50(2-3), с.33-41.
6. Страчунский Л.С., Решедько Г.К. Рябкова Е.Л. и др. Рекомендации по оптитмизации антимикробной терапии нозокомиальных инфекций вызванных грамотрицательными бактериями в отделениях реанимации и интенсивной терапии. Пособие для врачей. М., 2003, 22с.
7. Фокин А.А., Галкин Д.В., Мищенко В.М., Муравев Ф.Ф., Козлов Р.С. Уроки епидемиологических исследований нозокомиальных инфекции в России. // Клиничеслая микробиология и антимикробная химиотерапия 2008, №10, с.4-14.
8. Centers for Diesease Control and prevention National Nosokomial infections Surveillanse (NNIS)System Report // Am.J.Infect Control., 2003, v.31, p.481-498.
9. Garcie-Rodrigenez J.A., Jones R.N. Antibicrobial rezistanse in Gram-negative isalates from Europan intensive care units: data from the Meropenem Yearly Susceptibility Test information Collection (MYSTIC) programme //J.Chemother. 2002, v.14(1), p.25-32.

10. Tom V.H., Schilling A.N., Neshats: Poople K., Melnik D.A., Coylle E.A. Optinization of meropenem minimum concentration (MIC) ratiotosuppress in vitro resistanse of Pseudomonas aeruginosa // Antimicrob Agents Chemother., 2005, v.49(12), p.4920-4927.

11. Zaragoza R., Artera A., Camarena J., Sancho S. et al The influence of inadequate empirical antimicrobial treat-ment on patients.With bloodstream infections in an intensive care unit // Clin. Microbiol infect., 2003, v.9(5), p.412-418.

12. Kalafat Hasan. Cerrahlar hastane infeksiyalarının neresinde? //Ankem Dergisi., 2010, v.24, p.123-129.

РЕЗЮМЕ

МОРФОБИОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА И ЧУВСТВИТЕЛЬНОСТЬ К АНТИБИОТИКАМ МИКРООРГАНИЗМОВ, ВЫДЕЛЕННЫХ ОТ БОЛЬНЫХ ОТДЕЛЕНИЙ ИНТЕНСИВНОЙ ТЕРАПИИ, ПОЛУЧАВЩИХ ЛЕЧЕНИЕ ПО ПОВОДУ ОТКРЫТОЙ ТРАВМОЙ КОЖИ

Х.Т.Мансурова, Р.Б.Байрамлы

В статье представлено результаты микробиологического изучение ,а также определения чувствительности к антибиотикам микроорганизмов выделенных от больных, получавших лечение в отделениях интенсивной терапии по поводу открытой травмой кожи и последующий инфекционными осложнениями. В результате бактериологического исследования от больных были выделены не обладающие ферментативной активности, Pseudomonas и Acinetobacter, и входящие в семейство Enterobacteraceae Klebsiella, Escherichia и род Proteus, а также коагулаза негативные и позитивные Staphylococcus. Был установлен нозокомиальный характер инфекций, вызванных у больных Pseudomonas и Acinetobacter с помощью молекулярно-эпидемиологическим методом(PFGE). В результате изучения чувствительности выявлено, что резистентность некоторых микроорганизмов формируется в период использования антибиотиков и поэтому рекомендована целесообразность истинной антибиотикопрофилактики.

SUMMARY

MORPHOLOGIAL CHARACTERIIZATION AND REZISTENSTANCE TO ANTIBIOTICS OF MIKROORGANISMS, ISOLATED FROM PATIENTS IN CARE UNIT, TRATED CONCERNING OPEN SKIN DAMAGE

H.T. Mansurova, R.B.Bayramlı

İn article inrodust results of microbiological investiqation and definition of susceptibiotics microorqanisms isolated from patients treated concerninq open skin damage in care unit.in a result of bacteriologic study it was isolated Pseudomonas and Acinetobacter wich didn`t enzymatic activity and bacteria from family Enterobacteraceae Klebsiella,Eseherichia and spp.Proteus,also Kaoqulaze neqative and positive Staphylococcus.It was established nosocomial infections,caused by Pseudomonas and Acinetobacter usinq molecular epidemiologic metod-PEGE. It was also defined the increasinq of resistencity of some microorqanisms to antibiotics durinq treatment patient in hospitals.There fore it was recommended necessity adecwate antibioticoprofilaxis.

Daxil olub:28.01.2011

SÜD VƏZİSİ XƏRÇƏNGİNƏ GÖRƏ CƏRRAHİ ƏMƏLİYYATDAN SONRA TAMOKSİFENİN İSTİFADƏSİ ZAMANI ENDOMETRİYADA BAŞ VERƏ BİLƏCƏK PATOLOGİYALARIN HİSTEROSKOPİK DİAQNOSTİKASI

Ə.X. Kərimov, G.A.Əliyeva
Milli Onkologiya Mərkəzi, Bakı

Süd vəzisi xərçəngi olan qadınlarda postmenopauzal dövrdə estrogen reseptorları müsbət olduqda adyuvant terapiya məqsədilə tamoksifen istifadə olunur. Tamoksifenin bir sıra əlavə təsirləri mövcuddur ki, bunlardan daha çox endometriyanın hiperplaziyasına rast gəlinir [2,3]. Endometriyanın hiperplaziyası xərçəngönü vəziyyət hesab olunur[1]. Klinik tədqiqatların nəticəsinə əsaslanaraq tamoksifen qəbul etmiş xəstələrdə endometriyanın xərçənginə 2-7 dəfə çox rast gəlinir. Buna görə də tamoksifen qəbul etmiş qadınlar anomal uşaqlıq qanaxmaları zamanı onkoloqlar tərəfindən müayinədən keçməlidirlər. Retrospektiv tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, 40mq/sutkada tamoksifen qəbul etmiş xəstələrdə rast gəlinən endometriyanın xərçəngi, tamoksifen qəbul etməmiş endometriyanın xərçəngi olan xəstələrə nisbətən pis proqnoza və daha aqressiv gedişata malik olması ilə xarakterizə olunur [4,5].


Tamoksifenlə hormonal terapiya alan qadınlar endometriyanın xərçənginin profilaktikası üçün vaxtaşırı transvaginal USM-sindən keçməli, endometriyanın qalınlığından asılı olaraq histeroskopik müayinə aparılmalıdır[6,7]. Histeroskopiya zamanı uşaqlıq boşluğunu tam vizualizə etmək, lazım gəldikdə məqsədyönlü biopsiya etmək mümkündür.

Tədqiqat işinin MƏQSƏDI Süd vəzisi xərçəngi zamanı adyuvant terapiyada istifadə olunan tamoksifenin endometriyaya təsirinin transvaginal USM-si (TVUSM), histeroskopiya və endometriyanın məqsədyönlü biopsiya vasitəsilə öyrənilməsindən ibarətdir.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Milli Onkologiya Mərkəzində 2006-2011-ci ildə tamoksifenlə adyuvant terapiya alan süd vəzisi xərçəngi olan 50 xəstəyə prospektiv müayinə aparılmışdır. Tamoksifenlə müalicə olunan xəstələr 6 ay müddətində klinik müayinədən və endometriyanın qalınlınlığını təyin etmək məqsədilə transvaginal USM-dən keçmişlər.Endometriyanın qalınlığı TVUSM-də ön-arxa ölçücə təyin olunur. Endometriyanın qalınlığı 8 mm-dən az olarsa, normal hesab olunur. 50 xəstədən 45-də(90%) endometriyanın qalınlığı 8 mm-dən artıq olduğuna görə xəstələrdə diaqnostik histeroskopiya və endometriyanın məqsədyönlü biopsiyası icra olunmuşdur. 50 xəstədən 45(90%)-i 5 ilə qədərdir ki, tamoksifenlə adyuvant terapiya, 5(10%) xəstədə isə 5 ildən artıqdır ki, tamoksifenlə adyuvant terapiya aparılır. 5 ildən artıq tamoksifenlə adyuvant terapiya aparılan 5(10%) xəstədən 2(40%)-də histeroskopik və histoloji olaraq endometriyanın xərçəngi(yüksək differensasiyalı adenokarsinoma) aşkar olunmuşdur (Şək.1.).



Şək.1. Endometrin xərçəngi



Şək.2.Endometrin hiperplaziyası



Şək.3 Endometrin polipi

45(90%) xəstədən 5(11,1%)-də nüvə atipiyası ilə müşayət olunan endometriyanın hiperplaziyası aşkar olunmuşdur (Şək.2).

50 xəstədən 43(86%)-də endometriyanın kistoz-vəz hiperplaziyası müəyyən olunmuşdur (Şək.3).

NƏTICƏ. Tamoksifenlə adyuvant terapiya alan süd vəzisi xərçəngi olan xəstələrdə endometriyanın xərçəngönü prosesinə risk yüksək olduğuna görə, TVUSM, diaqnostik histeroskopiya və məqsədyönlü biopsiyanın aparılması məqsədə uyğundur

ƏDƏBIYYAT

1. Гилязутдинова З.Ш., Михайлова М.К. Онкогинекология. М.:МЕДпресс-информ, 2002, с.210
2. Голота В.Я., Бенюк В.А. Гинекология. М.:МЕДпресс-информ, 2005, с.68
3. Козаченко В.П. Клинеческая онкогинекология. М.: Медицина,2005, с.155
4. Новикова Е.Г., Пронин С.М. Руководство по гистерорезектоскопии в онкогинекологии. М.: Медицинское информационное агентство, 2009, с.14
5. Сидоров И.С., Овсянников Т.В. Практическое руководство по клинической гинекологии. М.: МЕДпресс-информ, 2006, с.447.
6. DiSaia Creasman Klinik Jinekolojik Onkoloji. Ankara, 2003, s.137.
7. Стюарт К., Монг Э. Гинекология. М.: Медицинское информационное агенство, 2003, с.176

SUMMARY

HYSTEROSCOPIC DIAGNOSIS OF ENDOMETRIAL PATHOLOGIES POSSIBLE AFTER USE TOMOKSIFENA AFTER SURGERY FOR BREAST CANCER

A.Kh.Kerimov, G.A.Aliyeva

The aim is to study the effects on the endometrium tamtoksifena with purposeful transvaginal ultrasound, hysteroscopy and endometrial biopsy in adyuvantnoy therapy for breast cancer.During 2006-2011 years in National Oncological Center the 50 patients with mammer canser who received adyuvant therapy with tamoksifen were inpected. In this patients the risk of endometrial precanser desies are higher. That is why it is impotant to inpect TVUSM, diaqnostic hysteroscopy and aiming byopsi in this patients.

РЕЗЮМЕ

ГИСТЕРОСКОПИЧЕСКАЯ ДИАГНОСТИКА ВОЗМОЖНЫХ ПАТОЛОГИЙ ЭНДОМЕТРИИ ПОСЛЕ ИСПОЛЬЗОВАНИЯ ТОМОКСИФЕНА ПОСЛЕ ОПЕРАЦИИ ПО ПОВОДУ РАКА МОЛОЧНОЙ ЖЕЛЕЗЫ

А.Х.Керимов, Г.А.Алиева

Целью исследования является изучение воздействия тамтоксифена на эндометрию с помощью целесообразного трансвагинального УЗИ, гистероскопии и биопсии эндометрия при адювантной терапии при раке молочных желез. 2006- 2011 годах в Национальном центре онкологии 50 больных прошли проспективную исследование при адювантной терапии при раке молочных желез. Считается

целесообразным введения трансвагинального УЗИ, гистероскопии и биопсии эндометрия у больных с раком молочных желез получивших адювантную терапию.

Daxil olub:23.02.2011

ŞƏKƏRLI DIABET ZAMANI LIPID MÜBADILƏSI GÖSTƏRICILƏRININ ÖYRƏNILMƏSI

O.S. Abdullayev, A.D. Məlikova, M.A. Əfəndiyev, V.İ.Yaqubova
Azərbaycan tibb universiteti, Bakı

Şəkərli diabet (ŞD) – metabolizmin bütün növlərinin multihumoral pozulması olub, hiperqlikemiya, qlükozuriya, neyropatiya və müxtəlif angiopatiyalarla müşayiət olunan ağırlaşmaların inkişafı ilə səciyyələnir. Epidemioloji tədqiqatlara görə 2000-ci ildə dünyada ŞD xəstələrinin sayı 180 mln. nəfəri keçmişdir. ŞD insanların əlil olmasına və ömür müddətinin azalmasına səbəb olduğu üçün müasir təbabətin əsas problemlərindən biri hesab edilir [1,2,3].

Ümumdünya Səhiyyə Təşkilatının 1999-cu ildə qəbul edilmiş təsnifatına əsasən xəstəliyin I tip – insulindən asılı ŞD (İAŞD) və II tip – insulindən asılı olmayan ŞD (İAOŞD) tipləri mövcuddur [4,5,6]. I və II tip ŞD etioloji və patogenetik mexanizmlərinin müxtəlif olmalarına baxmayaraq, ümumi metabolik pozulmalarla səciyyələnir. ŞD-nin hər iki tipində insulinin mütləq və ya nisbi çatışmazlığı nəticəsində onun hədəf hüceyrələrinə bioloji təsiri zəifləyir. ŞD xəstələrində insulinin mütləq və ya nisbi çatışmazlığı xroniki hiperqlikemiya ilə yanaşı zülal və lipid mübadiləsində də patoloji dəyişikliklərə səbəb olur. ŞD-nin patogenezində lipid mübadiləsindəki dəyişikliklər xüsusi yer tutur [1,2,5,7].

Aşkar edilmişdir ki, II tip ŞD xəstələrində sağlam insanlara nisbətən, lipid mübadiləsinin pozulmasına 2 dəfə çox təsadüf olunur [1]. Lipid mübadiləsi pozulmalarının patogenetik aspekti I tip ŞD ilə müqayisədə II tip ŞD xəstələrində daha mürəkkəb olur və bu İAOŞD-i müşayət edən piylənmə, insulinrezistentlik və hiperinsulinemiyanın mövcudluğu ilə izah olunur [4,5,8].

Tədqiqatın MƏQSƏDI II tip ŞD xəstələrində lipd mübadiləsindəki dəyişikliklərin patogenetik mexanizmlərinin öyrənilməsi olmuşdur.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Tədqiqata cəlb edilmiş 74 nəfər ŞD xəstələri ATU-nun klinik-biokimyəvi laboratriyasına müraciət edən şəxslər arasından seçilmişdir. Xəstələrin diaqnozu anamnezə, klinik və laboratoriya müayinələrinin nəticələrinə əsasən qoyulmuşdur. Kontrol qrupunu 15 nəfər praktiki sağlam şəxs təşkil etmişdir.

Müayinə olunan xəstələrin və kontrol qrupuna daxil olan şəxslərin qan serumunda ümumi lipidlərin (ÜL), ümumi xolesterinin (ÜXS), triqliseridlərin (TQ), sərbəst yağ turşularının (SYT) və fosfolipidlərin (FL) miqdarı təyini aparılmışdır. Eyni zamanda xəstələrin qan serumunda yuxarı sıxlıqlı lipoproteinlərin (YSLP), aşağı sıxlıqlı lipoproteinlərin (ASLP) və çox aşağı sıxlıqlı lipoproteinlərin (ÇASLP) miqdarı elektroforez üsulu ilə təyin edilmişdir.

Qan serumunda ÜL təyini üsulunun prinsipi onların sulfat turşusu ilə hidrolizi zamanı törənən parçalanma məhsullarının fosfovanilin reaktivi ilə əmələ gətirdiyi rəngli kompleksin intensivliyinin kolorimetrik üsulla ölçülməsinə əsaslanır (Lachema, Çexiya). Qan serumunda ÜXS miqdarının təyini "Human" (Almaniya) firmasının reaktiv dəstinin vasitəsilə enzimatik üsulla aparılmşdır. Qan serumunda TQ miqdarının təyini üçün triqliseridlərin ferment təsirindən qliseinə və yağ turşularına parçalanması reaksiyasından istifadə edilir. Bu zaman əmələ gələn 3 fosfoqliserinin oksidləşməsi zamanı ayrılan hidrogen-peroksid 4-xlorfenolla və 4-aminantipirinlə qarşılıqlı təsirdə olaraq xinonimin rəngli birləşməsi əmələ gətirir. Rəngin intensivliyi triqliseridlərin miqdarı ilə düz mütənasibdir ("Human", Almaniya). SYT miqdarının təyini üsulunun prinsipi yağ turşularının mislə əmələ gətirdikləri sabunların dietilditiokarbamatın natrium duzu ilə xloroformda həll ola bilən rəngli kompleksin alınmasına əsaslanır.

FL ümumi miqdarı lipid fosforunun qatılığına əsasən təyin edilir. Üsulun prinsipi trixlorsirkə turşusu vasitəsilə qan zülalları ilə birlikdə çökdürüldükdən sonra fosfolipidlərin tərkibindəki fosforun ammonium-molibdat və askorbin turşusunun təsirindən əmələ gətirdiyi rəngli reaksiyaya əsaslanır. Qan serumunda lipoproteidlərin müxtəlif fraksiaylarının miqdarını müəyyənləşdirmək üçün poliakrilamid gelində disk-elektroforez üsulundan istifadə edilmişdir. Bu metodun prinsipi lipoprotein hissəciklərinin ion yükü və ölçüsündən asılı olaraq fərqli elektroforetik mütəhərrikliyinə əsaslanır.

Disk-elektroforez üsulunda alınmış elektroforeqrammanın yuxarı və aşağı hissəsində ÇAŞLP (pre-β-lipoproteinlər), orta və aşağı hissəsində ASLP (β-lipoproteinlər), aşağı hissədə isə YSLP (α-lipoproteinlər yerləşir. Lipoproteinlərin miqdarı analizi densitometriya üsulu ilə aparılışdır.

Alınmış nəticələr parametrik t-Styudent və qeyri-parametrik Uayt (W) meyarından istifadə edilməklə riyazi-statistik işlənmişdir [9].

ALINMIŞ NƏTICƏLƏR VƏ ONUN MÜZAKIRƏSI. ŞD xəstələrinin qan zərdabında lipid metabolizminin əsas göstəricilərinin qatılıqlarının dəyişməsi cədvəl 1-də verilmişdir. Göründüyü kimi, II tip ŞD xəstələrində ÜL miqdarı nəzarət qrupu ilə müqayisədə 47,8% statistik dürüst olaraq yüksəlmişdir.

Cədvəl 1

II tip ŞD xəstələrin qanında lipid mübadiləsi göstəricilərinin dəyişməsi (M±m)

Xəstəlik qrupları / Göstəricilər	Kontrol n=15	II tip ŞD xəstələr n=74
ÜL, q/l	6,7±0,4	9,9±0,6*
ÜXS, mq/%	205,8±13,2	298,1±17,2*
TQ, mq/%	137,9±8,6	269,5 ±16,1*
SYT, mmol/l	14,9±1,1	32,5±1,6*
FL, mq%	224,5±17,4	167,9±13,4*

Qeyd: *-p<0,05

Orqanizmdə ÜL miqdarının yüksəlməsi ilk növbədə qan plazmasında dövr edən sərbəst yağ turşuları, triqliseridlər, xolesterin və onun efirlərinin miqdarının yüksəlməsi ilə səciyyələnir.

ŞD xəstələrində insulin hormonunun aktivliyinin azalması, qlükagon hormonunun fəallığının isə əksinə yüksəlməsi nəticəsində adenilatsiklaza – tsiklik AMF vasitəsilə triqliserinlipaza fermentinin fəallığı artır və piy toxumalarında lipoliz prosesi sürətlənir (4,5,10).

İnsulinin mütləq və ya nisbi çatışmazlığı ilə əlaqədar bioloji təsirinin azalması şəraitində qlükoza digər toxumalar kimi piy toxumasına da daxil ola bilmir. Piy toxumasında qlükoza çatışmazlığı şəraitində triqliseridlərin hidrolizi nəticəsində əmələ gələn efirləşmiş yağ turşularının böyük bir qismi adipositləri tərk edərək qana keçir. SYT plazma albuminləri ilə birlikdə kompleks birləşmələr əmələ gətirib orqanizmin digər toxumalarına daşınır. Qaraciyərdə SYT asil-koA əmələ gətirir ki, o da mitoxondrilərə daxil olub karnitin məkik mexanizmi vasitəsilə β-oksidləşməyə məruz qalaraq orqanizmin enerjiyə olan tələbatını təmin edir. Eyni zamanda SYT qaraciyərdə yeni lipidlərin resintezində iştirak edərək qaraciyərin steatozuna səbəb olur. SYT-nin oksidləşməsi nəticəsində Krebs dövranı inhibirləşir, hüceyrədaxili sitrat və asetil-koA-nın miqdarı artır. Qaraciyərdə asetil-koA-nın bir hissəsi digər toxumalarda asanlıqla katabolizmə uğradıla bilən keton cisimciklərini əmələ gətirir. Sitratın yüksək miqdarı fosfofruktokinazanın aktivliyini azaltmaqla, qlükoza-6-fosfatın qatılığını yüksəldir, heksokinazanı inhibirləşdirərək qlükozanın sərfini və qliolizi zəiflədir [4,5,11].

II tip ŞD xəstələrinin qan plazmasında SYT miqdarının öyrənilməsi zamanı onun miqdarının nəzarət qrupun göstəriciləri ilə müqayisədə 2,1 dəfə yüksək olması müəyyən edilmişdir. Bizim aldığımız nəticələr ədəbiyyat məlumatları ilə uyğun gəlir, belə ki, hər iki ŞD tipində adipositlərdə lipolizin sürətinin artması qan plazmasında SYT-nin miqdarının kəskin yüksəlməsinə səbəb olur [4,12].

II tip ŞD patogenezində insulin rezistentliyin mövcudluğu əsas rol oynayır ki, bu da insulinin inhibitor təsirini pozmaqla piy deposunda SYT azad edilməsi ilə nəticələnir. SYT qlükozanın oksidləşməsinə tormozlayıcı təsir göstərərək insulin rezistentliyi gücləndirir. İnsulinin normal qlükoza stimuləedici sekresiyasında SYT mühüm rolu vardır. II tip ŞD xəstələrində SYT miqdarının artması hiperinsulinemiya ilə nəticələnir. Bəzi tədqiqatçılara görə mədəaltı vəzinin Langerhans adacıqlarında TQ və SYT toplanması β-hüceyrələrin apoptozuna səbəb olaraq insulinrezistentliyin inkişafı üçün zəmin yaradır. SYT xroniki olaraq çoxalması nəticəsində əmələ gələn azot oksidi də β-hüceyrələrə lipotoksik təsir göstərir [4,13,14,15].

Lipid mübadiləsindəki pozulmalar qanda lipoproteinlərin qatılıqlarının bu və ya digər istiqamətdə dəyişməsi ilə təzahür edir. Lipid metabolizminin tənzimləyici funksiyalarının pozulması ÇASLP-in və trisqliseridlərin miqdarının artması, ASLP qatılığının normal qalması, xilomikronların isə azalması ilə

xarakterizə olunan IV tip hiperlipoproteinemiya (pre-β-lipoproteinemiya) ilə nəticələnir. ŞD zamanı SYT çoxalması lipoproteinlərin sintezinin sürətlənməsinə səbəb olur. II tip ŞD xəstələrində ÇASLP-in miqdarının yüksəlməsi ilk növbədə qaraciyərə çoxlu miqdarda efirləşmiş yağ turşularının daxil olması və hepatositlərdə asetil-koA-nın sürətli katabolizmi ilə bağlıdır, bu da insulinrezistentlik və piylənmə zamanı daha kəskin ola bilər. Bəzi müəlliflər göstərir ki, II tip ŞD xəstələrində, nəzarət qrupuna nisbətən ÇASLP səviyyəsi 50% yuxarı olur [6]. Başqa tədqiqatçıların fikrinə görə, hiperlipoproteinemiya ŞD xəstələrinin 30-40%-də, ümumi populyasiyada isə təxminən 5% təsadüf edilir [4,16,17,18].

Cədvəl 2

II tip ŞD xəstələrin qanında lipoproteinlərin miqdarı dəyişməsi (M±m)

Xəstəlik qrupları / Göstəricilər	Kontrol n=15	II tip ŞD xəstələr n=74
YSLP	36,2±0,9	22,3±0,7***
ASLP	53,2±2,0	60,1±2,2
ÇASLP	10,6±0,7	17,6 ±1,1***

Qeyd *** -p<0,001

Bizim apardığımız tədqiqat işində alınmış nəticələr göstərir ki, II tip ŞD xəstələrinin qan plazmasında ÇASLP miqdarı kontrola nisbətən statistik etibarlı 66% yüksəlmişdir (Cədvəl 2). ASLP miqdarı isə kontrol qrupu ilə müqayisədə 13% yüksəlir. II tip ŞD zamanı insulinrezistentlik və piylənmə nəticəsində qaraciyərdə ÇASLP miqdarı artır, bu da yağ turşularının, aminturşuların və qliserinin depolardan səfərbərliyi ilə əlaqədardır. II tip ŞD xəstələrində hiperinsulinemiya qaraciyərdə ÇASLP tərkibində triqliseridlərin çoxalmasına və onların aralıq sıxlıqlı lipoproteinlərə deqradasiyasına səbəb olur. Sonuncular isə qaraciyərdə triqliseridlipazanın təsirindən ASLP çevrilir. II tip ŞD xəstələrində lipoproteinlipaza (LPL) aktivliyinin zəifləməsi müəyyən edilmişdir və bu proses həmin fermentin geninin polimorfizmindən irəli gəlir. LPL aktivliyinin azalması nəticəsində qanda dövr edən ÇASLP parçalanması zəifləyir və onların plazmada toplanması baş verir. Ədəbiyyat məlumatları göstərir ki, ŞD zamanı lipoproteinlərin nəinki miqdarı, həmçinin onların fiziki-kimyəvi xüsusiyyətləri də dəyişir, belə ki, dövriyədə ölçüsü daha kiçik olan ÇASLP və ASLP miqdarı üstünlük təşkil edir (4,10,11).

ÇASLP və ASLP, arteriya divarlarında toplanaraq aterogen təsir göstərir. Bu hissəciklərin oksidləşərək fibroblastlar və makrofaqlar tərəfindən udulması onların "köpüklü hüceyrələrə" çevrilməsinə səbəb olur. Beləliklə, ŞD xəstələrində lipid mübadiləsi pozulmaları erkən aterosklerozun inkişafında aparıcı rol oynayır.

ÇASLP tərkibində çoxlu miqdarda triqliseridlər olduğuna görə, hipertriqliseridemiya müşahidə edilir. ASLP miqdarının artması ÜXS səviyyəsinin yüksəlməsinə bilavasitə təsir göstərir. Apardığımız tədqiqat işində ŞD xəstələrinin qan serumunda ÜXS və TQ miqdarının kontrolla müqayisədə müvafiq olaraq 44,8% və 95,4% yüksəlməsi müşahidə edilir. Sərbəst radikallı oksidləşmə reaksiyalarının intensivləşməsi nəticəsində hüceyrə membranının destruksiyası sürətlənir və qana XS və FL molekullarının çıxımı artır.

II tip ŞD xəstələrində insulinrezistentlik və hiperinsulinemiya triqliseridlərlə yanaşı xolesterinin biosintezini də sürətləndirir. İnsulin xolesterin biosintezinin tənzimləyici olan hidroksimetil-qlütaril-KoA reduktaza fermentinin spesifik fosfatazasının fəallığını artırmaqla onu aktivləşdirir (5). Göstərilən xəstəlik qrupunda FL miqdarı nəzarət qrupuna nisbətən 25,2% azalmışdır. Qaraciyərdə FL sintezi proseslərinin pozulması ilə əlaqədar olaraq onların qan dövranına sekresiyası zəifləyir. Bundan əlavə toxumalarda fizioloji yeniləşmə proseslərinin zəifləməsi nəticəsində fosfolipidlər parçalanan membran lipidlərini əvəz edə bilmir (5,11,19).

ŞD xəstələrində YSLP qlikozilləşəsi ilə əlaqədar olaraq onların həyat müddəti qısalır və miqdarı azalır. Məlumdur ki, YSLP hüceyrə membranından xolesterinin artığını qaraciyərə nəql edir və bununla antiaterogen təsir göstərir. Periferik toxumalarda sərbəst xolesterin YSLP-lə brləşir. Lesitin-xolesterin-asetitransferaza fermentlinin iştirakı ilə YSLP-in tərkibində olan xolesterin efirləşir. Qaraciyərdə YSLP-in tərkibinə daxil olan XS efirləri spesifik "mübadilə zülalları"nın iştirakı ilə ÇASLP və ASLP-in tərkibində olan TQ ilə əvəzlənir. Bizim tədqiqatlarda müəyyən edilmişdir ki, II

tip ŞD xəstələrində YSLP miqdarı nəzarət qrupu ilə müqayisədə statistik etibarlı olaraq 38,4% azalmışdır. YSLP miqdarının azalması və funksional xüsusiyyətlərinin zəifləməsi orqanizmdə xolesterinin toplanmasına səbəb olur ki, bu da aterosklerozun inkişafında əlavə patogenetik amil hesab olunur. ŞD-də YSLP-nin miqdarı barədə məlumatlar bir qədər ziddiyyətlidir. Belə ki, bəzi müəlliflərə görə ŞD xəstələrində YSLP-nin tərkibində xolesterinin miqdarı azalır və nəticədə kompensator olaraq YSLP-nin miqdarı çoxalır (14). Başqa tədqiqatçılar isə xəstələrdə damar zədələnmələrinin dərəcəsi ilə YSLP miqdarı arasında ciddi əlaqə aşkar etməmişlər. Ona görə də belə hesab edilir ki, ŞD zamanı YSLP-nın qatılığının artması angiopatiyanın inkişafına mane olan amil kimi qiymətləndirilə bilməz. ŞD xəstələrində aparılan tədqiqatlar göstərmişdir ki, YSLP tərkibində xolesterinin azalması tərkibində triqliseridlər cox olan YSLP hissəciklərinin miqdarının artmasına səbəb olur. Paralel olaraq A-1 apoproteinin miqdarı azalır, YSLP-nın transport funksiyası zəifləyir, bunlar isə ŞD zamanı aterosklerozun inkişafında iştirak edən mexanizmlərdən biri sayılır. ŞD zamanı makroangiopatiyanın inkişafına dair son illərin elmi ədəbiyyat məlumatlarına görə bu prosesdə ASLP və YSLP-nın mütləq miqdarı deyil, onalrın nisbəti həlledici əhəmiyyət kəsb edir (4,7,11,20,21).

Beləliklə, II tip ŞD zamanı lipid mübadiləsinin öyrənilməsinə dair aparılmış biokimyəvi tədqiqatın nəticələri göstərmişdir ki, ŞD-də hiperqlükozemiya, lipoproteinlər, triqliseridlər və xolesterin mübadiləsində baş verən dəyişiklikləri şərtləndirir. ŞD, xüsusən II tip ŞD xəstələrində dislipidemiya müəyyən edilir və bu proses ÇASLP və ASLP miqdarının artması, YSLP və apo-A_1-in miqdarının azalması, oksidləşmiş və qlikozilləşmiş lipoproteinlərin çoxalması ilə xarakterizə olunur. II tip ŞD-də lipid metabolizminin pozulması aterosklerozun inkişafı üçün vacib amillərdən biri ola bilər. Lipid mübadiləsində gedən dəyişiklikər qaraciyərdə ketogenezin sürətlənməsinə və aset-sirkə turşusunun utilizasiyasının tormozlanmasına səbəb olur və nəticədə ŞD-nin kəskin fəsadı sayılan diabetik ketoasidoz və koma inkişaf edir.

ƏDƏBIYYAT

1. Məmmədhəsənov R.M. Şəkərli diabetin fəasadları. Bakı, 2003, 228 s.
2. Алиева Е.Е. Сахарный диабет в Азербайджанкой республике, странах СНГ в Европе.
3. Дедов И.И., Суницов Ю.И., Кудрянова С.В., Рыжкова С.Г. Эпидемиология инсулиннезависимого сахарного диабета //Пробл. Эндокринол. 1998, №3, с. 45-49.
4. Балаболкин М.И. Диабетология. М.: Медицина. 2000, 672 с.
5. Зайчик А.Ш., Чурилов Л.П. Основы патохимии. СПб: ЭЛБИ-СПб, 2000, 687 с.
6. Жук А.Е., Голеная В.А. Клинико-иммунологические субтипы сахарного диабета типа 1 // Тер. архив, 2002, №10, стр. 15-20.
7. Кондратьева Е.И., Кравец Е.Б., Суханова Г.А. и др. Липидный обмен в семьях у больных сахарным диабетом // Сахарный диабет, 2000, №3, с. 29-32.
8. Scuit F., De Wost A., Farfore S. et al. Metabolic fate of glucose in purifeol islet cells. // J. Biol. Chem., 1997, v.272, p. 18572-18579.
9. Гублер Е.В., Генкин А.А. Применение параметрических и непараметрических критериев статистики в медико-биологических исследованиях. Ленинград: Медицина, 1973, 141 с.
10. Brester P., Bodey S.R., Morsada M. et al. Insulin resistance and coronary artery disease // Diabetologia, 1996, v.39 (II), p.1345-1350.
11. Steen E.A. Lipids lipoproteins in disease text-book of clinical chemistry 1986, p. 829-900.
12. Mc.Carry S.D., Dobbins R.H. Faitty acids lipotoxicyti and insulin secretion //Diabetologiya, 1999, v.42, p. 128-138.
13. Boden G., Shulman GI. Free fatty acids obesity and type 2 diabetes: defining their role in the devolepment of insulin resistanse and β-cell dysfunction // Eur J Clin Investgat, 2002, v.32, p. 14-23.
14. Ефимов А.С. Диабетические ангиопатии. М.: Медицина, 1989, 288 с.
15. Temelkova-Kurktschiev T., HAnefed M. The lipid triad in type 2 diabetes – prevalence of hipertriglycerdemia low high-density llipoprotein syndrome in type 2 diabetes // Exp Clin Endokrinol Diabetes. 2004, v.112(2), p. 75-9.
16. Дубровская Г.В., Мальжев В.А. Роль липопротеидов очень низкой плотности в генезе диабетических микроангиопатий /Современные проблемы экспериментальной и клинической эндокринологии. Киев, 1987, с.128-138.
17. Butler A.E., Jonson J., Bonner Weir S., Ritzel R., Rizza R.A., Butler P.C. Beta cell deficit and increased beta-cell apoptosis in humans with type 2 diabetes //Diabetes, 2003, v.52, p.102-10.
18. Mastorikou M., Mackness B., Liu Y., Mackness M. Glycation of paraoxonase-1 inhibits its activity and impairs the ability of high-density lipoprotein to metabolize membrane lipid hidroperoxides // Diabet Med., 2008, N25(9), p.1049-55.
19. Bierman E.L. Atherogenesis in diabetes //Aterioscier. Thromb. – 1992. Vol 12- p. 647-656.

20. Bedored S., Marcotte B., Marette A. Insulin unhibits inducibie nitric oxide synthase in skeletol muscle cells //Diabetologia, 1998, v. 41, p. 1523-1527.

21. Петунина Н.А. Новое в профилактике сахарного диабета 2 //Consilium Medicum, 2006, №9, с.18-22.

РЕЗЮМЕ

ИЗУЧЕНИЕ ЛИПИДНЫХ ПОКАЗАТЕЛЕЙ ПРИ САХАРНОМ ДИАБЕТЕ

О.С. Абуллаев, А.Д. Меликова, А.М. Эфендиев, В.И.Ягубова

Целью исследуемой работы является изучение патогенетических механизмов нарушений липидном обмене у больных сахарным диабетом (СД). В крови исследуемых 74 больных и 15 и здоровых людей было определена уровень общих липидов, холестерина, триглисеридов, фосфолипидов и свободных жирных кислот. Фракционирование липопротеидов в сыворотке крови проведено путем диск електрофореза в полиакриламидном геле. Было известно, что у больных в фоне гипергликемии повышается количество общих липидов, триглисеридов, холестерина и свободных жирных кислот, количество фосфолипидов наобарот уменьшается. Дислипидемия при СД отражается (характеризуестя) повышением количества липопротеидов очень низкой и низкой плотности, уменьшением количества липопротеидов высокой плотности.

SUMMARY

LIPID METABOILISM IN DIABETES MELLITUS

O.S. Abdullayev, A.D. Melikova, A.M. Afendiyev, V.İ.Yagubova

The purpose of this research was to study the pathogenetic mechanism of alterations in lipid metabolism of patients with type 2 diabetes mellitus. The studies were conducted with the blood of 74 patients with the type 2 diabetes and in 15 patients jefelg we determined serum lipids, cholesterol, triglyceride-phospholipids and free fatty acid (FFA).The concentration of serum lipids, cholesterol, triglyceride-phospholipids and free fatty acid (FFA) were determined in peripheral blood of 74 patients with diabetes mellitus and in 15 healthy person. Lipoprotein fractions were separated by disk electrophoresis method in polyacrylamyde gel. It was determined increased level of total lipids, triglycerides, cholesterol and free fatty acids and decreasing amount of phospholipids in patients. Dyslipidemia in diabetes mellitus accompanies with increasing amount of very low and low density lipoproteins and decreasing amount of high density lipoproteins.

Daxil olub:25.02.2011

ДИНАМИКА РАЗВИТИЯ ПАТОЛОГИЧЕСКИХ ПРОЦЕССОВ В ТКАНЯХ ПАРОДОНТА В ЭКСПЕРИМЕНТЕ ПРИ ПРИМЕНЕНИИ РАЗЛИЧНЫХ ЛЕКАРСТВЕННЫХ СРЕДСТВ

Ф.Ю.Мамедов, А.М. Архмамедов, А.М.Сафаров

Азербайджанский медицинский университет, г.Баку

Лечение зубочелюстных аномалий и деформаций осуществляется с применением различных съемных и несъемных ортодонтических аппаратов, которые, наряду с позитивным, могут оказывать и негативное воздействие - поражения слизистой оболочки полости рта, воспалительные заболевания пародонта, поражаемость зубов кариесом и некариозными заболеваниями твердых тканей зубов [1,6].

Аномалии зубочелюстной системы, имеющие самую высокую распространенность именно в детском возрасте и клиническая картина которых очень часто осложняется потерей зубов, деформацией зубных рядов и челюстей, функциональной перегрузкой периодонта, занимают одно из ведущих мест в структуре стоматологических патологии.

В современной специальной медицинской литературе, посвященной целенаправленному анализу гигиенического статуса и состояния полости рта у пациентов, пользующихся несъемной ортодонтической аппаратурой, имеются сведения о том, что данные конструкции, находящиеся в течении длительного времени в полости рта пациентов, ухудшают гигиенический уровень полости рта, неблагоприятно влияют на пародонт и твердые ткани сохранившихся зубов, что, вызывая прирост кариеса и некариозных поражений, одновременно становится причиной возникновения и развития патологических процессов и в мягких тканях ротовой полости у данного контингента больных [2,4].

Таким образом, приведенные сведения свидетельствуют об актуальности исследовании патогенетических механизмов развития осложнений несъемного ортодонтического лечения и разработки комплекса лечебно-профилактических средств и мероприятий с применением

натуральных природных факторов, направленных на снижение побочного влияния ортодонтических аппаратов различных конструкций и базисных материалов, из которых они изготовляются, на ткани и органы челюстно-лицевой области [3,5,7].

ЦЕЛЬ работы: сравнительная оценка влияния различных лекарственных средств на морфологическое строение и функциональное состояние тканей пародонта при экспериментальном пародонтите

МАТЕРИАЛЫ И МЕТОДЫ ИССЛЕДОВАНИЙ. Экспериментальные исследования выполнены в Научном Исследовательском Центре Азербайджанского Медицинского Университета.

Для изучения эффективности лечебного воздействия лекарственного препарата «Stomasol» на околозубные ткани, при экспериментальном пародонтите были поставлены эксперименты на 50 кроликах породы «Шиншилла» (Shinshilla) с массой тела 2,5-3,0 кг.

5 животных составили группу интактных, а остальные лабораторные животные были разделены на 3 группы. У всех подопытных животных была смоделирована экспериментальная модель пародонтита. Для создания модели пародонтита у подопытных животных на уровне резцов нижней челюсти под инфильтрационной анестезией после сепарации десны в область шейки зуба была зафиксирована лигатура в форме цифры 8.

Лигатура фиксировалась к мягким тканям в нескольких местах ниткой №2, что создавало условия для накопления остатков пищи и формирования зубного налета.

Через 7 дней после моделирования экспериментального пародонтита лигатура снималась.

В I группе подопытных животных после моделирования пародонтита была прослежен спонтанный ход процесса в поврежденной ткани десны без дополнительного (контрольная группа).

Во II группе подопытных животных после снятия лигатуры зона экспериментального пародонтита ирригировалась 0,05% раствором хлоргексидина.

А в III группе (основная группа) подопытных животных после снятия лигатуры десну лечили лекарственным препаратом «Stomasol». У каждого подопытного животного по 7, 14, 21 и 28-е сутки после снятия лигатуры были взяты образцы ткани поврежденной десны и с помощью гистологических и гистохимических методов изучена динамика метаболических и структурных изменений.

После фиксации в нейтральном 10%-ом формалине из полученных материалов готовились гистологические срезы толщиной 0,5-8,0 мкм, окрашиваемые по методу Ван-Гизона. Все использованные в работе гистохимические методы хорошо апробированы и подробно представлены в руководствах Э.Пирса (1962), М.Берстона (1965), З.Лойда (1982) и др.

Количественные показатели определены посредством 4-бальной шкалы (условная единица, у.е.), широко используемой в специальной литературе по гистохимии: 0 – активность ферментов отсутствует; 1,0 – низкая; 2,0 – средняя; 3,0 – высокая; 4,0 – очень высокая активность. Исследование и фотографирование гистологических и гистохимических микропрепаратов выполнены на светооптическом микроскопе («Леиднеа», Германия). Количественные показатели изучены с помощью методов вариационной статистики и определены основные показатели – средняя арифметическая величина (x), пределы достоверности среднего арифметического ряда (B), средняя арифметическая ошибка (Sx). А цифровые значения рассчитаны параметрическими и непараметрическими методами.

РЕЗУЛЬТАТЫ СОБСТВЕННЫХ ИССЛЕДОВАНИЙ. В течение 10 дней после снятия лигатуры мягкие ткани ирригировались 0,05% раствором хлоргексидина. Результаты макро- и микроскопических наблюдений проведенных в ходе этих ирригаций на 14-ый день моделирования, после снятия лигатуры имеют несколько отличные показатели, по сравнению с контрольной группой. Так, при визуальном осмотре полости рта экспериментальных животных гингива слегка гиперемирована, но не содержит налёта, кровоизлияний. В мышечной пластинке регистрируются эпизодические нарушения анизотропности мышечных волокон и очень слабая редукция микрососудистого русла. Микроскопически во всех слоях гингивы альтеративно-деструктивные изменения, наблюдаемые в предыдущие дни, на 14-ый день сменены пролиферативно-восстановительными процессами. Несмотря на это, вертикальная анизоморфность эпителиальной пластинки не восстановилась, в большинстве групп

эпителиоцитов господствуют признаки зернистой дистрофии, акантолиза и спонгиолиза (Рис. 1).




Рис. 1. Формирование полосы псевдокератинизации наряду с альтеративно-экссудативными процессами на эпителиальной пластинке, клеточные инфильтраты на некоторых участках. Экспериментальный пародонтит, 14-ый день моделирования. I группа (Окраска: гемотоксилин-эозин. Увеличение: об.40, ок.7).

Содержание гликогена и РНК в клетках не высокое (0,7-1,2 у.е.). Активность АТФ-азы относительно повышена. Гистохимическая картина имеет мозаичный характер, в некоторых клетках в незначительных количествах обнаруживаются познавательные диформазановые отложения в основном НАД-Н и НАДФ-Н оксиредуктаз (0,6-0,8 у.е.). Только ферменты окисления Г-6-ФДГ и 6-ФДГ обладают активностью средней степени в основном в базальных слоях эпителия (2,1-2,4 у.е.).

Псевдокератинизация в промежуточном и поверхностном слоях эпителия относительно интенсифицировалась. В глубоких слоях пластинки встречаются лимфоидные инфильтраты.

И на специальной пластинке десны усилились признаки репарации, но, на отдельных участках наблюдаются интерстициальный и перивазальный отек слабо-средней степени тяжести, лимфоидно-гистоцитарные клеточные скопления, мукоидное набухание коллагеновых волокон и поверхностная дезорганизация волокнистого каркаса. Наряду с очаговой клеточной инфильтрацией вокруг микрососудов отмечается относительное расширение их просветов и кровенаполнение. Как в контрольной группе и в этой группе животных на 14-ый день исследований фибробластические клеточные реакции еще не начались, состав инфильтрата представлен в основном пухлыми клетками и лимфоидно-гистиоцитарными элементами. Среди ферментов тканевого дыхания относительно активны основные ферменты пептозного шунта окисления глюкозы - Г-6-ФДГ и 6-ФДГ (2,2-2,7 у.е.). Внутриклеточные количественные показатели скоплений гликогена и РНК повысились до 1,3-1,7 у.е. При определении специфических субстратов ферментов отмечены признаки ферментативной диффузии слабой интенсивности.

Репаративные процессы, отмечаемые в поперечно-полосатых мышечных пучках, выражены пока слабо. Так, признаки гомогенизации саркоплазмы и миозита на фоне интерстициального отека продолжаются. Несмотря на продолжение ирригации 0,05% раствором хлоргексидина в течение 7 дней, более или менее значительные изменения в сторону уменьшения лимфоидно-гистоцитарных инфильтратов не отмечены. Пока еще наблюдаются перивазальные воспалительные клеточные скопления вдоль сосудистой сети, окружающей соединительнотканно-мышечные структуры в обеих пластинках (Рис. 2).




Рис. 2. Расширение микрососудов в специальной и мышечной пластинке десны, отек стромы и перивазальные, лимфоидно-гистоцитарные инфильтраты. Экспериментальный пародонтит, 14-ый день моделирования (7-ой день ирригации 0,05% раствором хлоргексидина) (Окраска: гемотоксилин-эозин. Увеличение: об.20, ок.10).

Гистохимические показатели также особенно не отличаются от предыдущих дней наблюдения, однако активность некоторых дыхательных ферментов относительно повысилась и склоняется к интактным показателям. Во всех случаях при пародонтите в мягких тканях десны метаболический статус сопровождается серьезным дисбалансом, что еще раз подтверждается полученными данными.

Таким образом, мягкие ткани гингивы подопытных животных, получавших ирригации 0,05% хлоргексидином через 21 день после снятия лигатуры (28-ой день моделирования), можно сказать, полностью восстанавливают свои морфофункциональные и метаболические показатели. Однако в соединительной ткани специальной пластинки пародонта и глубоких слоях эпителия продолжают наблюдаться дистрофические изменения слабой интенсивности.

В соответствии с целями исследований, во II основной группе для изучения эффективности препарата на растительной основе экстракта «Stomasol» в лечении заболеваний десны в течение 10 дней проводились аппликации этим препаратом.

В ходе лечебных процедур на 14-ый день моделирования хоть и встречались определенные альтеративно-экссудативные изменения в эпителии, но их интенсивность носила слабый характер. Так, эпителиальная пластинка слабо отечна, вертикальная анизоморфность эпителия, даже если несколько стертая, но в большинстве участков сохранила целостность. В базальных и шиповатых слоях обнаруживаются слабые лимфоидно-макрофагальные островки инфильтрации.

В целом, продолжающиеся альтеративно-экссудативные изменения во всех трех пластинках гингивы находятся в чередовании с достаточно быстротечными пролиферативно-восстановительными процессами, что не характерно для предыдущих групп животных. Поверхностный слой десны, можно сказать, полностью очищен от остатков микрофлоры и налета. За исключением единичных групп эпителиоцитов, признаки зернистой дистрофии, очаги некроза чаще всего не выявляются. В большинстве участков пластинка восстановила свою целостность, активно формируются акантотические тяжи и псевдокератинизация (Рис. 3).

Снабжение эпителиоцитов гликогеном, синтетическая активность РНК и ферментный потенциал АТФ-азы, даже если полностью еще не нормализовались, но значительно выше аналогичных показателей предыдущих групп. Большая часть количеств гистохимических субстратов сконцентрированы именно в базальных и промежуточных слоях эпителиальной пластинки, что является убедительным примером интенсивного течения регенерации.

Наблюдались активное рассасывание неспецифических воспалительных инфильтратов и активная репаративная регенерация и в собственной пластинке. Поверхностные и глубокие слои пластинки полностью дифференцированы, фибриллогенезная активность камбиально-мезенхимальных элементов, а также фибробластов вдоль пластинки достаточно высокая.

Деформация, сужение и дилатация микрососудов слабо выражены, признаки мукоидного набухания на стенках носят проходящий характер и признаки застоя (стаз) проявляются (исчезают) (Рис. 4).




Рис. 3. Активное восстановление псевдокератинизации и акантотических тяжей эпителиальной пластинки десны. Экспериментальный пародонтит, 14-ый день моделирования. II основная группа (Окраска: пикрофуксин, по методу Ван-Гизона. Увеличение: об.40, ок. 7)




Рис. 4. Преобладание пролиферативно-восстановительных процессов на специальной пластинке десны, пролиферация камбиально-мезенхимальных клеток на 7-ой день лечения препаратом «Stomasol». Экспериментальный пародонтит, 14-ый день моделирования. II основная группа (Окраска: Гемотоксилин-эозин. Увеличение об.20, ок.10).

Гистохимически выявлено относительно высокое (1,5-1,8 у.е.) содержание гликогена в клетках. Это является еще одним доказательством надежной защищенности энергетических субстратов. РНК обнаруживаются и в субэпителиальной и в более глубоких слоях гингивы. Ферменты тканевого дыхания в средней степени активны и наблюдается резкое усиление активности окислительно-восстановительного потенциала дегидрогеназ цикла Кребса терминального окисления. Эти ферменты соответственно: НАД-Н и НАДФ-Н-оксиредуктазы (1,7-2,7 у.е.), пептозного шунта Г-6-ФДГ, 6-ФДГ (2,2-2,4 у.е.). Как фибробластической, так и лимфоидной природы ферментативные процессы протекают с одинаковой интенсивностью. Как доказательство вышеперечисленного, следует указать на резкое усиление окислительного дегидрогеназ гидролиза, тканевого дыхания и терминального окисления в составе клеток фибробластического ряда, в стенках кровеносных сосудов. Это происходит на фоне усиления

гидролитической активности ЩФ и АТФ-азы в эндотелии сосудов и в периваскулярных прослойках.

Мышечная пластинка тоже подвержена слабой хрупкости, дезорганизации и незначительной лимфоидной инфильтрации. При деформации незначительной части микрососудов, гистоархитектоника большей части восстановилась. Признаки стаза и плазморагии не наблюдаются, возможно, признаки альтеративного миозита.

Заключение

Таким образом, в мышечной пластинке десны подопытных животных, получивших лечение препаратом «Stomasol», также уменьшился отек стромы. Практически завершено рассасывание признаков неспецифических воспалительных процессов и регенерации. За счет улучшения функции микроциркуляторной сети нормализовался тканевой дренаж и питание.

ЛИТЕРАТУРА

1. Водолацкий В.М. Частота и особенности нарушений звукопроизношения у детей с дефектами и деформациями зубочелюстной системы // Стоматология, 2007, № 2, с. 77 - 79.

2. Данилова М.А., Децык О.Р., Одинцова О.В., Маслов Ю.Н., Оценка состояния микрофлоры полости рта у пациентов, находящихся на лечении с помощью несъемной ортодонтической аппаратуры // Ортодонтия, 2009, №4 (48, с. 28–31.

3. Михайлова А.Б., Вавилова Т.П., Горбатова Е.А. Применение препаратов растительного происхождения в комплексном лечении катарального гингивита // Российская стоматология, 2009, № 3, Т.2, с.37-40.

4. Трезубов В.Н., Сапронова О.Н., Кусевицкий Л.Я., Беньковский В.В. Клиническая оценка методов гигиены полости рта пациентов, пользующихся ортодонтическими аппаратами различных конструкций // Пародонтология, 2010, № 1 (54), с. 70-71.

5. Cha J.-D., Kimi H.-K., Jeong M.-R., Moon S.-E. et al. Antimicrobial activity of extracts of several plants against some pathogenic oral microorganisms. // J.Dental Re., 2002, v.81, Spec.Issue A, p.A-116.

6. Festa F., D'Attilio M., Di Nardo Di Haio F., D'Arcangelo C., Filippi M.R. et al. e-NOS and i-NOS monitoring in gingival tissue during orthodontic stage. // J. Dental Res., 2002, v.81, Spec.Issue B, p.240.

7. Gebaraa E.C., Pustiglioni A.N., de Lima L.A., Mayer M.P. Propolis extract as an adjuvant to periodontal treatment // Oral Health Priv. Dent., 2003, v.1, No 1, p.29-35

XÜLASƏ

MÜXTƏLİF DƏRMAN PREPARATLARININ İSTİFADƏSİNDƏN SONRA PERİODONTAL TOXUMALARDA GEDƏN PATOLOJİ PROSESLƏRİN İNKİŞAF DİNAMİKASI

F.Y.Məmmədov, Arxməmmədov A.M., Səfərov A.M.

Belə ki, ligaturalar açıldıqdan və 0.05% xlorqeksidin biqlukonat (eksperimentin 28 günü) applikasiyalarından 21 gün sonra eksperimental heyvanların parodontun yumşaq toxumalarında demək olarkı morfo-funksional və metabolik parametrlərin bərpası tamamilə mümkün olmuşdur. Lakin, periodontal epiteli və birləşdirici toxumaların müxtəlif qatlarında zəif intensivliyli degenerativ dəyişikliklər qalmaqdadır.Eksperimental parodontitin müaliçəsində «Stomasol» preparatının tətbiqindən sonra periodont toxumalarında makro-və mikroskopik strukturların normallaşması faktoru daha yüksək dərəcə ilə xarakterizə olunur. Nəticədə kombinə edilmiş fitopreparatın tətbiqindən sonar, eksperimental tədqiqatların son mərhələlərində alınan nəticələr qinqivanın histoloji strukturunun, demək olar ki, tam normallaşmasını təsdiqləyir.

SUMMARY

DYNAMICS OF DEVELOPMENT OF PATHOLOGICAL PROCESSES IN THE PERIODONTAL TISSUES IN THE EXPERIMENT WITH USE DIFFERENT DRUGS

F.Y.Mamedov, Arkhmammadov A.M., A.M.Safarov

Thus, the soft gum tissue of experimental animals that received irrigation with chlorhexidine 0.05% 21 days after removal of ligatures (28th day of simulation), we can say, completely restored to their morphs-functional and metabolic parameters. However, in the connective tissue of the special plates and deep layers of the periodontal epithelium degenerative changes remains weak intensity. By the 7th day after the model of periodontitis and in terms of «Stomasol», gingiva in animals is characterized by a much greater degree of normalization of the macro-and microscopic structures. And the more remote stages of experimental studies after application of the combined herbs can say almost complete normalization of histo-structure of gingiva.

Daxil olub:14.03.2011

"THYMUS KOCI" PREPARATININ EKSPERİMENTAL PARODONTİTİN İNKİŞAF DİNAMİKASINA TƏSİRİ

İ.T.Qacarov
Azərbaycan tibb universiteti, Bakı

Müasir təssəvürlərə uyğun olaraq parodontda patoloji proseslər yerli (diş ərpinin mikroorqanizmləri, oklyuzion travma) faktorlarla yanaşı, həm də ümumi və yerli faktorların qarşılıqlı təsirindən inkişaf edə bilər. Müasir ortopedik stomatologiyada çıxmayan protezlərin (tökmə, metallokeramik, metal akril, metal kompozit, tam keramik) geniş tədbiqi, dişlərin yonulması parodontda ciddi dəyişikliklərə səbəb olur [1,8]. Çıxmayan protezlərin parodonta neqativ təsirini bir çox tədqiqatçılar qeyd etmişlər [2,3,4,5,7]. Əksər hallarda parodont xəstəlikləri xroniki gedişata malik olduqlarından, ginqivit və parodontitin patoqenetik kompleks müalicəsində antiseptik, iltihab əleyhinə, immunstimuləşdirici maddələrin böyük əhəmiyyəti vardır. Lakin iltihabəleyhinə və antibakterial preparatların istifadəsi zamanı orqanizmin immunobioloji reaktivliyinin azalması, allergik reaksiyaların əmələ gəlməsi və digər əlavə təsirlər müşahidə oluna bilər. Hal-hazırda parodontun iltihabi xəstəliklərinin müalicəsində aprobasiya olunmuş üsulların istifadəsini məhdudlaşdıran allergik xəstəliklər və digər patoloji proseslər aşkarlanır (6). Bu nöqteyi nəzərdən orqanizmin qoruyucu xüsusiyyətlərini qaldıran ağrıkəsici, iltihabəleyhinə, antimikrob, qandayandırıcı, reperativ təsirə malik olan bitki mənşəli preparatlar böyük maraq doğurur.

Tədqiqatın MƏQSƏDİ - "Thymus-koçi" bitkisinin parodontit zamanı parodontun yumşaq toxumalarına göstərdiyi müalicəvi təsir mexanizminin öyrənilməsi

TƏDQİQATIN MATERİAL VƏ METODLARI.1-ci qrup təcrübə heyvanlarında eksperimental parodontit modelini yaratdıqdan sonra heyvanlar heç bir müalicə almamış və patoloji prosesin öz-özünə sağalması dinamikası izlənilmişdir (kontrol qrupu).

2-ci qrup heyvanlarda liqatura qoyulmasınıın 7-ci günündən etibarən liqatura açıldıqdan sonra eksperimental parodontit zonası 0,05%-li xlorheksidin məhlulu ilə irriqasiya edilmişdir. Proses 10 gün müddətində təkrarlanmışdır (I əsas qrup).


3-cü qrup heyvanlarda isə liqatura açıldıqdan sonra dişətinin 10 gün müddətində "Thymus-koçi" bitkisinin efir yağları ilə sanasiyası aparılmışdır (II əsas qrup).

Təcrübə qrupu heyvanlarından liqatura açıldıqdan sonra 7,14,21 və 28-ci günlərdə parodont toxumalardan bioptatlar götürülərək histomorfoloji və histokimyəvi tədqiqatlar aparılmışdır. Bu məqsədlə çəkisi (2,5-3,2 kq) arasında olan Şinşilla cinsinə mənsub 50 baş heyvan götürülmüşdür. Yuxarıda qeyd olunan bütün fermentlərin histokimyəvi tədqiqat üsulları xüsusi ədəbiyyatlarda ətraflı təsvir edilmişdir (E.Pirs, 1962; Berston, 1965, E.Loyda, 1982). Reaksiya nəticələrinin dürüslüyünü yoxlamaq üçün hər bir konkret halda müvafiq yoxlama sınağı qoyulmuşdur. Fermetlərin toxumalarda yerləşməsinin kəmiyyət və fəallıq göstəriciləri müvafiq ədəbiyyatlarda ümumi qəbul olunmuş gösəricilər əsasında qiymətləndirilmişdir. Histokimyəvi tədqiqatların nəticələri qiymətləndirilərkən bioloji substratların miqdarı, ölçüləri, forması, lokalizasiyası, boyanma intensivliyi və səpələnmə sıxlığı nəzərə alınmışdır. Bütün fermentlərin və bioloji substratların yerləşməsinin kəmiyyət göstəriciləri variasion- statistik metodların köməyi ilə öyrənilmiş və əsas göstəricilər orta riyazi qiymət (X), orta riyazi sıranın dürüstlük sərhədləri (B) orta riyazi xəta (Sx) təyin edilmişdir.

Rəqəm göstəriciləri parametrik və qeyri-parametrik üsullarla hesablanmışdır.

ALINAN NƏTİCƏLƏR. Tədqiqatın 21-ci günü xlorheksidinlə 10 irriqasiya seansı başa çatdıqdan sonra makroskropik olaraq dişətinin rəngi normallaşmış, qansızmalar yoxdur və qismən nahamar relyeflidir. Bəzi zədə zonası yerində psevdokeratin pərdəsi qalmaqdadır. Mikroskopiyada isə dişəti epitel lövhəsinin histoloji tamlığında əhəmiyyətli dərəcədə reparasiya nəzərə çarpır və zədələnmiş nahiyədə dişəti iltihabi infiltratlardan xeyli təmizlənmişdir. Qeyd olunan morfoloji əlamətlər əvvəlki müşahidə günlərindən prinsipial şəkildə fərqlənməsə də irriqasiya seansları dişətinin hər üç lövhəsində regenerasiya proseslərini qismən də olsa sürətləndirmişdir. Belə ki, epiteliositlərdə distrofik dəyişikliklər azalmış, psevdokeratinləşmə əlamətləri tənzimlənmiş və bazal qatda kambial-epitelial

mənşəli hüceyrələrin profilerasiyası müşahidə edilmişdir (Şək. 1). Himtokimyəvi parametrlər də normallaşmağa doğru davam etməkdədir. ATF-azanın fəallığı stabilləşib, eptelin səthi qatlarında qlikogen və RNP-nin miqdarı artaraq orta və yüksək rəqəmlərə satıb (2,3-3,0 ş.v). Toxuma tənəffüsü prosesləri ilə hüceyrədaxili anabolik metabolizm arasındakı əlaqələr yaxşılaşmaqdadır: NAD-N və NADF-N oksidoreduktazaların tanıdıcı substratlarının dənəvər çöküntülərinin miqdarı orta-yüksək fəallığa uyğun gəlir (2,2-3,1 ş.v). Həmin fermentlərin əksər hissəsi epitelin bazal və tikanlı qat hüceyrələrində cəmləşib. Qlükozanın aerob oksidləşmə fermentlərindən SXO-nun fəallığı yüksəlib (2,3-2,8 ş.v) ilə səciyyələnir (Şək. 2). Q-6-FDH və 6-FDH-nın fermentativ fəallıq göstəricilərində əvvəlki müşahidə günündən elə bir ciddi fərq nəzərə çarpmayıb. Hidrolazaların və aminopeptidazaların litik fəallığı isə aşağı göstəricilərlə xarkterizə olunub (0,4-0,7 ş.v) (Şək. 1).



Şək. 1. Eksperimental parodontit. (Modelləşdirmənin 21-ci günü I əsas qrup) Dişətinin hər üç lövhəsində irriqasiya seansları fonunda reparasiya proseslərinin sürətlənməsinin mikroskopik mənzərəsi, kambial-epitelial hüceyrələrin proliferasiyası. (Boyaq: hematoksilin-eozin. Böyütmə: ob 40, ok 7).




Şək. 2. Eksperimental parodontit. (Modelləşdirmənin 21-ci günü. I əsas qrup). Etpiteliositlərdə SXO-nun yüksək fəallığı nəzərə çarpır. Bazal və tikanlı qat hüceyrələrində daha aydın seçilir. (Boyaq: Öde üsulu ilə. Böyütmə: ob 40, ok 7)

Xüsusi lövhədə birləşdirici toxumanın ödemi və perivaskulyar sahələrdə iltihab elementlərinin sayı azalsa da, lifli karkasda distrofik əlamətlər hələ də müşahidə olunmaqdadır. Mikrosirkulyator damarlarda deformasiyaya rast gəlinmir, hemokapilyarların və limfa damarlarının sayı artıb, mənfəzində isə staz üçün xarakter mikroaqreqatlar aşkar edilmir. Bəzi sahələrdə fibrillogenezin səviyyəsi xeyli artıb və kambial-mezenximal hüceyrələrin proliferasiyası sürətlənib. Fibrovlastik təbiətli hüceyrələrdə qlikogenin və RNP-nin orta kəmiyyət gösətəriciləri orta yüksəkdir (2,0-2,7 ş.v) mitoxondrial zəncir oksidoreduktazalardan (SXO, NAD-N və NADF-N oksidoreduktaza) fermentativ fəallığı bəzi hüceyrə yığımlarında yüksək səviyyəyə çatır (2,8-3,2 ş.v). Anaerob qlikoliz intensivdir, belə ki, limfoid hüceyrələrdə LDH-nın fəallığı (2,7-3,4 ş.v) ilə seçilir. Q-6-FDH və 6-FDH –nin fəallığı isə xeyli dərəcədə dəyişkəndir, ümumilikdə (2,2-2,6 ş.v) intervalda qeydə alınır.

Mikrosirkulyasiya şəbəkəsi damarlarının endotel qatında TF-nın və QF-nın yüksək fermentativ fəallıq göstəriciləri aşkarlanıb (2,2-2,6 ş.v).


Dişəti əzələ lövhəsində zəif ödem fonunda limfo-histiositar və fibroblastik sıra elementlərinin xırda ocaqlı yığıntıları hələ də qalmaqdadır (şək. 3). Əzələ liflərinin tinktorial xəssələri, demək olar ki, tam bərpa olunub. Qlikogenin və RNP-nin biopolimerlərinin histokimyəvi miqdarı yüksəkdir (3,2-3,4 ş.v.). Qlükoza oksidləşməsinin anaerob və pentoz şuntu yollarının (LDH, Q-6-FDH, 6-FDH) əsas fermentləri kifayət qədər fəaldır (2,2-3,1 ş.v.) Mitoxondrial zəncir (SXO, NAD-N və NADF-N oksidoreduktaza) fermentlərinin fəallıq göstəriciləri də kontrol qrupundan fərqlidir və müvafiq olaraq (2,7-3,3 ş.v.) aşkarlanıb. Hidrolazaların potensialı isə, əksinə, aşağı düşüb və (1,6-2,0 ş.v.) – dən artıq deyildir (Şək.3).




Şək. 3. Eksperimental parodontit. (Modelləşdirmənin 21-ci günü I əsas qrup). Parodontun yumşaq toxumalarında zəif hüceyrə infiltrasiyası fonunda reparativ regenerasiya proseslərinin mikroskopik görunuşu. Fibroblastik təbiətli hüceyrələrin proliferasiyası.(Boyaq: Van-Gizon üsulu, pikrofuksin ilə. Böyütmə: ob 20, ok 10.)

I əsas qrupun adadovşanlarında modelləşdirmənin 28-ci günü dişəti yumşaq toxumalarının morfofunksional xüsuiyyətləri əsasən, bərpa olunmuşdur. Selikli qişanın rəngi intakt heyvanlardakından kəskin fərqlənmir, dişəti ərpdən tamamilə azad olunmuşdur. Xlorheksidinlə (0,05 %-li) irriqasiyalar fonunda epitel qatında alterasiya əlamətləri nəzərə çarpmır, yalnız xüsusi lövhədə qismən zəif intensivlikdə distrofiya əlamətləri qalır. Epitelin səthi qatlarında xırda akantoz və parakeratoz sahələrə rast gəlinir, lakin hüceyrə infiltrasiyasının olmamasını müsbət əlamət kimi xüsusi qeyd etmək lazımdır. Qlikogenin histokimyəvi müsbət toplantıları xüsusən epitelin bazal və tikanlı qatlarında daha çox aşkarlanıb. RNP-nin yığımlarının da miqdarı həmin təbəqələrdə xeyli yüksəkdir (3,2-3,8 ş.v.). Krebs dövranının (SXO, NAD-N və NADF-N -oksidoreduktaza) eləcədə, pentoz şuntunun (Q-6-FDH, 6-FDH) əsas fermentlərinin histokimyəvi fəallığı yüksək səviyyədə qeydə alınıb (Şək. 4). Anaerob qlikoliz isə xeyli dərəcədə zəifləyib. TF və aminopeptidazanın proteolitik qabiliyyəti demək olar ki, intakt parametrlərə uyğun gəlir. QF-nin fəallığı isə əksinə azalıb.

Tədqiqatın «Thyumus-koçi» bitkisi ilə müalicə (10 seans) başa çatdıqdan sonra, dişətinin makroskopik görünüşündə tam sağalma nəzərə çatmaqdadır. Dişəti ərpdən və fibrin örtükdən tam təmizlənmiş və onun rəngi normallaşmışdır. Histokimyəvi müayinədə epitel örtüyü öz sturuktur quruluşunu və ayrı-ayrı qatlarda diferensiasiyasını tam bərpa etmişdir. Akantoz çıxıntıların regenerasiyası və epitelin ümumi qalınlığı əvvəlki müşahidə günləri ilə müqayisədə kifayət qədər normallaşmışdır. Distrofik və alterativ dəyişikliklər tamamilə aradan qaldırılmışdır. Qlikogenin, RNP-lərin histokimyəvi göstəriciləri intakt nəticələrə yaxınlaşmış, ATF-azanın fəallığı artmışdır. Krebs dövranı və mitoxondrial oksidləşmə fermentləri isə (SXO, NAD-N və NADF-N- oksidoreduktaza) maksimum dərəcədə fəallaşıb (Şək. 5). Bu göstərici epitelin fermentativ statusunu əvvəlki seriyalardan kəskin şəkildə fərqləndirir.



Şək. 4. Eksperimental parodontit. (Modelləşdirmənin 28-ci günü. I əsas qrup). Dişəti epitelində zəif akantoz və parakeratoz sahələr fonunda bazal qat epiteliositlərində RNP-nin biopolimerlərinin histokimyəvi toplantılarının yüksək səviyyəsi (Boyaq: Van-Gizon üsulu, pikrofuksin ilə. Böyütmə: ob 20, ok 10)



Şək. 5. Eksperimental parodontit. (Modelləşdirmənin 21-ci günü. II əsas qrup). Dişəti epitel lövhəsində NAD-N oksidoreduktazanın yüksək fəallığı və hüceyrədən xaric diformazan çöküntüləri (Boyaq: Naxlas, nitrotetrazoli üsulu ilə. Böyütmə: ob 20, ok 10)

Dişətinin xüsusi lövhəsi də histoloji tamlığını bərpa etməkdədir. Onun lifli karkası adi quruluşdadır, tinktorial xassələr normallaşıb. Fibroskleroz əlamətləri görünmür, ödem sorulmuş və infiltrasiya əsasən limfo-histositar təbiətlidir, yalnız kiçik adacıqlar çəklində qeydə alınır. Mikrosirkulyasiya şəbəkəsi intakt parametrlərə uyğun gəlir, hiperemiya və diapedez yığıntılar zəif intensivlikdədir. Damarların mənfəzində staz və sladc fenomeninə rast gəlinmir (Şək. 6).


Histokimyəvi parametrlər fizioloji normativlərə daha yaxınlaşmışdır. Qlikogenin və RNP-lərin miqdarı energetik ehtiyatların qənaətcil sərfiyyatından xəbər verir. Eləcə də, toxuma tənəffüsü fermentləri fəallaşıb. Krebs dövranı və mitoxondrial oksidləşmə fermentləri yüksək göstəricilərlə əvvəlki müşahidə günlərindən fərqlənir. Belə ki, NAD-N, NADF-N –diaforazalar (1,7-2,7 ş.v.), Q-6-FDH və 6-FDH (2,3 ş.v) fermentlərinin histokimyəvi tədqiqi zamanı bioloji substratların dənəvər çöküntüləri qeydə alınıb. TF və aminopeptidazanın hidrolitik potensialı orta yüksəkdir (2,0-3,0 ş.v.) bu göstəricilər dişəti birləşdirici toxumasında maddələr mübadiləsinin və drenajın yüksək səviyyədə tənzimlənməsindən xəbər verir.

Tədqiqatın 21-ci günündə dişətinin əzələ lövhəsində də reparativ proseslərin sürətlənməsinin şahidi oluruq. Stromanın ödemi azalmış, miofibrillərdə kövşəkləşmə və dezorqanizasiya əlamətləri müşahidə olunmur. Qeyri-spesifik hüceyrə infiltratlarının sorulması praktik olaraq tamamlanmışdır. Bununla yanaşı mikrosirkulyasiya şəbəkəsinin

bərpası hesabına toxuma drenajı və trofikası yaxşılaşmışdır, əzələ liflərində isə sürətli regenerasiya getməkdədir (şəkil 7). Toxuma tənəffüsü və oksidləşmə-reduksiya fermentləri arasındakı ardıcıl əlaqələr demək olar ki, pozulmayıb. Qlikogenin, xüsusilə də RNP-lərin miqdarı xeyli artıb (3,2-3,7 ş.v.), pironinofil substratın kiçik-dənəvər və ya homogen kütlələri əksər zonalarda aşkarlanıb. PAS-müsbət çöküntülərin vizual miqdarı (3,3-3,8 ş.v.) çatıb ki, bunların da əsas hissəsini qlikogen təşkil edir. Hüceyrədaxili sintez proseslərinin toxuma tənəffüsü ilə əlaqə dərəcəsi intakt göstəricilərə çox yaxınlaşıb. Belə ki, NAD-N və NADF-N-oksidoreduktazaların histokimyəvi fəallığı (3,1-3,7 ş.v.) yüksəlib. Qlükozanın anaerob oksidləşməsinin əsas fermenti LDH-nın fəallığı isə xeyli dərəcədə azalıb (1,2-1,5 ş.v.) (şəkil 8). TF və QF-nin hidrolitik potensialı ciddi dəyişikliyə uğramayıb, aminopeptidazanın fəallığı isə əvvəlki günlərlə müqayisədə azalıb.



Şək. 6. Eksperimental parodontit. (Modelləşdirmənin 21-ci günü. II əsas qrup). Dişəti xüsusi lövhəsində zəif intensivlikdə hüceyrə infiltrasiyası. Mikrodamarların genəlməsi (Boyaq: hematoksilin-eozin. Böyütmə: ob 20, ok 10).




Şək. 7. Eksperimental parodontit. (Modelləşdirmənin 21-ci günü. II əsas qrup). Dişətinin xüsusi və əzələ lövhəsində fibroblastik təbiətli hüceyrələrin üstünlüyü, zəif nəzərə çarpan fibrozlaşma əlamətləri. (Boyaq: hematoksilin-eozin. Böyütmə: ob.25, ok. 7).

Eksperimentin sonuncu, 28-ci günündə aparılmış makro-mikroskopik tədqiqatlar «thyumus-koçi» bitkisinin efir yağları ilə müalicə almış təcrübə heyvanlarında parodontun yumşaq toxumalarının morfofunksional xüsusiyyətləri ilə yanaşı, histokimyəvi parametrlərinin də intakt dişəti göstəricilərindən demək olar ki, heç nə ilə fərqlənmədiyini aşkarlamışdır. Yalnız xüsusi lövhədə toxumanın normal histoarxitektonikasını pozmayan zəif intensivlikdə

fibroblastik reaksiyaların normaya nisbətən bir qədər yüksəlməsi müşahidə olunmuşdur (Şək. 9).



Şək. 8. Eksperimental parodontit. (Modelləşdirmənin 21-ci günü. II əsas qrup). Dişətinin bütün lövhəsində, xüsusilə əzələ lövhəsində LDH-nın zəif histokimyəvi fəallığı. (Boyaq: Gess, Skarpelli və Pirs üsulu ilə. Böyütmə: ob 20, ok 10).



Şək. 9. Eksperimental parodontit. (Modelləşdirmənin 28-ci günü. II əsas qrup). Dişətinin bütün lövhələrinin morfoloji cəhətdən intakt göstəricilərdən fərqlənməyən mikroskopik mənzərəsi (Boyaq: hematoksilin-eozin. Böyütmə: ob 20, ok 10).

YEKUN: beləliklə, aparılmış tədqiqatlar parodontitin gedişində «thyumus-koçi» bitkisinin tətbiqindən sonra dişətinin zədələnmiş yumşaq toxumalarında reparativ proseslərin digər qruplara nisbətən daha sürətli gedişini aşkar etdi. Əldə etdiyimiz nəticələr bu bitkidən alınmış təbii preparatların parodontitin müalicəsində effektliliyini nəzərə alaraq gələcəkdə stomatoloji praktikada onlardan geniş istifadə olunmasına imkanlar yaradacaq.

ƏDƏBİYYAT

1. Мельничук Г.М. Лечение хронического генерализованного пародонтита с применением средств природного происхождения / Стоматология нового тысячелетия: Сб. тезисов.М.: Авиаиздат, 2002,с.33-34
2. Покровская О.М. Совершенствование комплекса гигиенических мероприятий у пациентов с ортопедическими конструкциями на имплантах: Автореф. дис. … канд. мед. наук. М., 2008, 27с.
3. Розов Р.А Клинический анализ отдаленных результатов протезирования керамическими и металлокерамическими ортопедическими конструкциями: Автореф. дис. …канд.мед.наук.СПб,2009,24 с.
4. Трезубов В.Н., Сапронова О.Н., Колесов О.Ю., Розов Р.А. и др. Клинические осложнения при протезировании несъемными конструкциями // Институт стоматологии, 2007, №3, с.44-45.
5. Яковлев Д.Н. Клинико-лабораторное обоснование применения керамических протезов при ортопедическом лечении дефектов зубов и зубных рядов: Автореф. дис. … канд. мед. наук. Нижний Новгород, 2010, 24с.
6. Цимбалистов А.В., Соболева Т.Ю., Рубежов А.JL Особенности гигиены полости рта при наличии зубных протезов и ортодонтических конструкций /Сб.науч.трудов VI съезда СтАР. М., 2000, с. 98-100
7. Cha J.-D., Kimi H.-K., Jeong M.-R., Moon S.-E. et al. Antimicrobial activity of extracts of several plants against some pathogenic oral microorganisms. // J.Dental Re., 2002, v.81, Spec.Issue A, p.A-116.

8. Flores-Mir C, Major P.W. A systematic review of cephalometric facial soft tissue changes with the Activator and Bionator appliances in Class II division 1 subjects // Eur. J. Orthod., 2006, v.28, No6, p. 586-593.

XÜLASƏ

"THYMUS KOCI" PREPARATININ EKSPERİMENTAL PARODONTİTİN İNKİŞAF DİNAMİKASINA TƏSİRİ

İ.T.Qacarov

Tədqiqatların nəticələrinə əsasən fitopreparatın tətbiqi zamanı nəzərəçarpan dəyişiklər, dişətrafı toxumaların iltihabı xəstəliklərin kliniki təzahürlərinin tez bir zamanda aradan qaldırılması faktları aşkar edilmişdir.Eksperimentin 28-ji günündə aparılmış makro-mikroskopik tədqiqatlar «Thymus Koci» dərman preparatı ilə müalicə almış heyvanlarda parodontun yumşaq toxumalarının morfoloci və histokimyəvi xüsusiyyətlərinin intakt göstərijilərdən demək olar ki, heç nə ilə fərqlənmədiyini aşkar etmişdir. Əhəmiyyət kəsb etməyən fərqli jəhətlər yalnız xüsusi lövhədə fibroblastik reaksiyaların normal göstərijilərdən nisbətən yüksək olmasındadır

SUMMARY

THE INFLUENCE OF THE DRUG "THYMUS KOCI" ON THE DYNAMICS OF EXPERIMENTAL PERIODONTITIS

I.T.Gajarov

Thus, the soft gum tissue of experimental animals that received irrigation with chlorhexidine bigluconate 0.05% 21 days after removal of ligatures (28th day of simulation), we can say, completely restored to their morpho-functional and metabolic parameters. However, in the connective tissue of the special plates and deep layers of the periodontal epithelium degenerative changes remain weak intensity. By the 7th day after the model of periodontitis and in terms of «Thymus Koci», gingiva in animals is characterized by a much greater degree of normalization of the macro-and microscopic structures. And the more remote stages of experimental studies after application of the combined herbs can say almost complete normalization histostructure of gingiva.

Daxil olub:11.02.2011

UŞAQLIQ BOYNU VƏ UŞAQLIQ YOLUNUN INVOLYUTIV PROSESLƏRI OLAN QADINLARDA KLIMAKTERIK SINDROMUN XÜSUSIYYƏTLƏRI

J.R.Şərifova, E.M.Əliyeva
Azərbaycan tibb universiteti, Bakı

Klimakterik dövr qadın orqanizminin normal fizioloji dövrüdür. Bəzi qadınlarda bu dövr yumurtalıqların funksional aktivliyinin sönməsi nəticəsində baş verir. Eyni zamanda, əksər hallarda uzun müddət estrogen defisiti nəticəsində, bütün orqan və sistemlərdə dəyişikliklər təyin edilir [6,7]. Bu dəyişikliklər Kupperman şkalasına görə vegetativ-damar, psixo-emosional və endokrin mübadilə pozulmalarına ayrılırlar [1,2,4]. Dövrün dinamikasında bu dəyişikliklərin tezliyi qeyri sabitdir. Qadın orqanizmində involyutiv proseslərin inkişafı onun həyat keyfiyyətinə təsir edən patoloji proseslərin müxtəlifliyi ilə özünü biruzə verir.

Kuppermanın modifikasiya olunmuş menopauzal indeksin təyini nəticəsində neyro-vegetativ simptomların rast gəlmə tezliyini aşağıdakı kimi qiymətləndirmişdir.

0-yox dərəcədə (10 bala qədər)
-I zəif təzahürlər (10-20 bal arasında)
-II mülayim təzahürlər (21-30 bal arasında)
-III kəskin biruzə vermiş təzahürlər (30 baldan artıq)
Endokrin mübadilə pozulmalarının təyininə görə:
-zəif dərəcə (1-7 bal)
-orta dərəcə (8-14 bal)
-ağır dərəcə (>14 bal) göstəilir.
Kilmakterik sindromun psixoemosional əlamətlərinin təyininə görə:
-zəif dərəcə (1-7 bal)
-orta (8-14 bal)
-ağır dərəcə (>14 bal) göstərilir.
Klimakterik sindromun ağırlıq dərəcəsinə görə:
-zəif dərəcə (19-34 bal)
-orta dərəcə (35-58 bal)
-ağır dərəcə (>58 bal) təyin edilmişdir [3,5].

Mövzunun aktuallığına nəzərə alaraq, hazırki tədqiqatın MƏQSƏDI təyin edilmişdir: postmenopauzal dövrdə olan qadınların klimakterik sindromunun xüsusiyyətlərinin öyrənilməsi.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Bu məqsədə əsasən, postmenopauzal dövrdə 112 qadında klimakterik dövrün xüsusiyyətləri təhlil edilmiş və vegeto-damar, mübadilə-endokrin, psixo-emosional əlamətlərinin tezliyini və qabarıqlığı öyrənilmişdir.

Aparılan tədqiqat nəticəsində aşkar olunmuşdur ki, 65 (58%) qadında postmenopauzal dövrün müddəti 2-5 il olmuşdur. 23 (20,5%) qadında bu dövrün müddəti 6-9 il, 24 (21,4%) qadında isə postmenopauzal dövr 10 ildən çox olmuşdur.

Beləliklə müayinə olunan qadınların hər 2-də postmenopauzal dövrün müddəti 5 ilə qədər. Hər 5-ci qadında isə bu müddət 6-9 ildən çox olmuşdur.

Aparılan tədqiqat zamanı klimakterik sindromun vegeto-damar, mübadilə endokrin və psixo-emosional əlamətlərin qabarıqlığı öyrənilmişdir. Alınan nəticələr cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

Klimakterik sindromun vegeto-damar əlamətləri

Vegeto-damar əlamətləri	mütləq	%
- Arterial təzyiqin yüksək olması	56	5,6
Arterial təzyiqin aşağı olması	23	2,3
Baş ağrısı	82	8,2
Baş gicəllənmə	37	3,7
Ürək vurğusu	89	8,9
Yüksək hərarətə dözümlülük	16	1,6
Üşütmə, titrəmə	41	4,1
Keyləşmə əlamətləri	93	9,3
Dəri quruluğu	76	7,6
Tərləmə	110	11,0
Ödemə meyillik	32	3,2
Allergik reaksiyalar	22	2,2
Eqzoftalm	12	1,2
Yüksək qıcıq	110	11,0
Yuxululuq	25	2,5
Yuxu pozğunluğu	60	6,0
Istilik gəlmə (24 saat ərzində)	100	10,0
Boğulma pristupları (həftədə)	4	0,4
Simpato-adrenal kriz	11	1,1

ALINAN NƏTICƏLƏR VƏ ONLARIN MÜZAAKIRƏSI. Cədvəldə 1-də göründüyü kimi müayinə olunan qadınlarda vegeto-damar əlamətlərdən tərləmə (11%), yüksək qıcıqlıq (11%), istilik gəlmə (10%), keyləşmə əlamətləri (9,3%), tezləşmiş ürək vurğusu (8,9%), baş ağrısı (8,2%) yüksək tezliyi təyin edilmişdir.

Klimakterik sindromun yüksək tezliklə rast gələn əlamətlərinin ağırlıq dərəcəsi Cədvəl 2-də göstərilmişdir.

Cədvəldə 2-də göründüyü kimi 55,3 %-də A/T 140/90 - 150/90 mm.c.s. olmuşdur.

Alınan nəticələrə görə 51,2% qadınlarda baş ağrısı tez-tez hallarda, 67,4%-də tezləşmiş ürək vurğusu, 92,1%-də dəri quruluğu, 50% -də tərləmə halları tez-tez (++) hallarda, 63,6% qadınlarda yüksək qıcıqlıq halları (++), 69,8 %-də gecə vaxtı keyləşmə halları, 55%-də istilik gəlmə hallarının artması (10-20 dəfə), 53,3%-də isə yuxu pozulmaları müşahidə olunmuşdur.

Kupperman şkalasına əsasən aparılan tədqiqata klimakterik-sindromun vegeto-damar əlamətləri 28,0±2,11 bal civarında qiymətləndirilmişdir.

Aparılan tədqiqatlarda klimakterik sindromun mübadilə endokrin əlamətlərinin göstəriciləri cədvəl 3-də öz əksini tapmışdır.

Cədvəl 2

Klimakterik sindromun vegeto-damar əlamətlərinin ağırlıq dərəcələri

Vegeto-damar əlamətləri	Qabarıqlıq dərəcəsi, ballar					
	1		2		3	
	mütləq	%	mütləq	%	mütləq	%
- A/T yüksəlməsi (n=56)	31	55,3	25	44,6	-	
- Ürək vurğusu (n=89)	29	22,4	60	67,4	9	10,1
- Dəri quruluğu (n=76)	70	92,1	6	7,8	-	-
- Tərləmə (n=110)	32(+)	29,0	55(++)	50,0	23(+++)	20,9
- Yüksək qıcıq (n=110)	19(+)	17,2	70(++)	63,6	21(+++)	19,0
- Keyləşmə əlamətləri (n=93)	28	30,1	65	69,8	-	
- Istilik gəlmə (n=100)	45	45,0	55	55,0	-	
- Yuxu pozğunluğu (n=60)	28	46,6	32	53,3	-	
- Baş ağrısı (n=82)	17	20,7	42	51,2	23	28,0

Cədvəl 3

Klimakterik sindromun mübadilə - endokrin əlamətlərinin göstəriciləri

Mübadilə endokrin əlamətləri	mütləq	%
- Bədən çəkisi indeksi artması (BC I) kq/m^2	59	14,3
- Qalxanabənzər vəzi funksiyasının pozulması	16	3,8
- Karbohidrat mübadiləsi pozulması	12	2,9
- Mastopatiya	17	4,1
- Əzələ və oynaq ağrıları	95	23,1
- Susuzluq	100	24,3
- Genital atrofiya	112	27,2

Klimakterik sindromun mübadilə endokrin əlamətlərini təhlil edərkən təyin edilmişdir ki, yüksək tezliklə genital atrofiya (27,2%), susuzluq (24,3%), əzələ və oynaq ağrıları (23,1%) və bədən çəkisinin indeksinin artması (14,3%) təyin edilmişdir.

Mübadilə -endokrin əlamətlərin balla qiymətləndirilməsi cədvəl 4-də göstərilib.

Cədvəl 4

Klimakterik sindromun mübadilə-endokrin əlamətlərinin ağırlıq dərəcələri

Mübadilə endokrin əlamətləri	Qabarıqlıq dərəcəsi, ballar					
	1		2		3	
	müt.	%	müt.	%	müt.	%
Bədən çəki indeksinin artması kq/m^2 (n=59)	35	59,3	24	40,6	-	
Əzələ və oynaq ağrıları (n=95)	18	18,9	67	70,5	10	10,5
Susuzluq (n=100)	25 (+)	25,0	85(++)	85,0	-	
Genital atrofiya (n=112)	23(+)	20,5	89(++)	79,4		

Cədvəl 4-də göründüyü kimi klimakterik sindromun mübadilə-endokrin əlamətləri qabarıqlığını öyrənərkən təyin olunmuşdur ki, qadınların 59,3%-də bədən çəki indeksi (BCİ 25-29 kq/m^2) artması, 70,5%-də periodik olaraq əzələ və oynaq ağrılarının olması, 85%-də qadınlarda susuzluq halları (++), 79,9%-də isə orta dərəcəli genital atrofiya təyin edilmişdir (++).

Kupperman şkalası üzrə mübadilə- endokrin əlamətləri 13,3±1,36 bal olaraq qiymətləndirilmişdir.

Aparılan tədqiqatda klimakterik sindromun psixo-emosional əlamətləri öyrənilmişdir. Bu əlamətlərdən əmək qabiliyyətinin aşağı düşməsi, yorğunluq, dalğınlıq, yaddaşın pozulması, qıcıq halları və ağlağanlıq, iştahanın pozulması, sayrışan hallar, əhval-ruhiyyənin dəyişkənliyi, libidonun dəyişkənliyi balla qiymətləndirilmişdir. Alınan nəticələr cəvdəl 5-də göstərilmişdir.

Cədvəl 5-də göründüyü kimi kilmaterik sindromun bütün psixo-emosional əlamətlərin rastgəlinmə tezliyi yüksəkdir. Psixo-emosional əlamətlərin ağırlıq dərəcəsi cədvəl 6-da göstərilmişdir.

Cədvəl 5

Klimakterik sindromun psixo-emosional əlamətlərinin qiymətləndirilməsi

Psixo-emosional əlamətləri	mütləq	%
- Əmək qabiliyyətinin aşağı düşməsi, yorğunluq	95	14,7
- Yaddaşın pozulması	110	17,0
- Qıcıq halları və ağlağanlıq	89	13,8
- Iştahanın pozulması	93	14,4
- Sayrışan hallar	78	12,1
- Əhval-ruhiyyənin dəyişkənliyi	110	17,0
- Libidonun dəyişkənliyi	69	10,7

Cədvəl 6

Klimakterik sindromun psixo-emosional əlamətlərinin ağırlıq dərəcəsi

Psixo-emosional əlamətlər:	Qabarıqlıq dərəcəsi, ballar					
	1		2		3	
	müt	%	müt.	%	müt	%
Əmək qabiliyyətinin aşağı düşməsi, yorğunluq (n=95)	40	42,1	45	47,3	10	10,5
- Yaddaşın pozulması (n=110)	30 (+)	27,2	48 (++)	43,6	32 (+++)	29,0
- Qıcıq halları və ağlağanlıq (n=89)	15 (+)	16,8	39 (++)	43,8	35 (+++)	39,3
- Iştahanın pozulması (n=93)	27	29,0	40	43,0	26	27,9
- Sayrışan hallar (n=78)	58	74,3	20	25,6	-	-
- Əhval-ruhiyyənin dəyişkənliyi (n=110)	79	71,8	15	13,6	16	14,5
- Libidonun dəyişkənliyi (n=69)	38	55,0	29	42,0	2	2,8

Cədvəl 6-dan göründüyü kimi klimakterik sindromun psixo-emosional əlamətlərində 42,1% qadında əmək qabiliyyətinin yüngül fiziki işdən sonra 47,3 %-də isə yüngül zehni fəaliyyətdən sonra azalması müşahidə olunurdu. Qadınların 43,6%-də yaddaşın pozulması halları orta dərəcədə (++), 43,8%-də qıcıq və ağlaqanlıq halları həmçinin orta dərəcədə (++), 43 %-də iştahanın azalması halları, 74,3% də sayrışan hallara aid olan yüksək həssaslıq, 71,8%-də əhval-ruhiyyənin qeyri-stabil olması təyin edilmişdir. Libidonun dəyişkənliyini təhlil edərkən müayinə olunan qadınların 55%-də libidonun azalması, 42%-də libidonun olmaması qeyd olunurdu.

Kupperman şkalası üzrə psixo-emosional əlamətləri 12,9±0,89 bal kimi qiymətləndirilmişdir.

Beləliklə, Kupperman şkalasına əsasən postmenopauzal dövrdə müayinə olunan qadınlarda Modifikasiya olunmuş Menopauzal İndeksin (MMİ) göstəricisi 54,2 ± 1,56 bal olaraq qiymətləndirilmişdir. Bu da müayinə olunan qadınlarda klimakterik əlamətin orta ağırlıq dərəcəsini əks edir.

ƏDƏBIYYAT

1. Вихляева Е.М. Руководство по эндокринной гинекологии / Под ред. Е.М. Вихляевой, М., МИД, 1997, с.603-650.
2. Вихляева Е.М. Постменопаузальный синдром и стратегия заместительной терапии // Акуш. и гинек., 1997, № 5, с.51-56.
3. Кузнецов Р.Э. Демографические и медицинские параллели в женщин в постменопаузе // Матер, межвузовской науч.-практич. конф., посвящ. 125-летию кафедры общей гигиены, «История становления и развития отечественной и гигиенической науки и практики». 2009, с.125-127.
4. Ковалькова И.В. Профилактика и лечение эстрогендефицитных состояний у женщин в постменопаузе. Автореф. дис.... к.м.н., М., 2010, с.22 .
5. Ташбулатова Н.К. Особенности клинических проявлений климактерического синдрома у женшин в пери-и постменопаузе // Вестник КРСУ, 2003, № 7, с.1-14.
6. Bonnanty L, Marret H, Perrotin F, Body G, Berger C, Lansac J. Sonohysterography; a prospective survey of results and complications in 81 patients // Eur. J.Obstet. Gynecal Reprod Biol, 2002, v.10, № 102, p.42-47.
7. Samsioe G. Menopause // Reviewб 1998, v.3б № 1, p. 9-17.
8. Lansac J. Physiologie de la menopause // Contracept. Fertil Sexual., 1985, 13. Special, p. 271-276

РЕЗЮМЕ

ОСОБЕННОСТИ КЛИМАКТРИЕЧЕСКОГО СИНДРОМА У ЖЕНЩИН С ИНВОЛЮТИВНЫМИ ПРОЦЕССАМИ В ШЕЙКЕ МАТКИ И ВО ВЛАГАЛИЩЕ

Ж.Р.Шарифова, Э.М.Алиева

Целью исследования является изучение особенностей климактриеческого синдрома у женщин с инволютивными процессами в шейке матки и во влагалище. С этой елью был изучен и анализирован вегетососудистая система, частота и выраженность психио- эмоциональных признаков у 112 женщин в климактерическом периоде. Таким образом, по шкале Куппермана во время исследования у женщин модифицироанный менопаузыльный индекс был равен 54,2±1,56 баллам. Это показывает средне тяжелой степени у исследованных женщин с климактрическими признаками.

SUMMARY

FEATURES CLIMACTERIC SYNDROME IN WOMEN WITH INVOLUTIVE PROCESS IN THE CERVIX AND VAGINA

J.R.Sharifov, E.M.Aliyeva

The aim is to study the characteristics of climacteric syndrome in women with involutive processes in the cervix and vagina. With this spruce has been studied and reviewed, vegetative system, the frequency and severity of psycho-emotional symptoms in 112 women in menopause. Thus, on a scale of Kupperman during the study, women modifitsiroanny menopausal index was equal to 54,2±1,56 points. This shows the average severe in women with climacteric investigated traits.

Daxil olub:14.03.2011

YAD CISIM ASPIRASYASININ MÜALICƏSI

A.Musayev, Ata Erdener, Coşkun Özcan
Ege Unversiteti

Yad cisim aspirasyasının (YCA) müalicə planı təcili və mərhələli olmalıdır. Yad cisim aspirasyası tətbiq olunan xəstələrə ilk yardımın birinci mərhələsi müalicə planı hesab olunur və müalicə planının düzgün və vaxtında aparılması ölüm hallarınını aşağı düşməsinə səbəb ola bilər. YCA şübhəsi ilə qəbul edilən xəstələrin müalicə planı anamnezə, radiodiagnostik və klinik parametrələrə əsaslanır və bunlara əsasən ikinci mərhələ müalicə planının aparılması haqqında qərar verilir. Eyni zamanda bu parametrlər müalicənin aparılmasında düzgün istiqamətlənməya imkan verir. Klinik təcrübələr anamnez, radiodiaqnostik və klinik əlamətləri nəzərə alaraq bronxoskopik müayinələrin sayını azaltmaga calışmışlar, lakin YCA şübhəsi olan bir qurup xəstənin uzun müddət sonra ağır fəsadlara məhyz qalmışlar.

Bizim tədqiqatımızın MƏQSƏDİ klinikamiza daxil olan xəstələrin ilk yardım taktikasının xüsusiyyətləri və xəstəlik tarixçilərindəki göstəricilər nəzərdən keçirilərək bronxoskopiyaya olan göstərişlərə baxmayaraq müayinənin gecikdirilməsi və fəsadların təkrar baş verməsi qiymətləndirilərək müayinə protokoluna düzəlişlər etməkdən ibarətdur. Aspirasya şübhəsi ilə daxilolan xəstələrdə bronxoskopiyaya olan göstərişlər nəzərə alınaraq ağ ciyər agırlaşmalarının qarşısının alınması üçün bronxosopiyanın vaxtında aparılması üçün qərar verilmışdır. Bronxoskopiya olunmuş xəstələrin çoxunda yad cisimlərə rast gəlinmişdir. Anamnez-radialogiya-auskultasya müayinlərinini nəticələri birlikdə müəyyən sullarln meydana gəlməsinə səbəb olursa, bronxoskopiyanın aparılması nəticəsində dürüst nəticələr əldə olunur və müalicə müsbət sonluqla bitir. Bronxoskopiyanın aparılması həm müayinə, həm də müalicə metodu kimi nəzərdən keçirilir.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Ege Universiteti Tibb Fakültəsi Uşaq Cərrahiyyəsi kafedrasında 1999-2008 illəri arasında YCA şübhəsi ilə mualicə edilən xəstələrin ailə ilk yardım anamnezi, xəstəlik tarixçələri, ağ ciyər rentgenləri və bronxoskopiya nəticələri retrospektiv olaraq nəzərdən keçirilmişdir.

Xəstələrin anamnezi, fizik və radiodiaqnostik muayinənin nəticələri, yad cisim aspirasya əlamətləri, bronxoskopiya nəticələri və statistik təhlillərin nəticələri nəzərdən keçirilmişdir.

Statik təhlil için "SAS' programından istifadə olunmuşdur, statistik hesablamada Fisher Tamamlama testindən (Fisher's Exact Test) istifadə edilmişdir, diagnostik dürüstlük için ''Gold testi'' tətbiq edilmişdir, $p<0.05$ rəqəmi statistik olarak dürüst qəbul edilmişdir.

TƏDQİQATIN NƏTİCƏLƏRİ. Xəstəxanaya daxil olan bütün 226 uşaq xəstə ağ ciyər rengenindən keçmişdir, onlardan 50 xəstə toraks kampüter tomografiyası müayinəsindən keçmişdir

və 240 (bronxoskopiya olunan bir neçə xəstəyə ikinci dəfə bronxoskopiya olundu) bronxoskopiya edilmişdir, 0 derece teleskop (karl storz) istifadə edilmişdir, yad cisim aspirasyasına 165 (73%) xəstədə rast gəlinmişdir. Diaqnostik bronxoskopiya olunan 73% xəstədən yad cisim görülərək çıxarılmışdır. Yad cisimə rast gəlinməyən xəstələrin hamısına bronxiyal lavaj tətbiq edilərərk müayinə edilmişdir. Yad cisim aspirasyasına rast gəlinən 39 xəstəyə bronxoskopiya edilmişdir, onların hər birində müsbət nəticələr əldə olunmuşdur və 100% sagalma baş vermişdir, yad cisim olmayan və ilk yardım alan 61 (27%) xəstədən 7 xəstəbronxoskopiya edilmiş nəticəsi mənfi olmuşdur

Muzakirə. Tədqiqatımızda bronxoskopiyanın mənfi nəticəsi 27% halda olub, ədəbiyyat göstəricilərində bu göstərici 9-16,5% (30%, 40-65% olmuşdur) [4,6,7,8]. Tədqiqatımızda 20% xəstəy' ilk yardım göstərilmişdir və bu xəstələrin 65% -də bronxoskopiyanın nəticəsi müsbət olmuşdur, 35%"də bronxoskopiya nəticəsi mənfidir, bunun səbəbi ilk tibbi yardım zamanı yad cisimin çıxarıldıgı şgüman edilir. Tədqiqatımızdan əldə olunan mənfi nəticələrin səbəbi valideyinlərdən alınan anamnezə inanılaraq bronxoskopiya edilmişdir (xəstələr qəbul edilməzdən əvvəl öksürərək yad cisimi çıxartmasıdır), anamnez dogru olurduqda bronxoskopiya müayinənin müsbət olma ehtimalı çox yüksək olurdu. Beləliklə, ədəbiyyatda verilən məlumatlarla bizim tədqiqatımızın nəticələri müqayisə olunduqda bizim mənfi nəticələrimizin çox oldugu aşkar olunur, belə nəticə çıxarırıq ki, anamnezə inanaraq bronxoskopiya olunması düz deyil.

Nəticə olaraq literaturla bizim calişmamızı qarşılaşdırdıgımızda mənfi nəticələrimizin çox oldugunu görürük, belə nəticə çıxarırıq ki, anamnezə inanaraq bronxoskopiya olunması düz deyil. Anamnez-auskültasya-radyolojik parametrələrin aşagida ayrıntılı qarşılaştırmalı statistik analizi cədvəldə verilmişdir.

Cədvəl 1

	Anamnez		Auskültasya		Radioloji (PAAC)		Anamnez+ Radioloji		Anamnez+ Auskültasya		Auskültasya+ Radioloji		Anamnez+ Auskültasya+ Radioloji	
	(+)	(-)	(+)	(-)	(+)	(-)	(+)	(-)	(+)	(-)	(+)	(-)	(+)	(-)
YC rast gəlinən	144	21	150	15	154	11	133	32	95	70	110	55	94	71
YC rast gəlinməyən	40	21	52	9	46	15	27	34	18	43	22	39	16	45
Diagnostik dürüstlük(%)	%73,0		%70,4		%74,8		%73,9		%61,1		%65,9		%61,5	
Həssaslıq (%)	%87,3		%90,9		%93,3		%80,6		%57,6		%66,7		%57	
Dürüstlük (%)	%34,4		%14,8		%24,6		%55,7		%70,5		%63,9		%73,8	
Müsbət ortaq dəyər (%)	%78,3		%74,8		%77,0		%83,1		%84,1		%83,3		%85,5	
Mənfi ortaq dəyər (%)	%50,0		%37,5		%57,7		%51,5		%38,1		%41,5		%38,8	

Auskültasyanın diaqnostik həssaslığı çoxdur, auskultasyanın musbət dəyəri az olduğu üçün yad cisimin dəqiq varlıgını ifadə etmir. Auskültasyanın şübhəni anamnez ilə birlikdə dürüstlükehtimalı çox oldugu və mübət nəticənin ehtimal olunduğuna əsaslandırdı.

Ağ ciyər rengenoqraması həssaslığı tədqiqatımızda 93,3%, ədəbiyyat mənbələrində 18- 90% arasında dəyişməkdədir. Ağ ciyər rengenoqramasının yad cisim lokalizasyasının dəqiqləşdirmə istiqamətində həssaslığı 77% olub ədəbiyyatla eynidir. Nəticələrimizə görə radioloji göstəricilər yad cisim aspirasyası olmasa belə əldə olunur ve yad cisim olduğu halda dürüst diaqnostik əlamət olmaya bilir. Tək əlamət olaraq ağ ciyər rentgeni ilə bronxoskopiya olunması dogru olmaz və müsbət nəticə verməz, bizim təcrübəmizdə rentgenin müsbət nəticələri ədəbiyyat mənbələri ilə müqayisədə yüksəkdir və bunun səbəbi rentgeni qiymətləndirən həkimlərin təcrübəli olmasıdır.

Anamnez-radiologiya-auskültasya müayinələrin birgə nəticələri nəzərə alınaraq həssaslıq, diagnostik dürüstlüyün daha aşağı oldugunu göstərir, bu da diaqnozun spesifik olmadığını ifadə edər. Üç əlamətin şübhə yaratması bronxoskopiyaya göstəriş və şübhəni aradan qaldırmağa imkanı verir. Diaqnozu dəqiqləşdirmək və şübhəni aradan qaldırmaq məqsədi ilə bronxoskopiya olan tələbat

dəqiqləşdirilir. Bronxoskopiya zamanı yad cisimə rast gəlinirsə, eyni seansda yad cisim kənar edilir, eyni seansda yad cisimin çıxrılma ehtimalı 90% olur. Ədəbiyyatda bu nisbət 80%- ə bərabərdir. Bu ehtimalı artırmaq məqsədilə üç əlamətin hər xəstədə təkrar gözdən keçirilərək qiymətləndirilməsi zəruri şərtdir. Ədəbiyyatda oldugu kimi bronxoskopiya hər şübhəli xəstədə göstərişdir, bronxoskopiyanin vaxtında olunması yad cismin gözdən qaçmasını və ağırlaşmalara mane olur, müsbət nəticələri artırar.

NƏTICƏ. Yad cisim aspirasya şübhəsi olan bütün xəstələr yuxarıda sadalanan parametrlər ilə birlikdə gözdən keçirildikdən sonra bronxoskopiya qərarı verilməlidir. Yad cisim aspirasya olan bütün xəstələrə yuxarıda sadalanan ilk yardım texnikaları tətbiq olunursa ölüm sayını minimuma endirmək mümkün olur olardı, xəstələrin valideyinlərinin maarifləndirilməsi zəruri şərtdir, vaxtındagöstərilən ilk yardım ölüm sayını azalmaqdadır.

İlk yardımın ikinci mərhələsi ixtisaslaşdırılmış xəstəxanalarda aparılmalıdır. Birinci planda düzgün anamnez, radiodiaqnostika və klinik müayinənin aparılması nəticəsində təcili düzgün qərar verilməlidir. Şübhəli xəstələr birlikdə gözdən keçirildikdən konsultasya olunaraq sonra bronxoskopiya qərarı verilməlidir.

Yad cisim aspirasiyası şübhəsi olan xəstələrə ikinci mərhələ aşağıdakı 3 əlamət nəzərə alınmalıdır: Anamnez; Auskültasya; Ag ciyər rentgeni (şübhə varsa Kompüter Tomoqrafiyası aparılmalıdır).

İkinci planda bronxoskopiya və təkrar bronxoskopiya edilir. Yad cisim aspirasyasının dəqiq diaqnozu bronxoskopiya ilə müayinə edilərək qoyulur, bronxoskopiyaya göstərişi yad cisim aspirasyası şübhəsi olduğunda yuxarıda sadalanan parametrlərin musbət olmasıdır.

Anamnez-auskultasya-radioloji müayinənin nəticəsi yad cisim şubhəsi olduğunda bronxoskopiya nəticəsi müsbət olur.

Bu parametrlərdən anamnezə daha çox üstünlük verilməlidir. Anamnezdə aspirasyaya şübhə varsa, bronxoskopiyaya göstərişdir, anamnezin müsbət olması digər 2 əlamətlərin müsbət olması ehtimalını və bronxoskopiyanın müsbət olma ehtimalını 100% çıxardır. Bronxoskopiyanın olunmasında məqsəd diaqnostik olmaqla birlikdə eyni seansda müalicə məqsədlidir. Bizim tədqiqatların nəticələri və planı irəlidə klinikada fəsadların və ölüm nisbətlərinin azaltması məqsədilə istiqamətlənmişdir.

ƏDƏBİYYAT

1. Johnson DG, Condon VR: Foreign bodies in pediatric patients // Probl Surg., 1998, v.35, p.273-379
2. Black RE, Johnson DG, Matlak ME: Bronchoscopic removal of aspirated foreign bodies in children // J Pediatr Surg., 1994, v.29. p.682-684
3. Merangolo S, Monnetti C, Meneghini L, et al: Eight years experience with foreign-body aspiration in children: What is realy important for timely diagnosis? // J Pediatr Surg., 1999, v.34, p.1229-1231
4. Zerella JT, Dimler M, McGill LC, et al: Foreign body aspiration children: Value of radiography and complications of bronchoscopy // Pediatr Surg., 1998, v.33, p.1651-1654
5. Barrios JE, Gutierrez C, Lluna J, et al: Bronchial foreign body: hould bronchoscopy be performed in all patients with choking crisis. ediatr // Surg Int., 1997, v.12, p.118-120
6. Hoeve I J, Rombout J, Pot DJ: Foreign body aspiration in hildren: The diagnostic value of signs, symptoms and preoperative xamination // Clin Otolaryngol., 1993, v.18, p.55-57
7. Zaytoun GM, Rouadi PW, Baki DH: Endoscopic management of foreign bodies in tracheobronchial tree: Predictive factors for complications //Otolaryngol Head Neck Surg., 2000, v.123, p.311-316
POLLIATIV ƏMƏLIYYATDAN SONRA DÜZ BAĞIRSAĞIN XƏRÇƏNGI OLAN XƏSTƏLƏRDƏ ŞÜA TERAPIYASININ OPTIMALLAŞDIRILMASI

N.Q.Quliyeva

Aşkar olunmuşdur ki, düz bağırsağın yerli yayılmış xərçəngi olan xəstələrdə palliativ əməliyyatlardan sonra radiomodifikatorlarla bərgə iri fraksiyaların istifadə olunması ilə şüa terapiyasının effektivliyi artır. Bu isə xəstələrin hayat keyfiyyətinin yaxşılaşmasına və ömrün uzanması ilə özünü göstərir. Bu zaman reaksiya və ağırlaşmalar dərinləşmir və müalicənin nəticəsinə mənfi təsir etmir.

Daxil olub:28.01.2011

UŞAQLIQ BOYNU XƏRÇƏNGİ, PATOLOJİ UŞAQLIQ BOYNU YAXMALARI (PAP SMEAR) VƏ BİOPSİYANIN YERİ

V.A. Bayramov, S. Tezcan

Dövlət Gömrük Komitəsi Mərkəzi Hospitalı, Bakı; Ankara Universiteti

Pap smear (Papanikolau-uşaqlıq boynu yaxması) yaxması ilə aparılan sitoloji müayinələr göstərmişdir ki, xərçəngönü proseslər geniş yayılmışdır. Uşaqlıq boynu xərçəngi ilə xəstələnmə hallarının və səbəbdən ölümün azalması, qismən bu xərçəngönü zədələrin müəyyənləşdirmə nisbətindəki artışa bağlanmışdır [1]. Lakin uşaqlıq boynu xərçəngi bütün dünyada mühüm bir tibbi problemi kimi qalmaqdadır. Müayinə proqramlarının olmadığı üçüncü dünya ölkələrində uşaqlıq boynu xərçəngi ölüm hallarının əsas səbəblərindəndir. Bu xəstəliyin qarşısının alınmasına imkan olduğundan, qadın sağlamlığı ilə məşğul olan mütəxəssislərin diaqnozla əlaqədar məsələlər, xüsusilə xərçəngönü zədələnmələrin diaqnostikası və uşaqlıq boynu xərçənginin risk faktorları haqqında məlumatlandırılmaları vacibdir [2].

Bethesda sistemi (Beynəlxalq patoloji uşaqlıq boynu yaxmaları təsnifatı) 1989-cu ildən istifadəyə verilən uşaqlıq boynu patologiyalarında yeni bir diaqnostika üsulu kimi ortaya çıxmışdır. Bu diaqnoz, "əhəmiyyəti müəyyənləşdirilə bilinməyən atipik yastı hüceyrələr" (ASCUS-Atypical Squamous cells of undetermined significance) olaraq adlandırılmışdır. Bu sitoloji modifikasiyalara malik qadınların müalicəsi hələ də mübahisə doğurur. Bundan başqa, illər ərzində ASCUS

xəstəliyində hiss olunacaq bir artma müşahidə olunmuşdur. Əsas olaraq ASCUS rutin sitoloji yaxmaların 5 %-ində rast gəlinir. Aşağı dərəcə yastı hüceyrəli intraepitelial zədə (LSIL-Low grade serviko intraepitelial lesion) və yüksək dərəcə yastı hüceyrəli intraepitelial zədə (HSIL-hige grade serviko intraepitelial lesion) kimi anormal sitoloji yaxmalar üçün əsas alqoritmlər inkişaf etdirilməklə yanaşı, ASCUS diaqnozu qoyulan xəstələrin müalicəsi hələ də mübahisə doğurmaqdır. ASCUS hallarında kolposkopik (uşaqlıq boynu güzgüsü) olaraq hədəflənmiş biopsiya ilə 20–30 %-də LSIL, 5-15 %-də isə HSIL müəyyənləşdirilmişdir [3].

Pap testi uşaqlıq boynu xərçənginin müayinə vasitəsi ilə, SİN (serviko intraepitelyal neoplazi) ilə xərçəngönü xəstəliklərin diaqnozunu artıraraq, sevikal xərçəng xəstəlik dərəcəsini və ölüm faizini azaltmışdır. Dünyanın heç bir yerində, aktiv bir yoxlayıcı proqram olmadan, servikal xərçəng xəstəliyi və ölüm faizləri azalmamışdır.

Uşaqlıq boynu xərçənginin risk faktorlarına, erkən başlamış seksual fəallıq, cinsi əlaqəyə girilən şəxslərin çoxluğu və tütündən istifadə aiddir. Yoxlayıcı test hər yaş qrupu üçün əhəmiyyətlidir. 55 yaşdan yuxarı qadınlarda, bu xəstəlikdən ölüm göstəricisi yaşı 55-dən aşağı olanlara nisbətən çoxdur. ABŞ-da bütün uşaqlıq boynu xərçəngə bağlı ölümlərin 25 %-i bu yaşlı qrupda təsadüf edilir. ABŞ-da uşaqlıq boynu xərçəngi, qadınlarda ən çox təsadüf olunan bədxassəli şişlər arasındadır və bu xəstəlik əlli il bundan əvvələ qədər xərçəng xəstələ ilə xəstələnmə strukturunda birinci yerdə dururdu. Dünya miqyasında qadınlarda təsadüf olunan bədxassəli şişlər arasında isə uşaqlıq boynu xərçəngi hələ də birincidir və ildə, təxminən, 500.000 nəfərdə rast gəlinir.

UŞAQLIQ BOYNU XƏRÇƏNGININ EPIDEMIOLOGIYASI VƏ RISK FAKTORLARI. İnvaziv uşaqlıq boynu xərçəngi, uzun preinvaziv dövrü, servikal sitoloji müayinə proqramlarının varlığı ve preinvaziv zədələrin fəal müalicəsinin mümkün olması sayəsində bəd xassəli şişlərin qarşısı alına bilinən bir növü hesab edilir. Buna baxmayaraq, 2002-ci ildə ABŞ-da 13000 yeni invaziv uşaqlıq boynu xərçəngi və bununla əlaqədar təxminən 4100 ölüm halı müşahidə edilmişdir. Uşaqlıq boynu xərçəngi tam olaraq aradan qaldırılmamışdır, ancaq invaziv xəstəlik halı azalmaqda, daha erkən diaqnozun qoyulması və müalicənin erkən başlanması sayəsində sağ qalma faizləri artmaqda davam edir. Uşaqlıq boynu xərçəngi ilə xəstələnmənin orta yaş həddi 52-dir, 35-39 yaş və 60-64 yaş arasında 2 pik dövrü vardır(4).

Uşaqlıq boynu l xərçəngində bir çox risk faktoru vardır: ilk əlaqə yaşının kiçik olması (<16 yaş), çoxlu seksual əlaqə, siqaret çəkmə, irq, çox uşaq doğma və aşağı sosial-iqtisadi səviyyə. Oral kontraseptivlərin (hamiləliyin qarşısını alan preparatlar) istifadəsinin xəstələnmə halları ilə əlaqəli ola biləcəyi haqqında ədəbiyyatda mübahisəli fikirlər vardır. Bəzi tədqəqatçılar oral kontraseptiv istifadəsinin servikal vəzi anormallıqlara yol açdığını iddia edirlər; ancaq bu fərziyyə o qədər də qəbul olunmur. Bu risk faktorlarının çoxu seksual fəallığa və cinsi yolla keçən xəstəliyin baş verməsinə bağlıdır. Əvvəllər herpes virus infeksiyasının servikal xərçəngə təkan verən hadisə olduğuna inanılırdı. Ancaq indi human papilloma virus (HPV) infeksiyasının servikal xərçəngin inkişafında rolu olduğu müəyyənləşdirilmişdir.

Uşaqlıq boynu displaziyası və karsinogenezisi başladan hadisə ehtimal ki, HPV infeksiyasıdır. Skuamoz servikal xərçəngli xəstələrin 99 %-ində HPV infeksiyası müəyyən edilmişdir. Səksəndən yuxarı HPV tipi vardır, bunların 25-i alt genital (cinsiyyət orqanlarına məxsus) traktusa təsir edir. On üç yüksək riskli HPV-in alt tipi vardır; bu yüksək riskli alt tipin ikisi, 16 ve 18 servikal xərçənglərin 62 %-ində üzə çıxarılmışdır. HPV-nin hüceyrəvi inkişaf və fərqlənməyə təsir etmə mexanizması, viral (virus) E6 ve E7 proteinlərinin p53 ve Rb ilə aktivləşərək gen inaktivasiyasına yol açmasıdır. Human immundeficiency virusun (HİV) servikal xərçəngdəki rolu immun suprasiya səbəbilə ortaya çıxmaqdadır. Center for disease and prevention (Xəstəlik və profilaktika mərkəzi) servikal xərçəngi HİV-ə yoluxmuş xəstələrdə akut (kəskin) immun çatışmazlığı sindromunu (acut immun deficite sindrom) göstərən xəstəlik olaraq təqdim edir.


MAKROSKOPIK GÖRÜNÜŞ. Erkən mərhələdə, inkişaf edəcək şişin mənbəyi kimi yastı epitel, adi gözlə baxıldıqda, normal yastı epitelden heç bir fərqləndirici xüsusiyyətə malik deyildir. Bunun əksinə, Schiller iod sölüsyonunun (Şiller yod məhlulunun), serviks hissəsinə tətbiq edilməsi, 80 % halda, CİN-in(cerviko intraepitelyal neoplaziya) əhatə etdiyi sahələri göstərir. Schillerin yodu, normal mukozanı (selikli qişanı), tünd qəhvəyi rəngə boyar; çünkü yod normal yetişmiş yastı epitel hüceyrələrinin sitoplazmasındakı qlikogenlə reaksiyaya girir. Bunun əksinə, CİN hüceyrələrinin qlikogeni daha azdır və bu hüceyrələr, yoda boyanmaz, ümumiyyətlə, o, qabarıq sərhədlidir və çevrəsindəki normal epitelden mütləq ayırd edilən bir boyanmamış sahə yaradır. Bu boyanmamış

sahəyə, Schiller-pozitiv toxuma adı verilir. Serviks hissəsindəki bütün Schiller-pozitiv sahələrin neoplastik toxuma olmadıqlarını vurğulamaq mühümdür. Bunların əksəriyyəti, lokoparakeratoz, erroziya və ya ektropion kimi xoş xassəli zədələrdir [5].

CİN-ə, ümumiyyətlə, hissənin yastı epiteli ilə endoserviksin silindrik mukus (selik) epitelinin birləşmə bölgəsində rast gəlinir. Serviks xərçənginin ən erkən mərhələsinin, yastı epitel-silindrik epitel birləşmə sahəsində yerləşməsi, nəzəri baxımdan maraqlıdır və praktik baxımdan böyük əhəmiyyət daşıyır. Buna görə, serviks yastı epitel karsinoması (xərçəng, yaman epiteliom), ümumiyyətlə, bu birləşmə kök etibarilə yerindəki yastı epitelə bağlanır. Histoloji yastı epitel silindrik epitel birləşmə yeri, daima serviks kənar os'unda deyildir. Bəzi CİN-li xəstələrdə bu birləşmə sahəsinə endoserviks eversiyonu (çevrilmə) və ya os'a yaxın erroziya səbəbilə tez-tez bu hissədə rast gəlinir.



Şək.3. Şchiller Testi



Şək.4. Transformasiya zonası

PAP yaxması Servikal -vaginal (uşaqlıq boynu-uşaqlıq yolu) sitoloji bir eksfolyativ sitoloji metodudur. Eksfolyativ sitoloji tökülən normal hüceyrələr və xəstəlik səbəbilə dəyişmiş hüceyrələrin öyrənilməsinə bağlıdır.

Təbii, spontan tökülmə (aşınma); fizioloji olaraq tökülən hüceyrələr, patoloji dəyişiklər və təbii yaşlanmanın normal dəyişiklikləri ilə bərabər, orqanizə toxumalardakı bağlantılarından qopub ayrılmalarına bağlı dəyişmələri də əhatə edir. Arxa fornikste (fornix-beyin tağı, tağabənzər törəmə) göllənən serviko-vaginal hüceyrələrin puarlı xüsusi bir pipet köməyi ilə aspirasiya edilməsi, bu cür tökülən hüceyrələrin öyrənilməsinə imkan verir.

Artifisyel (heç bir müdaxile edilmədən) tökülmə; mukoza səthinin qazınaraq, canlı hüceyrələrin təbii tökülmə zamanından öncə travmatik olaraq tökülmələrinin olmasına əsaslanır. Bu qaşıma işi, servikal intraepitelial və ya invaziv neoplaziya şübhəsi olan hallarda dərin əsas hüceyrələri görmək lazım olduğundan güclü və dərin olmalıdır. Artifisyel tökülən hüceyrələr, ümumiyyətlə, topa halında görünürlər və spontan tökülən hüceyrələrə görə daha kiçik və daha az matürdürlər (yetkindirlər).

Papanikolaou və yoldaşlarının 1930-cu illərdəki araşdırmaları da hormonal hüceyrə dəyişmələri ilə bağlı idi. 1928-ci ildə yenə Papanikolaou və Rumıniyalı araşdırıcı Babes bir-birlərindən xəbərsiz olaraq vaginal yaxmadan servikal xərçəngə diqaqnoz qoymada yararlanıla biləcəyini göstərdilər. Bundan sonra ard-arda çap olunan mənbələrdə sitoloji yaxma metodu, genital (cinsiyyət orqanlarına məxsus) sistemə aid zədələrin öyrənilməsində geniş istifadə olundu və bundan sonra hormonal sitologiyada çoxları tərəfindən qəbul edilməyə başladı. Papanikolaounun servikovaginal sitologiyadan servikal xərçəng diaqnozunda yararlanıla biləcəyini göstərməsindən bu yana və xüsusilə son 40 il içində bütün ölkələrdə müayinə proqramları inkişaf etdirilmiş, bunun nəticəsində klinik olaraq invaziv servikal xərçəng xəstəliyində əhəmiyyətli dərəcədə azalmalar qeyd edilmişdir. Bir müayinə proqramında qeyd olunur ki, 1955- ci ildə riskli qadınların 1/3-i müayinə olunduğu halda, 1985-ci ildə 85 %-i bu prosesdən keçmişdir. Müvafiq bir müalicə ilə invaziv xərçəngə keçmənin qarşısı alına bilinər. Bu halda müayinə proqramları serviks xərçəngi dərəcəsinin və ölüm faizlərinin azalmasına səbəb olur [6].

Bir çox tədqiqatın nəticəsi göstərmişdir ki:

a) Mütəşəkkil bir müayinə proqramı ilə əhalinin daha çox qisminin geniş şəkildə yararlanmasını reallaşdırmaq və

b) Bu qpupda müayinənin periodik olaraq, müəyyən fasilələrlə təkrarlanmasına imkan verməkdir. Ancaq hər hansı bir xəstəlik üçün ediləcək hər cür müayinənin ümumi mənada bəzi ön şərtləri vardır. Cochrane və Holland müayinələr üçün lazımlı kriteriyaları belə müəyyənləşdirmişlər:

1. Asanlıq: Testlər paramedikal və digər personal tərəfindən tətbiq olunacaq rahatlıqda olmalıdır.
2. Qəbul edilə bilinmə: Müayinə, ümumiyyətlə, könüllü olmağı və insanların böyük ölçüdə əməkdaşlığını tələb edir, bu səbəblə onlar tərəfindən qəbul edilə bilən olmalıdır.
3. Doğruluq: Testlər araşdırılan pasientlərin düzgün bir miqyasını müəyyənləşdirə bilməlidir.
4. Maliyyə: Müayinənin maliyyə tutumu xəstəliyin erkən diaqnozundan doğacaq yararlarla qarşılana bilən səviyyədə olmalıdır.
5. Dəqiqlik: Testlər təkrarlanan tətbiq etmələrdə müsbət nəticələr verməlidir.
6. Həssaslıq: Testlər xəstə əhalinin hamısını müəyyənləşdirəcək keyfiyyətdə olmalıdır.
7. Spesifiklik: Testlər bütün xəstəliyi olmayan insanları doğru olaraq müəyyənləşdirə biləcək keyfiyyətdə olmalıdır.

Kimlər müayinədən keçməlidir?

Serviks xərçəngi çox təsadüf edilən xərçənglərdən biri olduğuna və müayinə sayəsində xəstələnmə və ölüm faizlərini azaltmaq mümkün olduğu artıq bilindiyinə görə, kişilərdən başqa bütün əhali bu müayinədən keçməlidir alınmalıdır. Ancaq müəyyən bir maliyyə tutumu olan bu proseduradan bütün qadınları keçirmək və hamısını eyni tezliklə müayinə etmək, həqiqətən, gərəklidirmi?

Bütün ginekoloji xəstələrdən alınan yaxmaların araşdırıldığı sitoloji laboratoriyada "klinik olaraq xərçəng şübhəsi olmadığı halda" sitoloji ilə xərçəng təyin olunan halların faizi 0,8-1 arasında dəyişməkdədir. O zaman ağıla bu suallar gəlməkdədir:

-Müayinəyə neçə yaşında başlanmalıdır?

-Müayinə hansı tezlikdə aparılmalıdır?

-Hər qadında yanaşma eyni olmalıdırmı?

Zamanla serviks xərçəngi ilə bağlı müşahidələr toplandıqca və bu xəstəliyin bəzi etioloji əlaqələrə bağlı olduğu anlaşıldıqca, kimlərin serviks xərçənginə tutulmağa daha çox namizəd olduğunu söyləmək mümkün oldu. Nəticə olaraq indi və ya keçmişdə cinsi aktivliyi olan və ya 18 yaşına girən bütün qadınlar, illik Pap test və pelvik (çanaq) müayinədən keçməlidirlər(7). Bir qadında üç və ya daha çox sayda bir-birini izləyən normal illik müayinə simptomu müəyyən edilmişsə, Pap testi daha seyrək olaraq və həkimin yönləndirdiyi istiqamətdə təkrarlana bilər. American Canser Society (Amerika Xərçəng Cəmiyyəti), aşağı və yüksək riskli qruplarda müayinə tezliyini fərqli şəkildə bildirməkdə, yüksək riskli qrupda ilk yaxma neqativ belə olsa, ildə bir dəfə müayinənin olmasını müvafiq saymaqdadır.

Cədvəl 1

Papanikolaou yaxmaları ilə müayinə tezliyi

İlk müayinə	18 yaşında və ya cinsi fəaliyyətin başında
Yüksək risk qrupunda (*)	
ilk yaxma (-) isə	ildə bir dəfə
Aşağı risk qrupunda (**)	3(-) illik yaxmadan sonra:
İlk yaxma (-) isə	3 ildə bir dəfə
DES uşaqları	14 yaşında aybaşı və cinsi aktın başlanğıcından 6-12 ayda bir dəfə.
CİN və ya invaziv xərçəng	İlk 2 il:3 ayda bir dəfə
Müalicəsinin ardınca	3 il:6 ayda bir dəfə
	sonra: ildə bir dəfə

2001 Bethesda Sistemi Terminologiyası. Uşaqlıq boynu və uşaqlıq yolu patoloji dəyişikləri bildirmək üçün Bethesda Sistemi (BS) 1988-ci ildə yaradılmış, 1991-ci ildə standart terminologiya və diaqnoz tibbi arayışlar əldə etmək üçün təkrar gözdən keçirilmişdir. Bununla yanaşı, dəyərləndirmə üçün kifayət bir nümunənin bildirilməsinə standart bir yanaşma yaranmışdır. 2001 BS komitənin ədəbiyyatı gözdən keçirməsi, mütəxəssis görüşlərinin tələbi və təklif edilən dəyişikliklərin interaktiv bir web saytında mübahisə edilməsi kimi bir çox proseduralardan sonra yaradılmışdır (isbat tipi C). 2001-ci ilin mayında mənimsənən 2001-ci il BS terminologiyası, kifayətlilik ifadələrindəki dəyişiklikləri, ümumi təsnifatı, epitelial hüceyrə anomaliyalarının açıqlama və nəticələrini əhatə edir

(cədvəl 1). Amerika Kolposkopiya və Servikal Patologiya Cəmiyyəti konfransında səs birliyi ilə servikal sitoloji anomaliyaların idarəsi üçün direktivlər yaradılmışdır (isbat tipi C) [8].

ANORMAL SERVIKAL SITOLOJI SIMPTOMLARIN MÜALICƏSI. 1994-cü ildə anormal servikal sitoloji yönləndirməsilə əlaqədar yayınlanmış, sonra HPV (Human Papilloma Virusu) testi və maye əsaslı sitoloji haqqında yeni məlumatların ortaya çıxması ilə yeni təkliflərin nəşr olunması ehtiyacı yaranmışdır. Amerikan kolkoskopiyaya və servikal patologiya cəmiyyəti (ASCCP), tərəfindən 2001-ci ildə anormal servikal sitoloji yönləndirməsilə əlaqədar bir ittifaq və Amerikan Academy of Family Physicians (Amerika Ailə Həkimi Akademiyası) və ASCCP tərəfindən dəstəklənmişdir. Yaranan direktiv Bethesda 2001 terminologiyasını və qadınları kolkoskopiya və ya sitoloji və ya HPV DNT testinə cəlb edən ASCUS və LSIL triage (yaralıların dərəcələrə ayrılması) çalışmasının məlumatlarını ehtiva etməkdədir. Anormal servikal sitoloji triajı və müalicəsinə istiqamətli olaraq minimal riskə sahib xəstələrin yüksək riskə sahib servikal xəstəlik riski daşıyanlardan ayrılaraq direktiv yaranmışdır. Müqayisə edilən çalışmalar təklifləri dəstəkləyir. Direktivlər gərəksiz klinik qiymətləndirmələri azaldaraq, təkrarlanan vizit sayını kolkoskopiya və HPV DNT testini istifadə edərək azaldır(9).

Göstəricilərlə proflaktik xidmətlər əməliyyat qrupu tərəfindən də istifadə edilən 2 hissəli qiymətləndirmə sisteminə bənzər şəkildə qiymətləndirilmişdir. Təkliflərin iştirak etdiyi alqoritmlər və terminologiyaya aid şərhlər ASCCP tərəfindən yaradılmışdır.

ƏDƏBİYYAT

1. Angel C., DuBeshter B., Lin J.Y. Clinical presentation and management of stage I cervical cervical adenocarsinoma: a 25 year experience // Gynecol Oncol., 1992, v.44, p.71-78
2. Costa M.J, Kenny M.B, Naib Z.M. Cervicovaginal cytology in uterine adenocarsinoma and adenosguamous carsinoma: comparison of cytologic and histologic findings //Acta Cytol., 1991, v.35, p.127-134
3. Currie M.M, Cason Z., Baliga M., Lemos L.B. The significance of atypical glanduler cells on Papanicolaou smears: an 8-year follow-up study // Acta Cytol., 1994, v.38, p.810
4. Kish MA. Guide to development of practice guidelines //Clin Infect Dis., 2001, v.32, p.851
5. Bishop J.W, Cheuvront D.A, Elston R.J. Utility of residual AutoCyte cervical cytology samples for image analysis // Acta Cytol., 1999, v.43, p.39-46
6. USPHS/IDSA guidelines for the prevention of opportunistic infections in persons infected with human immunodeficiency virus // Morbidity Mortality Weekly Report, 1999, v.48 (No.RR-10), p.1–26.
7. Robb J.A. The "ASCUS" swamp // Diagn Cytopathol., 1994, v.11, p.319–20.
8. Jones H.W. The Bethesda System // Cancer, 1995, v.76 (suppl), p.1914–18.
9. Kobelin M.H, Kobelin C.G, Burke L. et al Incidence and predictors of cervical dysplasia inpatients with minimally abnormal Papanicolaou smears // Obstet Gynecol., 1998, v.92, p.356–9.

SUMMARY

CERVICAL CANCER, PATHOLOGIC CERVICAL SMEAR (PAP SMEAR) AND PLACE OF BIOPSY

V.A. Bayramov, S. Tezjan

The goal of this study is evaluation of patients with pathological pap smear results(AC, ASCUS, HSIL, and LSIL) by colposcopy, making biopsy in need and compare the results with cytology. 86 patients admitted to Gynecology Clinic, Obstetrics and Gynecology Department, Ankara University were included who applied for routine examination and had abnormal pap smear results between 2005-2007. All patients were evaluated with colposcopy and all the parameters of the 4 subgroups were evaluated statistically. The parameters are evaluated in two groups; standart and variable. %46 of the patients were diagnosed as CIN, %2 were as early stage cervical cancer. Mean age of the patients was 35 years-old. In conclusion, this study showed that; variable compared parameters are quite important in cervical cancer etiology, and to increase the sensitivity and spesificity of the diagnosis the alternative methods should not be used one by one but in combination.

РЕЗЮМЕ

РАК ШЕЙКИ МАТКИ, ПАТОЛОГИЧЕСКИЙ МАЗОК ИЗ ШЕЙКИ МАТКИ (МАЗОК ПАПАНИКОЛАУ) И МЕСТО БИОПСИИ

В.А.Байрамов, C.Tezjan

Целью данного исследования является оценка пациентов с патологическими результатами мазка Папаниколау (AC, ASCUS, образования и LSIL) на кольпоскопию, биопсию, в силу чего и сравнить с результатами с цитологих исследований. 86 пациентов, поступивших в отделение акушерства и гинекологии Университета Анкары были включены, в йгруппу для рутинного обследования и были получены результаты мазка Папаниколау в 2005-2007 годах. Все пациенты были оценены с помощью кольпоскопии и все параметры 4 подгруппы были статистически оценены. 46% пациентов были диагностированы как CIN, ранние стадии рака шейки матки, как и 2%. Средний возраст пациентов составил 35 лет от роду. Расположение патологических результатов мазка и кольпоскопии данные из

литературы со злокачественными опухолями скрининга схожи. В заключение, данное исследование показало, что, переменными параметрами по сравнению достаточно важную роль в этиологии рака шейки матки, а также увеличить чувствительность и диагностики альтернативного spesificity методы один за другим, но сочетание не должно использоваться.

Daxil olub:04.02.2011

ELMI- TƏDQIQAT TRAVMATOLOGIYA VƏ ORTOPEDIYA INSTITUTUNUN MATERIALLARI ƏSASINDA XRONIK OSTEOMIELITLI XƏSTƏLƏRIN DISPANSER NƏZATƏRININ VƏZIFƏLƏRI VƏ NƏTICƏLƏRI

F.Quliyev, Q.Əliyev, Ç.A.Əli-zadə
Azərbaycan Respublikası Elmi- tədqiqat travmatologiya və ortopediya institutu, Bakı

Uşaqlarda hematogen osteomielit təkcə tibbi deyil, həm də sosial problem hesab olunur. Hematogen osteomielitin nəticəsi olaraq baş verən dayaq- hərəkət aparatı deformasiyaları ortopedik profilli xəstəliklər qrupunda böyük əksəriyyəti təşkil və çətinliklə müalicə olunur. Hematogen osteomielitin nəticələrinin təzahür formaları hər yaş qrupu üçün xarakterik olaraq uzun boruvari sümüklərin metafizindəki qan dövranının xüsusiyyətləri ilə özünü göstərir. Belə ki, 1 yaşına qədər olan uşaqlarda xəstəliyin nəticələri özünü uzun boruvari sümüklərin epafizinin və böyümə zonasınını dağılması kimi göstərir [1].

Kiçik və orta yaş dövründə olan uşaqlarda patoloji sınıqlar baş verir, yalanşı oynaqlar və uzun boruvari sümüklərdə qüsurlar formalaşır. Yeniyetmələrdə və böyüklərdə proses birləşmiş sümüklərin oynaq səthinə yayılır və artritin qabarıq mənzərəsi ilə müşayiət olunur. Xəstəlik nəticəsində birləşmiş sümüklərin sürtünməsi baş verir və çox zaman ankiloz baş verir [2].

1 yaşına qədər olan uşaqlarda hematogen osteomielitin xarakterik nəticəsi budun patoloji çıxıqları, metaepifizar lokalozasiyalı uzun sümüklərin deformasiyasından ibarət olur. Belə xəstələrə cərrahi korreksiya tələb olunmur. Zədələnmiş epafizin bərpasını 4-5 yaşlarında dürüst qiymətləndirmək olar. Ona görə də belə xəstələrin dispanser nəzarəti və ortopedik reabilitasiyası çox vacibdir [2].

Hematogen osteomielit keçirmiş uşaqlar təkcə xəstəliyin residivinin profilaktikası məqsədilə deyil, həm də ortopedik reabilitasiyanın aparılması üçün uzun müddətli dispanser nəzarəti altında olmalıdırlar. Ona görə də onların valideynləri xəstəliyin nəticələri haqqında əvvəlcə məlumatlandırılır və onlara dispanser nəzarətindən keçmək tövsiyə olunur [3].

Xronik osteomielitli uşaqlar xüsusi əhəmiyyət kəsb edirlər, çünki patoloji proses böyümə zonasında olan sümükləri əhatə edir. Bu səbəbdən istənilən dispanser nəzarətinin əsas fəaliyyət prinsipləri: xəstələrin aktiv erkən aşkar edilməsi, patronaj (xəstələrin aşkar olunması üçün sistemlə nəzarət), ictimai və fərdi profilaktikanın aparılması onlar üçün aktual hesab olunur [4].


TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Bizim nəzarətimiz altında 14 yaşına qədər olan 59 xəstə uşaq olmuşdur. Onlardan 35 (59,32%) xəstə- kişi, 24 (40,67%) qadın cinsindən olmuşdur.

Xəstələr osteomielitik prosesin etiologiyasına görə aşağıdakı şəkildə bölünmüşlər (Şək. 1).


Şəkildən göründüyü kimi 49 (83%) xəstədə hematogen osteomielit olmuşdur. Bütün xəstələrin anamnezində kəskin hematogen osteomielit qeydə alınmışdır. Bununla yanaşı xəstələrin əksər xəstələri çox gec- xəstəlik başlandıqdan 12-18 sutka sonra ixtisaslaşdırılmış tibbi yardım almışlar. Lakin məlumdur ki, xronik hematogen osteomielit daha çox vaxtında və effektiv müalicə aparılmadıqda xronik hematogen osteomielitə çevrilir (5). Xronik osteomielitn etioloji faktorlarının təhlilindən məlum olmuşdur ki, xronik posttravmatik osteomielitin (12% xəstə) sayı posttravmatik (5%) osteomielitdən 2 dəfə çoxdur.

Bu göstəriciləri onunla izah etmək olar ki, 14 yaşına qədər olan uşaqlar daha hərəkətli olur, ona görə də travmalara daha çox məruz qalırlar. Uyğun olaraq onlar daha çox əməliyyat olunurlar.

Bu xəstərlər sümüklərdə patoloji ocağın lokalizasiyasına görə aşağıdakı kimi bölünmüşlər (Şək.2).



Şək. 14 yaşa qədər olan xəstələr qrupunda xəstəliyin etiologiyasına görə bölünməsi



Şək. 14 yaşın qədər olan xəstələr qrupunda patoloji proseslər üzrə paylaşdırılma

Patoloji ocaq 23 (39%) xəstədə bud sümüyündə, 27 (45%) xəstədə qamışda yerləşmişdir. Beləliklə, 84% xəstədə patoloji ocaq aşağı ətraflarda yerləşmişdir. Bu göstəricilər bizim xronik osteomielitin etiologiyası ilə bağlı göstəricilərimiz ilə üst- üstə düşür. Yuxarıda göstərildiyi kimi bu qrupda 86% xəstədə hematogen osteomielit qeydə alınmışdır. Bizim göstəricilər bir daha bir çox müəlliflərin qeyd etdiyi kimi təsdiq edir ki, hematogen osteomielitin ən çox baş verdiyi nahiyə bud sümüyü və qamış sümüyüdür (1,3,5).

Xəstəliyin davametmə müddəti 48 (81,4%) xəstədə 1 ildən az olmuşdur. 4(6,8%) xəstədə 1-3 il, 3(5,1%) xəstədə 4-7 il, 4(6,8%) xəstədə isə 7 ildən çox olmuşdur. Xəstələrin əksəriyyətində xəstəliyin davametməı müddəti 1 ildən az olduğu üçün biz onlara xəstəliyin başlanğıcından nəzarət edə bilmişik.

3 (5,1%) xəstədə deformasiya və oynaqların kontrakturası qeydə alınmışdır. İlkin müraciət zamanı ətrafların qısalması qeydə alınmamışdır. Buna baxmayaraq nəzərə alsaq ki, hematogen osteomielit bir qayda olaraq sümüyün metafizar sahəsində yerləşir, məlum olur ki, bu uşaqlarda ortopedik patologiyanı erkən aşkar edıb, müalicəyə göndərmaək üçün onlara daimi dispanser nəzarəti lazımdır.

PROFILAKTIK MEDIKAMENTOZ MÜALICƏNIN PRINSIPLƏRI. Konservativ medikamentoz müalicə kompleksi ambulator- poliklinik şəbəkə sistemi və ev şəraitində aparılmaq üçün nəzərdə tutulmuşdur. Biz patoloji ocağın bəzi halqalarına təsir edilməsini nəzərə alaraq medikamentoz preparatların seçimini maksimal dərəcədə standartlaşdırdıq.

Ambulator- poliklinik şəbəkənin imkan və şəraitini nəzərə alaraq biz Azərbayan Elmi- tədqiqat travmatologiya və ortopediya institutunun irinli travmatologiya şöbəsində aparılan tədqiqat işləri əsasında xronik osteomielitin residivlərinin medikamentoz patogenetik müalicə və profilaktik kompleksini işləyib hazırladıq.

Bu konpelks işlənib hazırlanarkən biz patoloji ocağın, fikrimizcə, o halqlarına təsir etməyə çalışdıq ki, onlar xəstəliyin residivlərinin əmələ gəlməsində əsas rol oynayır.

Ambulator- poliklinik şəbəkədə istifadəsi mümkün olan müdikamentoz vasitələrdən biri antibiotiklərdir ki, onlar irinli- iltihabi ocağa təsir edirlər. Antiobiotkləri, əsasən də osteotrop antibiotiklərin istifadə edilməsi xəstəliyin residivinin başlanğıc mərhələsində müalicə zamanı, eləcə də sonuncunun profilaktik vasitəsi qismində həlledici məqamlardan biridir, çünki xronik osteomielit zamanı remissiya mərhələsində latent infeksiya mövcud olur.


Antibiotiklərin patoloji ocağa uğurla nüfuz etməsi üçün patoloji ocaq nahiyəsində qan mikrosirkulyasiyasını və qanın özünün reoloji funksiyalarını yaxşılaşdırmaq lazımdır. Bu tələbatlara yol verilən terapevtik dozada trental, fleksital kimi preparatlar cavab verir.

Aktovegin, inestoma kimi antihipoksantlardan da istifadə etmək olar. Xronik osteomielitli xəstələrin müalicə və profilaktika kompleksinə antioksidant preparatlar da daxil edilməlidir. Onlara A və E vitaminləri, tərkibində selen və sink olan polivitaminlər aid edilir.

Beləliklə, xronik osteomieltin residivlərinin profilakitikası və onların başlanğıc fazada müalicəsi məqsədilə yuxarıda adları çəkilən preparatlar medikamentoz müalicə kompleksinin əsasını təşkil etməlidir.

Tərəfimizdən xəstələrin müayinəsi və verilənlər bazasının tərtib edilməsi, arxivləşdirilməsi və təhlili üçün kompüter proqramı işlənib hazırlanmışdır.

Xronik osteomielitli xəstələrin müayinəsi və əldə olunan göstəricilərin arxivləşdirilməsi dispanser nəzarətinin əsas sənədi hesab olunur. O elə tərtib edilmişdir ki, orada həm xəstənin özünü, həm də patoloji ocağın vəziyyətini xarakterizə edən əsas parametrlərin əks olunur (Şək.3).



Şək.3. Xronik osteomielitli xəstələrin elektron qeydoyyat Kartı

Xronik osteomielitli xəstələrin uçot Kartı xəstənin parametrlərini fiksə etməyə, toplamağa və təhlil etməyə, onun əsas parametrlərinin dəyişməsi üzrə vəziyyətinin monitorinqini aparmağa imkan verir. Yuxarıda qeyd olunduğu kimi xəstənin bütün növbəti gəlişləri təkrar gəlişlər vərəqəsində fiksə olunur. Bu zaman kompüterdə xəstənin həm dəyişkən, həm də dəyişməyən parametrlər əks olunur. Təkrar müraciətlər kartını yalnız xəstənin əsas uçot kartı açıldıqdan sonra mümkündür. Ümumilikdə 402 təkrar gəliş Kartından ibarət olan verilənlər bazası toplanmışdır.

NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI. Bizim klinikaya daxil olmazdan əvvəl bu xəstələrə 16 cərrahi müdaxilə edilmişdir ki, orta hesabla 0,27±0,11- ə barəbardir.

Lakin məlum olduğu kimi bu qrupda 99 residiv və ya 1 nəfərə 1,7 residiv hadisəsi qeyd olunmuşdur. Tədqiqatlardan məlum olmuşdur ki, xronik osteomielitli 49 xəstədə 81 residiv və ya 1 nəfərə 1,7 residiv qeydə alımışdır.

Bu göstəricilərdən belə qənaətə gəlmək olar ki, bu xəstələr bizim klinikaya daxil olmazdan əvvəl adekvat müalicə almamışlar. Ona görə də 44 (74,6%) xəstə klinikamıza vəziyyətinin ağırlaşması ilə əlaqədar olaraq daxil olmuşdur.

Bunu 59 xəstəyə aparılan 55 cərrahi müdaxilə və ya 1 nəfərə 0,93±0,047 cərrahi müdaxilə faktı da təsdiqləyir. Onlardan hematogen osteomielitli xəstələrə 47 cərrahi müdaxilə və ya orta hesabla 1 nəfərə 0,96 cərrahi müdaxilə edilmişdir.

14 yaşa qədər olan xəstələr qrupunda aşağı cərrahi aktivlik- orta hesabla 1 xəstəyə 0,27 əməliyyat – bu xəstələr kilnikaya daxil olana qədər kifayət dərəcədə ixtisaslaşdırılmış tibbi yardımın göstərilmədiyi faktı təsdiqləyir. Xəstəlik başlandıqdan sonra çox qısa müddət ərzində xronik osteomielitli 1 xəstəyə 1,7 residivin düşməsi (xəstələrin əksriyytənidə xəstəliyin davametmə müddəti 1 ilə qədər olmuşdur) onu göstərir ki, bu kateqoriyadan olan xəstələrə ambulator- poliklinik şəbəkədə lazımi nəzarət aparılmamışdır.

Bizim klinikada yüksək cərrahi aktivliyin- 1 xəstəyə 0,93 əməliyyat- olması və vəziyyətinin ağırlaşması nəticəsində daxil olan çoxlu sayd xəstələr bir daha yuxarıda qeyd olunanları təsdiq edir.

Beləliklə, o fektı demək olar ki, ambulator- polikllinik şəbəkədə xronik osteomiellitli xəstələrə dispanser nəzarəti mexanizmi tamamilə möcud deyildir. Biz artıq bu kateqoriyadan olan xəstələrin ortopedik nəzarətindən danışmırıq.

Yüksək ixtisaslaşdırılmış adekvat müalicə aparıldıqdan sonra bizim klinikada bütün xəstələr və onların valideynləri səhhətlərinə özününəzarət qaydaları üzrə maarifləndirilmişlər.

Onlar mərhələli müayinə və müalicə üçün nə zaman klinikaya daxil olmaları barədə məlumatlandırılmışlar.

14 yaşa qədər ümumilikdə 59 xəstə bizə 402 dəfə müraciət etmişdır ki, bu orta hesabla 6,8- ə bərabərdir. Bununla yanaşı onlar cərrahi müalicədən sonra 1 il ərzində 3 dəfə- evə buraxıldıqdan sonra 1,5-2 ay, 6 ay və 1 il sonra müraciət etmişlər. Daha sonra biz onlara dinamik ortopedik nəzarətin aparılması üçün 20 yaşa qədər hər il müraciət etmələrini tövsiyə etmişik

Məmmədov Nəsir Nurəddin oğlu, 2001- ci təvəllüdlü, xəstəlik tarixçəsi N 792. 14.06.08- daxil olub, 01.07.08- buraxılıb.

Diaqnoz- bud sümüyünün yarımçıxıqı ilə sol bud- çanaq oynağının osteoartriti. Valideynlərinin sözünə görə klinikaya daxil olmazdan 1 ay əvvəl ürək əməliyyatı keçirmişdir. Bir neçə gündən sonra hərarəti artmış və bud- çanaq oynağı nahiyəsində ağrılar baş qaldırmışdır. Konservativ müalicə almışdır. Çıxığın əl ilə yerin qoyulması, skelet dartılması. Konservativ müalicə kursu almışdır. Ağrılar keçmiş temperatur normallaşmışdır. Koksit gips sarğıda evə buraxılmışdır, sonra patoloji ocağın yeri nəzərə alınaraq xəstə hər 1,5-2 aydan bir nəzarətdən keçmişdir. 6 aydan sonra digər müalicə üçün ortopedə göndərilmişdir.


Bizim göstəricilərdən məlum olduğu kimi xronik osteomielitli xəstələrin dispanser nəzarəti nəticəsində 14 yaşa qədər olan xəstələrdə nəzarət ərzində residivlərin sayını 8,47 (5 xəstə) azaltmaq mümkün olmuşdur, başqa sözlə 1 xəstəyə 0,08 residiv qeydə alınmışdır. Bu isə o deməkdir ki, residivlərin sayını 20 dəfə aşağı salmaq mümkün olmuşdur.

Biz 5 xəstədə residivlərin səbəblərini təhlil etdik. Məlum olmuşdur ki, 4 (80%) kişi, 1 nəfər qadın olmuşdur. Bütün xəstələrdə xəstəliyin müddəti 1 ilə qədər olmuşdur. 3 (60%) xəstədə hematogen osteomielit, 2(40%)- xronik posttravmatik osteomielit olmuşdur. 80% xəstədə patoloji proses bud sümüyündə yerləşmişdir. Bizim klinikaya daxil olana qədər onlarda ümumi 8 residiv, orta hesabla 1,6±0.19 residiv olmuşdur. Bizim müalicədən sonra onlarda residivlərin sayı 5, yəni 1 nəfərə 1 residiv olmuşdur. Bu xəstələrə tərəfimizdən 6 cərrahi əməliyyat edilmişdir. Lakin klinikamıza daxil olana qədər 2 xəstəyə əməliyyat edilmişdir.

Bizim tədqiqatlardan məlum olmuşdur ki, ilkin müraciətdən və stasionarda müalicədən 1- 3 ay sonra 4 xəstədə residiv baş vermişdir. 1 xəstədə residiv ilkin müraciətdən sonra 4- cü ayda baş vermişdir.

Beləliklə, bu fakt stasionarda müalicədən sonra 6 ay ərzində dispanser nəzarətinin və profilaktik müalicənin zəruriliyini təsdiqləyir.

Yuxarıda qeyd olunanlardan məlum olur ki, uşaqlara dispanser nəzarətinin vəzifələri aşağıdakılardan ibarətdir:



Şək. Xəstə M.A- ın klinik nümunəsi: A- müalicə aparıldıqdan əvvəl və sonra, B- I ambulator müalicədən sonra, C-2-ci müayinə, gips çıxarılıb, Ç-3- cü müayinə yüksüz gəzir, E- ayağına təzyiq edərək ortopedik ayaqqabıda gəzir, axsamaqdan şikayət edir.

1. Valideynlərə xronik osteomielitin bütün mümkün ağırlaşmalarını izah etmək və onlara bu xəbərdən aldıqları birinci stress dəf etməyə kömək etmək.

2. Xəstə və onların valideynlərinin məişətdə davranış qaydaları və dispanser nəzarəti prisipləri üzrə maarifləndirmək.

3. Ambulator şəraitdə residivlərin profilakiriksı üçün profilakitik müalicənin təyin etmək və xəstələrin ortopedik statusuna nəzarət etmək

4. Ortopedik korreksiyası tələb olunan deformasıyaları vaxtında aşkar etmək

Nəticələr: 1. Bizim göstəricilərdən məlum olduğu kimi xronik osteomielitli uşaqlara ambulator-poliklinik şəbəkədə osteomielitik prosesə dinamik nəzarət və profilaktika praktik olaraq tamamilə mövcud deyildir. 2. Bizim göstəricilərdən məlum olduğu kimi klinikamıza daxil olmazdan əvvəl 55 xəstədə 99 residiv və ya orta hesabla 1 xəstəyə 1,6±0.19 residiv baş vermişdir. 3.Bizim klinikada müalicədən və dispanser nəzarətindən və profilaktikadan sonra residivlərin sayı 20 dəfə azalmışdır,

yalnız 5 (8,47%) xəstədə 5 residiv və ya orta hesabla 1 xəstəyə 0,084 residiv baş vermişdir. 4. Bütün residivlər müalicədən sonra ilk 6 ayda beş vermişdir, yəni xəstələrin dispanserləşməsi zamanı profilaktika birinci 2 gəlişdə təyin olunmalıdır.

ƏDƏBIYYAT

1. Акжигитов Г.Н., Юдин Я.Б. Гематогенный остеомиелит. М.: Медицина,1998-288 с.
2. Шапошников Ю.Г.Травматология и ортопедии / Ру-во для врачей. М.: Медицина,1997, Т3, с.624,
3. Али- заде Ч.А. Комплексная ортопедо- хирургическая реабилитация, профилактик рецидивов и осложнений гематогенного остеомиелита: Дис…докт.мед.наук. М., 2003, 269 с.
4. Артюнина Г.П. Основы социальной медицины. М.: Академический проект, 2005, 572 с.
5. Гринев М.В.Остеомиелит. М.,1977, с.151

РЕЗЮМЕ

ЗАДАЧИ И РЕЗУЛЬТАТЫ ДИСПАНСЕРНОГО НАБЛЮДЕНИЯ ЗА ДЕТЬМИ С ХРОНИЧЕСКИМ ОСТЕОМИЕЛИТОМ ПО МАТЕРИАЛАМ НИИТО.

Ф.Г. Гулиев, Г. Алиев, Ч.А.Али-Заде

Проведено диспансерное наблюдения за 59 больными детьми с хроническим остеомиелитом с 2005 по 2007 гг. Всего проанализированы 402 обращения больных при их диспансеризации. Разработана специальная карта амбулаторного наблюдения и создана копьютерная программа для накопления и анализа базы данных на всех больных. Разработан комплекс медикаментозного амбулаторного лечения. В результате диспансеризации удалось снизить количество рецидивов заболевания с 99 (до обращения) до 5.

SUMMARY

OBJECTIVE AND RESULTS OF DISPANSARY OBSERVATION OF CHILDREN WITH CHRONIC OSTEOMYELITIS BASED ON MATERIALS OF SRITO

F.G. Guliyev, G. Aliyev, Ch.A.Ali-zadeh

It was conducted of medical observation 59 sick children with chronic osteomyelitis from 2005 to 2007. It was analyzed total 402 patients during their dispanserization. It was elaborated special card of ambulatory observation and it was created the computer program for gathering and analyze data base of all patients. It was elaborated complex medicament ambulatory treatment. As a result dispanserization it was reduced the sum of relapses of diseas from (before treatmnet) to 5.

Daxil olub:07.02.2011

ОПРЕДЕЛЕНИЕ ОБЪЕМА РАСХОДА КОСТНО-ЗАМЕЩАЮЩЕГО МАТЕРИАЛА ПРИ ТУННЕЛЬНОЙ ОСТЕОПЛАСТИКЕ НА ВЕРХНЕЙ ЧЕЛЮСТИ

Э.Р. Ибрагим

Московский государственный медико-стоматологический университет, г.Москва

Дентальная имплантация часто требует пластического наращивания кости челюстей как по ширине, так и по высоте [3,6,7]. Средняя убыль высоты альвеолярного отростка верхней челюсти к 6 месяцу после удаления зубов составляет в среднем 4.4 мм [6]. После потери зубов также быстрее уменьшается вестибулярная стенка альвеолярного отростка [4]. Уменьшение ширины и высоты альвеолярного отростка является основным препятствием к проведению дентальной имплантации.

Проблема восстановления костной ткани альвеолярного отростка челюстей, с целью создания опорных тканей для зубных имплантатов, несмотря на многочисленные работы, остается далеко не решенной до настоящего времени.

Существуют разные хирургические способы для возмещения утраченной костной ткани альвеолярного отростка челюстей [1,2,3,5]. Среди остеопластических операций альвеолярного отростка туннельное введение биоматериала является самым малотравматичным вмешательством [7]. Актуальной задачей для выполнения туннельной остеопластики является определение объема расхода костно-замещающего материала. Наращивание челюстей определенным заранее количеством костно-замещающего материала обеспечивает достижение оптимального размера и внешних контуров альвеолярного гребня. В связи с этим представляется целесообразным найти способ определения объема расхода костно-замещающего материала до оперативного вмешательства.

ЦЕЛЬЮ данной работы является повышение эффективности дентальной имплантации у пациентов с дефектами альвеолярного отростка верхней челюсти при помощи туннельной его реконструкции.

МАТЕРИАЛЫ И МЕТОДЫ ИССЛЕДОВАНИЯ. В поликлинике Центра стоматологии и челюстно-лицевой хирургии МГМСУ нами проведено лечение 18 больных с дефектом альвеолярного отростка в возрасте 23-65 лет, из них 8 женщин и 10 мужчин. Всем больным проводился визуальный и математический замер высоты и ширины альвеолярного отростка верхней челюсти, в том числе беззубого участка фронтального его отдела. Математический размер дефекта определяли в трех измерениях (3D) с помощью дентальной объемной томографии (ДОТ), или мультиспиральной компьютерной томографии (МСКТ) по программе «Dental Planning». По слепкам челюстей у больных изготавливали модель дефекта, по которой получали окончательные его размеры и планировали расход костно-замещающего материала.

Операцию проводили с премедикацией, под местной анестезией. После анестезии выполняли Y-образную френулопластику уздечки верхней губы, в результате чего образовывалась ромбовидной формы рана. Затем через центральный вертикальный разрез надкостницы создавали поднадкостничный туннель, в котором проводили декортикацию альвеолярного отростка с вестибулярной стороны с помощью аппарата «Piezosurgery». После декортикации вводили синтетический биоматериал в поднадкостничный туннель.

В конце операции надкостница и ромбовидная форма рана ушивалась наглухо в вертикальном направлении.



Рис.1. Вид дефекта альвеолярного гребня во фронтальном отделе верхней челюсти



Рис.2. гипсовая модель зоны дефекта альвеолярного гребня

Перед операцией определили объема расхода костно-замещающего материала. Для определения количества костно-замещающего материала до хирургического вмешательства сначала нами было предложено изготовление хирургической каппы на гипсовой модели с восстановленным альвеолярным гребнем (рис.2,3). При восстановлении альвеолярного гребня учитывали «красной» эстетики и положение антогонистных зубов.




Рис.3. Хирургическая каппа, полученная на восстановленной гипсовой модели



Рис.4. Получение маскы альвеолярного гребня из слепочного материала

После вложения слепочного материала в изготовленную хирургическую каппу, последняя одевается на гипсовую модель дефекта. Через нескольких минут снимается каппа и получается восстановленная часть альвеолярного гребня из слепочного материала (Рис.4).

Затем в шприц с водой опускается восстановленная часть альвеолярного гребня, сформированного из слепочного материала. По количеству вытесненной воды определяется объем костно-замещающего материала (Рис.5). В данном примере этот объем был равен к 0,8 мл. Таким образом, нам было ясно количество шприцов биоматериала для планированной операции(Рис.6). Во время операции после введения двух шприца(0,8мл) в поднадкостничный туннель костно-замещающего материала «easy graft- 400» альвеолярный гребень формировался с помощью ранее изготовленной хирургической каппы (Рис.7), в результате чего после операции получили оптимальный размер альвеолярного гребня (Рис.8).




Рис.5. Определение объема маски альвеолярного гребня в емкости (объем маски = 0,8 мл)




Рис.6. Необходимое количества шприцов для туннельной остеопластики(2 шприца по 0,4мл «easy graft-400»)




Рис.7. Введение костно-замещающего материала «easy graft- 400» в поднадкостничный туннель




Рис.8. состояние зоны вмешательства после операции

Приводим клинический пример. Пациент К., 23 года. Диагноз: Частичная вторичная адентия (4 класс по классификации Кенеди) и комбинированный дефект альвеолярного гребня (класс по классификации Siebert) средней степени тяжести (по классификацию Studer) во фронтальном отделе верхней челюсти (Рис.1). Запланирована операция- туннельная реконструкция фронтального отдела альвеолярного отростка верхней челюсти с последующим проведением дентальной имплантации.

Ранее описанные этапы определения расхода костно-замещающего материала и операции представлены на рис. 2-8.

РЕЗУЛЬТАТЫ И ОБСУЖДЕНИЕ. У всех пациентов с дефектом альвеолярного гребня во фронтальном отделе верхней челюсти туннельная остеопластика проводилась через ромбовидной раны, образующийся после горизонтального разреза губной уздечки. Такой

разрез также устраняет укороченную уздечку, которая часто образуется при атрофии альвеолярного гребня. При туннельной остеопластике нами использован 100 % синтетический костно-замещающий материал на основе трикальцийфосфата- «easy graft-400». . Материал: вводиться в дефект костной ткани прямо из шприца, легко моделируется, склеенные между собой гранулы стабильны в дефекте, не требуется закрытие мембраной. «Easy graft- 400» быстро твердеет в течение нескольких минут при контакте с кровью, в результате чего сохраняет свою форму после снятия хирургической каппы с альвеолярного гребня.

Ремоделирование материала занимало время до 8 месяцев, что нами контролировалось клинико-рентгенологически и позволило провести установление дентальных имплантатов.

Наращивание альвеолярного гребня определенным заранее количеством костно-замещающего материала с помощью разработанного способа его формирования обеспечило достижение оптимального размера и внешних контуров альвеолярного гребня. Предлагаемая разработка имеет два положительных аспекта: медицинский и экономический. Первый заключается в несомненном улучшении эстетических результатов лечения, второй заключается в заблаговременном определении стоимости костно-замещающего материала и общей стоимости операции. В результате чего улучшились эстетические результаты лечения.

ЛИТЕРАТУРА

1. Кулаков А.А., Лосев Ф.Ф., Гветадзе Р.Ш. Зубная имплантация. М.:ГЭОТАР-МЕД,2006, 152с.

2.Мушеев И.У., Олесова В.Ю., Фрамович О.З. Практическая дентальная имплантология. М.: ПАРАДИЗ, 2000, 266с.

3. Параскевич В.А. Дентальная имплантология: основы теории и практики. Мн:Юнипресс,2002, 368с.

4.Робустова Т.Г. Дополнительные операции при зубной имплантации // Проблемы стоматологии и нейростоматологии(тематич.выпуск-имплантология), 1999, №2, с.23-27

5. Франк Ренуар, Бо Рангерт. Факторы риска в стоматологической имплантологии / Пер. с фран. Под ред. С. Иванов и М. Ломакин. М.:АЗБУКА, 2004, 182с.

6.Шашмурина В.Р. Непосредственное протезирование зубных рядов с предварительной коллагенопластикой альвеолярного отростка: Автореф… дис. …канд.мед.наук. Смоленск, 1997, 176с.

7.Kent J., Quinn J., Zide M. etal. Correction of alveolar ridge deficiencies with nonresorbable hydroxylapatite // The Journal of the American Dental Association, 1982, v.105, №6, p.993-1002

XÜLASƏ

ƏNGIN ÇƏNƏDƏ TUNNEL OSTEOPLASTIKASI ZAMANI ISTIFADƏ OLUNAN ILIK ƏVƏZEDICI MATERIALIN HƏCMININ TƏYIN OLUNMASI

E.R.İbrahim

Əngin tunnel osteoplastikasında sərf ediləcək sümükəvəzedici materialın həcminin müəyyən edilməsi

Əngin tunnel osteoplastikasında istifadə ediləcək sümükəvəzedici materialın proqnozlaşdırılması metodu təklif edilmişdir. Dental implantasiyada optimal ölçüdə sümüyün əldə edilməsi üçün lazımi miqdarda sümükəvəzedici materialın müəyyən edilməsinin laborator mərhələləri göstərilmişdir. Bu cür yanaşmada alveol çıxıntı "qırmızı estetika" və antoqonist dişlərin vəziyyətini nəzərə alaraq formalaşdırılır.

SUMMARY

DETERMINATION OF THE VOLUME OF BIOMATERIALS BEFORE THE TUNNEL BONE RECONSTRUCTION ON THE UPPER JAW

E.R.İbarahim

Proposed method helps to determinate the volume of biomaterial before the tunnel bone reconstruction on the upper jaw. There was detailed the every laboratory stage of determination of biomaterials in this article for providing the optimal size of the jaw for dental implants.

Daxil olub:17.02.2011

ENTEROVİRUS İNFEKSİYASI OLAN HAMİLƏ QADINLARDA CİFTİN FUNKSİONAL VƏZİYYƏTİ

N.F.Heydərova

1 saylı qadın məsləhətxanası, Bakı

Hamilə qadınlarda enterovirus infeksiyası ilə xəstələnmənin artması və ya ağırlıq dərəcəsinin yüksəlməsi haqqında heç bir məlumat yoxdur. Poliomielit istisnalıq təşkil edir, belə ki, hamilə qadınlarda bu xəstəlikdən ifliclərin çox yüksək inkişaf riski və yüksək ölüm göstəricisi qeydə alınır [2,3]. Tamamilə aydındır ki, hamiləlik zamanı enterovirus infeksiyaları

ilə xəstələnmə (ümumilikdə bütün populyasiyada olduğu kimi), xüsusilə də xəstələnmənin epidemik alovlanmaları dövründə kifayət qədər yüksəkdir. Ciftin yoluxması və virusun dölə ötürülməsi virusemiya dövründə mümkündür. Döl ciftdən hematogen yolla və ya infeksiyalaşmış amnion sularını udduqda yoluxur [4]. Xoşbəxtlikdən dölün bətndaxili yoluxması nadir hallarda rast gəlir və hətta kəskin epidemiyalar dövründə dölün anadangəlmə inkişaf qüsurlarının artması qeyd olunmur. Lakin enterovirus infeksiyası keçirmiş qadınlarda hamiləliyin fəsadlaşması və dölün bətndaxili ölümü haqqında məlumatlar vardır. Bundan başqa, persistensiya edən enterovirus infeksiyası hamiləliyin adəti pozulmalarına, fetoplasentar çatmamazlığın inkişafına və dölün bətndaxili infeksiyalaşmasına təkan verir. Hamilələlik zamanı infeksiyanın qeyri-spesifik təzahürləri ilə yanaşı qızdırma və qarnın aşağısında kəskin ağrı ilə müşayiət olunan simptomokompleks rast gələ bilər ki, bu da bəzən ciftin vaxtındanqabaq ayrılması və ya kəskin appendist kimi qəbul olunur və operativ əməliyyət üçün göstəriş sayılır, əslində isə bu, kəskin virus mezadenitinin simptomudur [1,5,6].

«Ana-cift-döl» funksional sistemində meydana çıxan hemodinamiki pozğunluqlar hamiləliyin müxtəlif ağırlaşmaları zamanı dölün vəziyyətinin və inkişaf pozğunluqlarının aparıcı patogenetik mexanizmi sayılır. Bu zaman müşahidələrin əksər hissəsində hemodinamik pozğunluqlar dölün vəziyyətindən və etipatogenetik amildən asılı olmayaraq, dəyişikliklərin universallığı və eyni tipli olması ilə səciyyələnir.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Doppler effekti müşahidə olunan şüa mənbəyinin sürətindən asılı olaraq səs dalğasının tezliyinin dəyişilməsinə əsaslanmışdır. Bizim halda – qeyri-bərabər hərəkət edən mühitdən – damarlardakı qandan əks olunan ultrasəs siqnalının tezliyinin dəyişilməsidir. Əks olunan siqnalın tezliyinin dəyişilməsi qan cərəyanı sürətinin əyriləri şəklində (QSƏ) qeydə alınır.

QSƏ normal göstəricilərinin dəyişilməsi – dölün bir sıra patoloji vəziyyətlərinin qeyri-spesifik təzahürlərindəndir, bu zaman onlar bir çox hallarda klinik simptomlardan əvvəl meydana çıxırlar. Bu, həmçinin hamilələlik zamanı başlıca patoloji vəziyyətlərə də – dölün inkişafının ləngiməsi sindromu, dölün hipoksiyası, hestoz və s. aiddir. 18-19 həftədən 25-26 həftədəyədək müddətdə dopplerometriya –seçim metodu sayılır, belə ki, dölün biofiziki profili 26-cı həftədən məlumat verir, kardiotokoqrafiya isə bu zaman hələ müəyyən əhəmiyyət kəsb etmir. Qan cərəyanı sürətinin əyrilərini qiymətləndirmək üçün damar müqaviməti əmsalları təklif olunmuşdur:

1. Rezistentlik əmsalı
2. Nəbz indeksi
3. Sistolodiastolik nisbət

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ. Ana-cift qan dövranı cift-kotiledon morfofunksional vahidin mühüm komponentlərindən sayılır və ananın arterial qanının xovların cift baryerinə daima daşınmasını təmin edir. Müəyyən edilmişdir ki, 93,5% halda cift çatmamazlığı zamanı dəyişikliklər hər iki arteriyada baş vermişdir ki, bu da çox güman ki, spiral arteriyaların divarına trofoblastın natamam invaziyası ilə əlaqədardır. Bu zaman formalaşan cift damarlarında qismən saya əzələ strukturu, adrenergik innervasiya və deməli vazoaktiv stimullara qarşı reaksiya vermək qabiliyyəti saxlanmışdır. Bu mexanizm cift qan dövranı pozğunluqlarının əsasında durur. Ana-cift qan dövranını öyrəndikdə hestasiya müddəti artdıqca göbək ciyəsi arteriyasında, uşaqlıq arteriyasında rezistentlik göstəricilərinin və nəbz əmsalının dürüst azalması ($p<0,001$) müşahidə edilmişdir.

Apardığımız korrelyasiya təhlili hestasiya müddəti ilə dopplerometriyanın nəticələri: göbək ciyəsi arteriyasının ($r=-0,77$); sağ uşaqlıq arteriyasının ($r=-0,70$); sol uşaqlıq arteriyasının ($r=-0,76$) nəbz əmsalı arasında dürüst güclü mənfi əlaqənin olduğunu göstərdi. Ürək yığılmalarının orta gecəlik tezliyi göbək ciyəsi arteriyasının nəbz əmsalı ($r=-0,30$) və uşaqlıq arteriyasındakı qan dövranı ilə ($r=-0,37$) mülayim mənfi əlaqədədir. Ürək-damar sisteminin tənzimləmə mexanizmlərinin vəziyyəti sol uşaqlıq arteriyasının qan dövranı, onun nəbz əmsalı ilə mülayim mənfi əlaqədədir ($r=-0,42$). Cift-döl qan dövranının praktik olaraq bütün parametrləri ana orqanizminin hipoksiyasına qarşı davamlılıqla bağlı olmuşdur.

Beləliklə, cift-döl qan dövranının parametrləri və kardiorespirator sistemin vəziyyəti arasında qarşılıqlı əlaqə vardır. Dölün vəziyyəti, hamiləliyin aqibəti ananın kardiorespirator

sisteminin vəziyyətindən, oksigeni kifayət qədər udmasından və karbon qazını xaric etməsindən, həyati vacib orqanların fəaliyyətindən asılıdır. Hamilə qadınlarda kardiorespirator sistemin adaptasion yenidənqurulması vahid qarşılıqlı əlaqədə olan «ana-cift-döl» sisteminin formalaşmasına yönəlmişdir.

Uşaqlıq-cift qan dövranını öyrəndikdə hestasiya müddəti artdıqca göbək ciyəsi arteriyasında, uşaqlıq arteriyasında rezistentlik göstəricilərinin və nəbz əmsalının dürüst azalması müşahidə edilmişdir (p<0,001). «Ana-cift-döl» sisteminin fəaliyyətinin effektivliyi aşağı mamalıq riski olan hamilə qadınlarda doğuşun nəticəsi ilə təsdiq edilir. Kontrol qrupun qadınlarında ilk dəfə doğan və təkrar doğan qadınlarda doğuşlar eyni tezliklə ağırlaşmalarsız (81,1% və 80,9%) keçmişdir. 80,9% halda uşaqlar doğulduqda Apqar şkalası üzrə 8-10 bal, 19,7%-i isə 6-7 balla qiymətləndirilmişlər. Kontrol qrupdakı analardan doğulmuş uşaqların bədən çəkisi doğulduqda orta hesabla 3283,03±115,85 q, boyu- 51,02±0,62 sm olmuşdur. Erkən neonatal dövr 100% halda ağırlaşmalar olmadan keçmişdir (Cədvəl 1).

Cədvəl 1

Müayinə qruplarının qadınlarında dölün aortasında və göbək ciyəsində qan dövranının əsas göstəriciləri (M±m)

Öyrənilən göstərici	Hamiləliyin müddəti, həftə					
	16 -1 9		20-22		23-25	
	Kontrol qrupu (n=50)	EVİ (n=108)	Kontrol qrupu (n=50)	EVİ (n=108)	Kontrol qrupu(n=50)	EVİ (n=108)
Aorta:						
Qan dövranının orta xətti sürəti, sm/s	20,22 ±1,04	22,24 ± 1,08	23,21± 0,69	19,04± 0,81	26,67± 1,04	22,6± 1,00
SDN	6,41 ±0,35	6,89 ±0,37	5,70 ± 0,32	6,24 ± 0,35	5.05 ± 0,19	6,20± 0,16
Göbək ciyəsi arteriyası:						
SDN	4.56 ±0,11	4,21±0,10	3,86 ± 0,09	4,01 ± 0,08	3,51± 0,10	4,35± 0,12
RƏ	0,78 ±0,005	0,64±0,003	0,74 ± 0,005	0,58± 0,003	0,71± 0,008	0,61± 0,004

Beləliklə, tədqiqatlarımız göstərdi ki, kontrol qrupun hamilə qadınlarında orqanizmin adaptasiya mexanizmi inkişaf edən dölün tələbatlarına uyğunlaşaraq bütün hestasiya dövründə təsir edir. Ətraf mühitin cüzi dəyişiklikləri zamanı ana orqanizmi adaptasiyanın baş verməsinə mane olan müdafiə qüvvələrini mobilizə edir ki, bu da hamiləliyin əlverişli nəticələnməsini və sağlam uşağın doğulmasını təmin edir (Cədvəl 2).

Cədvəl 2

Enterovirus infeksiyası zamanı dölün daxili yuxu arteriyasının rezistentlik göstəriciləri (M±m)

Göstərici	Hamiləliyin müddəti, həftə					
	23-25	26-28	29-31	32-34	35-37	38-41
Kontrol qrupun RƏ	0,94 ± 0,01	0,89 ± 0,01	0,85 ± 0,01	0,80 ± 0,01	0,76 ± 0,09	0,71± 0.09
EVİ olan qrupun RƏ	0,96 ± 0,05	0,92± 0,04	0,91± 0,04	0,88 ± 0,04	0,86 ± 0,05	0,82± 0.05

Göbək ciyəsi arteriyası üçün yeganə periferik qan damarı ciftin döl səthinin mikrovaskulyar şəbəkəsidir. Biz enterovirus infeksiyası ilə şərtlənən cift çatmamazlığı zamanı hamiləliyin dinamikasında plasentar əmsalın ən aşağı rəqəmlərini müəyyən etmişik. Bundan başqa, 28-30 həftəlik hamilələlik zamanı ciftin yetişkənlik dərəcəsi ilə göbək ciyəsi arteriyasında SDN arasında düz korrelyasiya asılılığı izlənir.

Dopplerometriya zamanı təyin olunmuşdur ki, EVİ olan hamilə qadınların əksəriyyətində öyrənilən damarlarda hemodinamik dəyişikliklər nəzərə çarpır və bu, sitolo-diastolik nisbətin qiymətlərinin artması ilə xarakterizə olunur. Bu qrupda SDN orta hesabla göbək ciyəsi arteriyasında 2,67±0,11, uşaqlıq arteriyasında - 1,86±0,07 təşkil etmişdir. Tədqiqatlarda EVİ

olan hamilə qadınlarda uşaqlıq-cift qan dövranın (UCQ) və ya fetoplasentar qan dövranın (FPQ) (kritik göstəricilərsiz) məhdud azalması müvafiq olaraq 10 (16,7+4,8%) və 13 (22,2+5,4%) qadında aşkar edilmişdir. Bu yarımqrupda UCQ və FPQ-nin müştərək azalması 7 (11,1+4,0%) pasiyentdə, FPQ-nin kritik göstəriciləri 2 (2,8%) hamilə qadında müəyyən edilmişdir.

ƏDƏBİYYAT

1. Кицак В.Я. Вирусные инфекции беременных: патология плода и новороъденных. Кольцово: ЗАО «Вектор-Бест», 2004. С. 22–57.

2. Поклонская Н.В. Персистенция энтеровирусов как медико-биологическая проблема. // Роль антропогенных и природных патогенов в формировании инфекционных и неинфекционных болезней человека. Медико-экологические аспекты проблемы. Материалы меъдународной конференции. Мн., 2002, с. 120-129.

3. Спыну К.Н. Энтеровирусы в окруъающей среде и их эпидемиологическая значимость. Кишинев: Штиница, 1991, 284с.

4. Чешик С.Г. Энтеровирусные (неполиомиелитные) заболевания, вызванные вирусами Коксаки и ECHO / В кн.: Вирусные болезни человека. М., 2004, с. 178.

5. Bieling R., Gsell 0. Die Viruskrankheiten des Menschen. Leipzig, 2005, 242p.

6. Chambon M., Archimbaud C., Bailly J.L. et al. Circulation of enteroviruses and persistence of meningitis cases in the winter of 1999-2000 // J. Med. Virol., 2001, v.65, № 2, p. 340-347.

РЕЗЮМЕ

ФУНКЦИОНАЛЬНОЕ СОСТОЯНИЕ ПЛАЦЕНТЫ БЕРЕМЕННЫХ С ЭНТЕРОВИРУСНОЙ ИНФЕКЦИЕЙ

Гейдарова Н.Ф.

Гемодинамические нарушения в функциональной системе «мать-плацента-плод» являются ведущим патогенетическим механизмом нарушения состояния и развития плода при различных осложнениях беременности. При этом в подавляющем большинстве наблюдений гемодинамические нарушения характеризуются универсальностью и однотипностью изменений вне зависимости от состояния плода и этиопатогенетического фактора. Проведенный нами корреляционный анализ показал достоверную сильную отрицательную связь между сроком гестации и результатами допплерометрии, имеется взаимосвязь между параметрами плацентарно-плодового кровотока и состоянием кардиореспираторной системы. От состояния кардиореспираторной системы матери, достаточного поглощения кислорода и выведения углекислого газа, функционирования жизненно ваъных органов зависит состояние плода, исход беременности. Адаптационная перестройка кардиореспираторной системы у беременных направлена на формирование единой взаимосвязанной системы «мать-плацента-плод».

SUMMARY

FUNCTIONAL CONDITION OF THE PLACENTA OF PREGNANT WOMEN WITH ENTEROVIRUDS THE INFECTION

N.F.Heydarova

Haemodynamic infringements in functional system "mother-placenta- child" are the leading pathogenetic mechanism of infringement of a condition and fruit development at various complications of pregnancy. Thus in overwhelming majority of supervision haemodynamic infringements are characterised by universality and uniformity of changes without dependence from a condition of a - child and etyopatogenic the factor. The correlation analysis carried out by us has shown authentic strong negative communication between term gestation and results dopleomethriae, there is an interrelation between parametres of a platsentar- child- blood-groove and a condition cardiorespiratory systems. The fruit condition, a pregnancy outcome depends on a condition cardiorespiratory systems of mother, sufficient absorption of oxygen and deducing of carbonic gas, functioning of the vital bodies. Adaptable reorganisation cardiorespiratory systems at pregnant women is directed on formation of the uniform interconnected system "mother-placenta- child".

Daxil olub:17.02.2011

ВЛИЯНИЕ ЭНДОКОАГУЛЯЦИИ ЯИЧНИКОВ НА РЕПРОДУКТИВНУЮ ФУНКЦИЮ

Н.В. Алиева
М.Ц. «Альфа-Ритм», г.Баку

Известно, что вопросы диагностики, терапии и профилактики нарушения репродуктивной системы женщин составляют одну из важнейших проблем гинекологической практики. Вместе с тем отмечено, что женщины репродуктивного возраста с доброкачественными опухолями яичников и синдромом поликистозных яичников (СПКЯ) составляют значительное число больных, подвергающихся лечению в гинекологических стационарах. [4,3].

В настоящее время в современной оперативной гинекологии при указанной патологии отведено лапароскопическим методикам, в ходе которых с целью гемостаза осуществляется эндокоагуляция яичника. В то же время клинические исследования о влиянии эндокоагуляции на морфофункциональное состояние яичников изучены и освещены недостаточно. В экспериментальных исследованиях Бухариной И.Ю. с соавт. (2002) [2] показано, что эндокоагуляция яичников вызывает как развитие массивного спаечного процесса в брюшной полости. Так и пролиферации соединительной ткани в корковом и мозговом веществе, выраженным гемодинамическим нарушениям и усилению атретических процессов в послеоперационном периоде. В клинических исследованиях ряда авторов [5,6] также отмечено, что оперативная травма ведет к глубоким нейро-сосудистым расстройствам в яичниках и гибели части генеративных элементов. Это обстоятельство возможно связано с нарушением кровообращения и иннервации обусловленным как самой патологией являющейся показанием к операции, так и оперативным вмешательством.

Не всегда удовлетворительные результаты восстановления гормональной и репродуктивной функции гонад, при оперативном лечении доброкачественных опухолей яичников и СПКЯ, по видимому обусловлены тем, что современные методы лечения не преследуют цель повышения процессов репарации и регенерации оперированных яичников.

Вышеизложенное обусловливает актуальность и целесообразность дальнейшей разработки методов постоперационной реабилитации.

Из существующих методов постоперационной реабилитационной терапии заслуживают внимания транскраниальная электростимуляция (ТЭС-терапия) стволовых структур мозга, гирудотерапия и электрофорез с лидазой. Клинический опыт и экспериментальные исследования ряда авторов [1,5] свидетельствовали о высоких регенеративных и компенсаторных свойствах в сосудистой системе яичников, однако как при опухолях яичников, обусловленных нарушением функции гипоталамо-гипофизарной систем, так и при хирургических вмешательствах на яичниках, происходят изменения в сосудах гонад, что влечет за собой тяжелые нарушения структуры и функции яичников. В этой связи встает вопрос о необходимости нормализации кровообращения гонад и функции ГГЯС.

Транскраниальная электростимуляция стволовых структур мозга (МЭС-терапия) - это неинвазивная электростимуляция защитных механизмов головного мозга, одним из лечебных эффектов которой является регуляция ГГЯС, т.к. в период проведения процедуры происходит высвобождение b-эндорфина, который снижает тоническую секрецию Гн РГ, что в последующем (при отмене) приводят к повышению амплитуды выброса гонадолиберинов и наступлению овуляции.

Гирудотерапия или лечение медицинскими пиявками, известна с глубокой древности. Из многочисленных лечебных эффектов главным является антитромботический и тромболитический. Это обстоятельство позволяет полагать что гирудотерапияч улучшая микроциркуляцию и снижая локальную ишемизацию, усиливает регенеративные процессы.

ЦЕЛЬ работы: изучить последствия эндокоагуляции яичников и определить значимость реабилитационных мероприятий в нормализации гормональной и репродуктивной функции гонад.

МАТЕРИАЛЫ И МЕТОДЫ ИССЛЕДОВАНИЯ. За период 2005-2008г. на клинической базе кафедры (ГЦПСиР) было проведено комплексное обследование и хирургическое лечение

131 женщин в возрасте от 19-до 35 л. Страдали бесплодием 85 (64,9%) женщин, среди которых у 63 (48,1%) отмечено первичное и у 22 (16,8%)- вторичное бесплодие. У 87 (66,4%) была произведена односторонняя лапароскопическая резекция яичника по поводу доброкачественной цистаденомы (серозная, эндометриозная, зрелая кистозная тератома.

У 44 (33,6%)-двухсторонняя клиновидная резекция яичников по поводу синдрома СПКЯ, где при морфологическом исследовании отмечен склероз белочной оболочки и множество фолликулов в корковом слое. В ходе лапароскопической резекции яичника (яичников) использовалась эндокоагуляция. В раннем постоперационном периоде после наступления месячных (на 15-20 сут.) у 64 (48,8%), среди которых 26 пациенток были после двухсторонней резекции яичников по поводу СПКЯ, производилось восстановительное лечение (основная группа) с использованием гирудотерапии. В послеоперационном периоде восстановительному лечению предшествовало длительное исследование органов репродуктивной системы, включавшее эхографическое исследование органов малого таза и ЦДК яичниковых артерий, определение концентрации стероидных гормонов в плазме. Постановка пиявок осуществлялась эндовагинально (по 2-3 пиявок по процедуру) в условиях дневного стационара. На курс лечения требовалось 5-6 процедур. В течении 6-7 часов после гирудотерапии у пациенток отмечались кровянистые выделения от умеренных до объемных, которые прекращались самостоятельно.

Следующий (второй) этап восстановительного лечения проводился после наступления очередного менструального цикла и включал в себя транскраниальную электростимуляцию стволовых структур мозга на стационарном аппарате “трансаир-01” (ТЭС-терапия) фронтальные и бимастоидальные электроды, наложенные на кожные покровы черепа. При этом применялся режим комбинированного воздействия- сочетание монополярного импульсного тока с постоянным в соотношении 1: 2. Первоначально увеличивался постоянный ток до 1 мА, затем импульсный до 0,5 мА. При дальнейшем увеличении силы тока обращали внимание на субъективные ощущения пациенток, отмечавших покалывание или вибрацию под электродами.

Общее количество процедур составляло 10; продолжительность каждой 30 мин. ТЭС терапия проводилась в каждую фазу менструального цикла в соответствии с циклическими колебаниями b эндорфина. В фолликулиновую фазу ТЭС терапия проводилась с 5-го по 9 день цикла, в лютеиновую фазу с 20-го 24 день цикла.

У 67 (51,2%) восстановительное лечение в послеоперационном периоде не проводилась (группы сравнения). Среди этих пациенток 18 были после двухсторонней клиновидной резекции яичников.

РЕЗУЛЬТАТЫ И ИХ ОБСУЖДЕНИЕ. После проведения курса гирудотерапии для оценки влияния гирудотерапии на состояние кровотока в яичниковых артериях произведено было повторные ЦДК. Было отмечено, что гирудотерапия привела к улучшению кровотока, о чем свидетельствовало увеличение в 2 раза конечной диастолической скорости кровотока, а также снижение таких показателей как ПИ, ИР и СДО, что указывало на снижение сопротивления кровотоку.

В следующем менструальном цикле пациенткам проводилась транскраниальная электростимуляция.

При сравнении характера менструального цикла в основной группе отмечалось достоверное его улучшение по сравнению с дооперационным и стабилизация в течении всего периода наблюдения и они были лучше , чем в группе сравнения. Проведение ультразвукового мониторинга манипуляции и гормональное исследование функции яичников подтвердили овуляторный характер менструального цикла у 30 (90,1%) из 33 обследованных основной группы, среди которых 26 были после клиновидной резекции яичников. Беременность в основной группе наступила у 18 (69,2%) из 26 после клиновидной резекции яичников и у 21 (55,3%) из 38 после односторонней резекции яичника. В группе сравнения эти показатели были хуже. В частности, после клиновидной резекции яичников беременность наступила у 7 (38,9%) из 18 пациенток и у 18 (36,7%) из 49 после односторонней резекции яичника. Доносили беременность и родили 30(76,9%) пациенток основной группы. Самопроизвольное прерывание беременности в первом триместре произошло у 9 пациенток. В группе сравнения беременность доносили 14(56,0%). У 24 (54,5%) женщин, роды были спонтанные; кесарево сечение у 20

(45,5%).Спаечный процесс (отсутствовал в основной группе у 5 из 9 прооперированных (55,5%); слабо выраженный (в виде рыхлых плоских спаек в области операции) соответственно у 4 (44,5%). В группе сравнения таковые показатели были у 6 (54,5%) из 11 оперированных; выраженный спаечный процесс у 5 (45,5%).

Таким образом проведенный анализ влияния эндокоагуляции яичников на репродуктивную функцию свидетельствует о целесообразности (необходимости) проведения в раннем постоперационном периоде восстановительного лечения. Рекомендуемая в послеоперационном периоде гирудотерапия и транскраниальная электростимуляция позволяют повысить эффективность лапароскопических операций на яичниках, свидетельством чему является более чем в 1,5 раза повышение частоты наступления и сохранения беременности данной категории пациенток. Предлагаемый комплекс реабилитационных мероприятий позволяет предупредить развитие спаечного процесса или снизить его распространенность.

ЛИТЕРАТУРА

1. Боярский К.Ю. Старение репродуктивной системы и результативность вспомогательных репродуктивных технологий // Проблемы репродукции, 1996, №4, с.57-62.

2. Бухарина И. Ю., Логвинов С.В., Тихоновская О.В., Петров И.Л. Влияние эндокоагуляции на морфофункциональное состояние яичников в эксперименте / Материалы IV Российского форума "Мать и дитя". М., 2002

3. Колосов А. В. Опухоли яичников и прогноз для больных. Киров, 1996, 240с.

4. Кулаков В.И., Гаспаров А.С. Болезнь поликистозных яичников (БПКЯ); сравнительное изучение различных видов эндоскопических операций // Проблемы репродукции, 1995, № 2, с.31-33

5. Корсак В.С., Парусов В.Н., Кирсанов А.А. и др. Влияние резекции яичников на их функциональный резерв // Проблемы репродукции, 1996, №4, с. 63-67.

6. Nargund G., Cheng W.C., Parson J. The impact of ovarian respons to stimulation during JVF cycles // Hum. Reprod., 1996, v.11, №1, p.81-84

XÜLASƏ

yumurtaliqların endokoaqulyasiyasının reproduktiv funksiyaya təsiri

N. V. Əliyeva

Tədqiqatın məqsədi yumurtaliqların endokoaqulyasiyasının nəticələrini öyrənmək və hormonal və reproduktiv funksiyaların normallaşması üçün reabilitasiya tədbirlərinin əhəmiyyətini təyin etməkdən ibarətdir. klinik bazanın materialları əsasında 2005- 2008- ci illəər ərzində 19-35 yaş arasında 131 qqadının kompleks müayinəsi və cərrahi müalicəsi aparılmışdır. 85 (64,9%) qadında sonsuzluq olmuşdur. onlardan 63 (48,1%) birincili, 22 (16,8%) ikincili sonsuzluq qeydə alınmışdır. 87 (66,4%) nəfərə xoşxassəli sistadenoma üzrə yumurtalıqların laporoskapik rezeksiyası tətbiq edilmişdir. Əməmliyyatdansonrakı dövrdə tövsiyə olunan girudoterapia və transkranial elektrostimulyasiya yumurtalıqlarda laporoskopik əməliyyatın effektivliyini artırmağa imkan verir ki, bu da həmin kateqoriyadan olan xəstələrdə hamiləliyin baş verməsi və qorunması tezliyinin 1,5 dəfə artmasına səbəb olur.

SUMMARY

INFLUENCE OF THE ENDCOAGULATION ON THE REPRODUCTIVE FUNCTION

N.V.Aliyeva

The objective is to study consequences after ovary's endocoagulation and to determine significance of rehabilitative measurements in normalization of hormonal and reproductive functions of gonads. 131 women in the age of 19-35, were undergone laparoscopic surgical treatment with using of endocoagulation - 87 (66,4%) one sided ovary's resection, 44 (33,6%) two sided wedge-shaped ovary's resection. Two-stage postoperative rehabilitative treatment was applied - hirudotherapy and transcranial electro stimulation of brain stem structures. Significant improvement of blood flow in the ovarian arteries, ovarian cycle stabilization and normalization, more than 1.5 times increasing of pregnancy occurrence and maintenance were determined in the main group.

Daxil olub:28.01.2011

DALAĞIN EXINOKOKKOZ XƏSTƏLIYININ PERKUTAN VƏ LAPORASKOPIK MÜALICƏSI

E.Y Bababəyli., M.Dülgər., N.E Bababəyli

Naxçıvan MR xəstəxanas, Naxçıvan; Kocaeli Üniversiteti Tibb Fakültəsi, Ustanbul

Exinokokkoz ümumdünya səhiyyəsinin ciddi problemlərindən biri olan, epidemik, regional, parazitar tibbi-sosial xəstəlikdi. Hər bir cərrahi xəstəlik kimi dalağın exinokokkozunun da müalicəsinin effektivliyi exinokokkektomiyasının yaxın və uzaq nəticələrinin qiymətləndirilməsi

əsasında verilir. Exinokokkozun müalicəsində əldə olunan nailiyyətlərə baxmayaraq onun residivinə 3,2–12,5% rast gəlinir. Müxtəlif üzvlərdə qaraciyərdə 70-%, ağciyərdə 15-20, dalaqda 0.9-8% və başqa üzvlərdə 2% müşahidə olunur. Son illər cərrahlığın sürətli inkişafı bu aktual problemə yeni yanaşmalar gətirmişdir. Beləki, exinokokkozun konservativ müalicəsi və ənənəvi (açıq) üsullardan əlavə miniinvaziv, aztravmatik və laporaskapik üsullardan geniş istifadə olunur. Etibarlılığı artırmaq üçün punksiya USM və KT nəzarəti altında aparılır. Sonralar dalaqdan keçməklə punksiya etmək ideyası yarandı–dalagin toxuması elastik oldugundan mayenin qarın boşluğuna axmasından qoruyur. Sist möhtəviyyatını tam aspirasiya etmək və hətta boşluğu drenaj etmək imkanı ortaya çıxır [1,6,8, 12,14,18,21].

Tətbiqə göstərişlər: Dalağın exinokokkozunun dəyərləndirilməsində USM və KT kifayətdir.USM-in nəzarəti altında punsiyon-aspirasiyon drennləşmə metodikası mövcuddur. Müasir endovideocərrahi texnologiyaların geniş istifadəsi ənənəvi əməliyyatların tədricən aztravmatik müdaxilələr yolu ilə həyata keçirilməsinə səbəb olmuş və tendensiya dalağın exinokokkozunun cərrahi müalicəsi prosesindən yan keçməmişdir. Hazırda bu xəstəliyin aztravmatik üsullarla müalicəsi inkişaf etmiş ölkələrdə uğurla yerinə yetirilir [2, 5, 9, 16, 19].

MATERİAL və METODLAR: Tədqiqat işində Naxçıvan MR Xəstəxanasının Cərrahiyyə Mərkəzi və Kocaeli Universitetinin Tibb Fakültəsində 2006-2010 illərdə dalağın exinokokkozu diaqnozu ilə cərrahi əməliyyata məruz qalmış 16 xəstənin müalicəsinin nəticələri araşdırılmışdır. Xəstələrin böyük əksəriyyəti 12 (75%) xəstə yüksək əmək qabiliyyətli yaşda (21-60) olmuşdur ki buda problemin sosial əhəmiyyətini göstərir. Qadınlar 11 (68.7%), kişilər 5 (31.3%) təşkil etmişdir. Qadınlar kişilərə nisbətən 2.5 dəfə çox olmuşdur. Exinokokk sistləri təksaylı 10 (62.5%), çoxsaylı 2 (12.5%) və müştərək 4 (25%) müşahidə olunmuşdur. Sistlərin diametrinə görə ən kiçiyi d=2.8x3.8 sm, böyüyü d=5.8x6.5 sm həcmdə müşahidə olunmuşdur.

Cədvəl

Gharbi təsnifatına görə sistlərin morfoloji xüsusiyyətləri

I tip	Həyat qabiliyyəti yüksək olan
II tip	Həyat qabiliyyəti yüksək olan, lakin sist boşluğunda arakəsmələri olan və destruktiv dəyişikliyə qismən uğramış sistlər
III tip	Destruktiv dəyişikliyə tam uğramış sistlər
IV tip	Həyat qabiliyyətini itirmiş və ya irinləmiş sistlər
V tip	Kirəcləşmiş sistlər

KLINIKASI: Sol qabırğa altı nahiyyədə ağrıdan, bədənin müxtəlif nahiyyələrindəki övrə şəkilli səpkilərdən şikayət etmişlər. Fizik müayinədə 12 xəstədə splenomegaliya aşkar olundu. Bir xəstədə qaraciyər, ağciyər və dalaq , digər 3 xəstədə isə izolə dalaq tutulumu müəyyən edildi. İzolə dalaq tutulumu olan xəstələrdən birinin anamnezində 3 il öncə qaraciyərin exinokokkoz xəstəliyi ilə əlaqədar keçirdiyi cərrahi əməliyyat mövcuddur. Dalaqdakı sistin ortalama həcmi 8.4 (4-13) sm olaraq müəyyən edildi. Sistlər 14 xəstədə *splenik hilus* nahiyəsində, 2 xəstədə isə parenxim içində aşkar edildi. Bütün xəstələr splenoektomi ilə müalicə edilmiş və bir xəstəyə əməliyyat zamanı transfuzyon lazım olmuşdur. Əməliyyatların ortalama müddəti 140 (65-200) dəqiqə , xəstəxanada yatış müddəti isə 11.8 (10-13) gün olaraq müəyyən edilib.

Dalağın exinokokkoz xəstəliyində infeksion və dalağın spontan yırtılma riski ilə əlaqədar splenoektomidən parsial kistektomi və omentopeksiyaya qədər dəyişən cərrahi müalicələr təklif edilməkdədir. Ancaq son zamanlarda yüksək morbidite (21%) və mortalite (7%) , xəstəxanada qalma müddəti və residivlərlə (3.8%) əlaqədar cərrahi müalicə olaraq hər vəziyyətdə splenoektomiya seçilmir. Xüsusilə 4 yaş altı uşaqlarda parsial kistektomiya ve omentopeksiya kimi qoruyucu əməliyyatlar və laparoskopiya təklif edilməkdədir [3,7,11,15,18].

Exinokokkoz xəstəliyi bütün dünyada rast gəlinir və xəstəlik hallarının 95%-ində Exinokokkus granulozus aşkar edilməkdədir. Exinokokkoz xəstəliyi bütün orqanları tuta bilməklə yanaşı ən çox qaraciyər (70%) və ağciyəri (15-20%) tutur. Dalaq tutulumu 0.9-8 % hallarda rast gəlinməsinə baxmayaraq izolə dalaq tutulumu çox nadirdir (2,3%). Bu çalışmada dalaq tutulumu olan 16 xəstənin klinik və radioloji əlamətləri, müalicələri müasir ədəbiyyat məlumatları əsasında dəyərləndirilmişdir. Bütün xəstələrə residivin qarşısını almaq məqsədilə əməliyyat önü (7–10 gün) və ə/sonra (8–10 həftə) albendazol təyin edilmişdir [4,12,17,19].

MÜZAKIRƏ: Ümumiyyətlə exinokokkoz xəstəliyi asemptomatikdir və başqa səbəblərə görə aparılan müayinələrdə təsadüfən aşkar olunur. Qaraciyər exinokokkozunun qarın boşluğuna partlaması da dalaq exinokokkozu ilə nəticələnə bilir. Simptomlar qonşu orqanları sıxması və ya ağırlaşmalarla əlaqədar ortaya çıxır. Hematogen yolla inkişaf edən infeksiya ve ya dalaq yırtılmasında şiddətli ağrı ola bilər, amma abses əmələ gəlməsi nadirdir. Sist möhtəviyyatının qarın boşluğuna yayılmasına bilavasitə yırtılma (partlama) deyilir. İçi boş orqanlara və ya döş boşluğuna yırtılma çox nadirdir (6-9%). Sist adətən, ildə 2-3 sm böyüyür və diaqnoz qoyulmamışdan öncə 5-25 il asemptomatik qala bilir [1,2,3]. Sistin böyüyərək damarları sıxması nəticəsində sist ətrafı dalaq toxumasında atrofiya inkişaf edir. Müayinədə sərt, yuvarlaq və düzgün kənarlı törəmə və böyümüş dalaq aşkar olunur [2, 5, 9, 13, 16, 20, 21].

Rutin laborator testlər 20-30% xəstədə müəyyən olunun eozinofiliyadan başqa norma daxilindədir[10]. ELİSA testləri yüksək həssaslıq (95% və daha yüksək) və yetərsiz spesifikliklə istifadə oluna bilər [10,11].

Radioloji görüntü digər orqanların tutulumuna görə, müddətə görə və yanaşı gedən ağırlaşmalara görə dəyişiklik göstərə bilər. Qarın boşluğunun rentgenoqrammasında periferik kalsifikasiyası olan yumşaq toxuma, yeri dəyişmiş qonşu orqanlar, sol diafraqmada elevasyon ve plevral maye yığılması görülə bilər.

Ultrasəs diaqnostikada ən faydalı və çox geniş istifadə edilə biləcək müayinə metodudur. Adətən solitar, qismən də kalsifikasiyalı və anekoik sistlər aşkar edilən [12,13]. İkiqatlı divarı olan sistik bir törəmənin içindəki hidatik kum diaqnostik əlamətdir. Xəstələrin 16-30%-ində əlavə olaraq qaraciyər və ya periton tutulumu da görülür [4,14,15].

Tomografiyada sist tərkibindən asılı olarmaqla adətən suya yaxın dəyərlər göstərir.Sist divarının kalsifikasiyasını göstərmək, rentgenoqrafiyadan və USM-dən daha üstündür. Bundan başqa tomoqrafiya qarın boşluğundakı digər sistlərin həqiqi sayı və yerləşmə yeri haqqında dəqiq məlumat verir [12,16,17]. USM və KT bir-birini dəstəkləyəcək şəkildə istifadə olunan iki aryı müayinə metodudur.

Magnit rezonans (MR) isə kalsifikasyonları göstərmədə uğurlu müayinə metodu deyil, amma müalicəyə cavabı dəyərləndirmək üçün istifadə oluna bilər. Patolojik müayinədə daxildə germinativ membran (intima) və xaricdə lamina membran (kutikula) müəyyən edilir. Kutikula üzərində isə incə fibrotik və sıxılmış dalaq toxumasından təşkil olunan perisist (adventisia) vardır. Magnit rezonans (MR) isə kalsifikasyonları göstərmədə uğurlu müayinə metodu deyil, amma müalicəyə cavabı dəyərləndirmək üçün istifadə oluna bilər. Patolojik müayinədə daxildə germinativ membran (intima) və xaricdə lamina membran (kutikula) müəyyən edilir. Kutikula üzərində isə incə fibrotik və sıxılmış dalaq toxumasından təşkil olunan perisist (adventisia) vardır [1,4,9,13,19,21].

Differensial diaqnostikada dalağın ilkin qeyri–parazitar sistləri (epidermoid, dermoid, psevdosistlər, abses) və ikincili (posttravmatik) sistləri diqqətdə saxlanılmalıdır [18,20].

Dalağın exinokokkoz sistlərində infeksion və yırtılma riski ilə əlaqədar olaraq [2], splenektomiden parsial sistektomi və omentopeksiyaya qədər dəyişən cərrahi müalicələr təklif edilməkdədir [21]. Ancaq splenektomi yüksək morbiditə (21%), ölüm faizi (7%), 47 günə çatan xəstəxanada qalma müddəti və residivlərlə (3,8%) əlaqədar hər xəstədə məsləhət görülmür [1,4,14,]. Xüsusilə 4 yaş altı uşaqlarda kapsullu mikroorqanizmlərlə əmələ gələn infeksion sıxlığı yüksəkdir. Buna görə də parsial sistektomi və omentopeksiya kimi konservativ əməliyyatlar və laparoskopiya da məsləhət görülməkdədir [1,2,4,21]. Splenektomi ilə dalağın saxlandığı qrup arasında ortalama xəstəxanada qalma müddəti, əməliyyatdan sonrakı ağırlaşmalar və residiv nisbətləri baxımından fərq olmadığı bildirilmişdir [4]. Laparoskopik əməliyyatlarda ortalama əməliyyat müddəti 80 dəqiqə, açığa dönmə nisbəti 3% və ağırlaşma sıxlığı 11% olaraq bildirilmişdir [21]. Ancaq bu ağırlaşmaların müalicəsində konservativ yanaşma adətən uğurludur. Böyük ölçülü dalağın exinokokkoz sistlərində əl köməkli laparoskopik splenektomi də uğurla tətbiq oluna bilər. Perkutan müalicələr də xüsusilə Gharbi təsnifatina görə I tip və II tip sistər üçün 0-4% olduqca aşağı residivlər faizi ilə tətbiq edilə bilər. Perkutan müalicələrdə anafilaktik reaksiyalar açıq əməliyyatlarda olduğu kimi 0.1-0.2% civarındadır. Cərrahi müalicə və ya USM nəzarəti altında drenləşməsindən əvvəl profilaktik olaraq benzimidazol sinifindən geniş spektirli bir antihelmintik olan albendazol istifadə edilə bilər. Albendazol parazitin mikrotubul əmələ gətirməsinin qarşısını alar və hüceyrə proliferasiyasını metafaza mərhələsində saxlayar. Vücud çəkisi 60kq.-dan çox olan xəstələrdə gündə 2 dəfə 400mg , çəkisi 60kq.-dan az olan xəstələrdə 15mg/kg dozasında ikiyə bölünərək tətbiq edilir. Əməliyyat

öncəsi və sonrası 3 sikl halında 28 gün tətbiq edib 14 gün fasilə verilməsi şəklində olan müalicə ilə optimal parazit öldürmə faizi əldə olunacağı bildirilir. Albendozolun uzun müddət istifadəsi granulositopeniya, pansitopeniya və agranulositoza səbəb ola bilir. Bundan başqa xəstələrin 16% - ində keçici transaminaza yüksəliyi müşahidə olunur. Buna görə də 28 günlük müalicənin əvvəlində və ondan sonra hər iki həftədə bir qanın ümumi analizinə nəzər yetirmək lazımdır. Ancaq tibbi müalicənin nəticələri hələ də mübahisəlidir [11,14,17,21].

NƏTICƏ: Dalağın exinokokkoz xəstəliyində dalaq toxumasının qorunması xüsusilə uşaqlar üçün çox əhəmiyyətlidir və mümkün olan hər halda dalağın saxlanılmasına cəhd edilməlidir.

ƏDƏBİYYAT

1. Atmatzidis K, Papaziogas B etal. Spelenctomy versus spleen-preserving surgery for spelinic echinococcosis // Dig Surg., 2003, v.20(6), p.527–31
2. Bababəyli E.Y. USM- in nəzarəti altında exinokokk sistinin drenajlanması üsulları // Sağlamlıq, 2004, №3, s.18–19.
3. Dar MA, Shah OJ, Wani Na, et al. Surgical management of splenic hydatidosis // Surg Today, 2002, v.32(3), p.224–229.
4. Durgun V., Kapan S., Kapan M. et al. Primary splenic hydatidosis // Dig Surg., 2003, v.20(1), p.38–41.
5. Hansen M.B., Moller A.C. Splenic cysts // Surg Laparosc Endosc Percutan Tech., 2004, v.14(6), p.316–322.
6. Khoury G., Abiad F., Geagea T. et al. Laparascopic treatment of hydatid cysts of the liver and spleen // Surg Endosc, 2000, v.14(3), p.243–245.
7. Ormeci N., Soykan I., Palabiyikoglu M. et al. A new therapeutic approach for treatment of hydatid cysts of the spleen // Dig Dis Sci., 2002, v.47(9), p.2037–2044.
8. Pedrosa I. Saiz A. Arrazola J. et al. Hydatid disease: radiologic and pathologic features and compilaciations // Radiographic, 2000, v.20(3), p.795–817.
9. Zerem E. Nuhanovic A. Caluk J. Modified pair technique for treatment of hydatid cysts ib the spleen // Bosn J Basic Med Sci, 2005, v.5(3), p.74–78.
10.. Sahu S.K., Srivastava R., Bahl D.V. Primary Hydatid Cyst Of The Spleen: A Rare Site Of Presentation // The Internet Journal of Surgery, 2008
11. Gianoma D, Wildisenb A, Hotza T, et al. Open and laparoscopic treatment of nonparasitic splenic cysts. Dig Surg. 2003;20:74–78.
12. Macheras A, Misiakos EP, Liakakos T, et al. Non-parasitic splenic cysts: a report of three cases // World J Gastroenterol., 2005, v.11(43), p.6884–6887.
13. Thanos L, Mylona S, Ntai S, etal. Percutaneous treatment of true splenic cysts: report of two cases // Abdom Imaging, 2005, v.30, p.773–776.
14. Uccheddu A., Pisanu A., Cois A. et al. Laparoscopic management of non-parasitic splenic cysts // Chir Ital., 2003, v.55(1), p.55–60.
15. Yagi S., Isaji S., Iida T. et al. Laparoscopic splenectomy for a huge splenic cyst without preoperative drainage: report of a case // Surg Laparosc Endosc Percutan Tech., 2003, v.13, p.397–400.
16. Till H., Schaarschmidt K. Partial laparoscopic decapsulation of congenital splenic cysts // Surg Endosc., 2004, v.18, p.626–628
17. Mertens J., Penninckx F., DeWever I. et al. Long-term outcome after surgical treatment of nonparasitic splenic cysts // Surg Endosc., 2007, v.21, p.206–208.
18. Sierra R., Brunner W.C., Murphy J.T. et al. Laparoscopic marsupialization of a giant posttraumatic splenic cyst. // JSLS. 2004, v.8(4), p.384–388.
19. Palanivelu C., Rangarajan M., Madankumar M.V. et al. Laparoscopic internal marsupialization for large nonparasitic splenic cysts: effective organ-preserving technique // World J Surg., 2008, v.32(1), p.20–25.
20. Mc Coll R.J., Hochman D.J. Laparoscopic management of splenic cysts: marsupialization, cavity lining with surgicel and omentopexy to prevent recurrence // Surg Laparosc Endosc Percutan Tech., 2007, v.17, p.455–458.
21. Mezquita S., Rosado R., Gallardo A. et al. Partial laparoscopic decapsulation of splenic cysts: long-term results // Surg Laparosc Endosc Percutan Tech., 2007, v.17, p.49–51.

SUMMARY

THE PERKURANT AND LAPOROSCOPIC TREATMENT OF HYDATID DISEASE OF THE SPLEEN

E.Y.Bababeyli? M.Dulgar, N.E.Bababeyli

The aim of this study was to analyse the clinical and radiological findings of five patients treated with the diagnosis of hydatid disease of the spleen and discuss their treatment in view of curent literature. The most commonly affected organs are the liver (70%) and the lung (15–20). But almost every organ of the body can be affected. Among these splenic varies between 0.9 and 8% (four femate and one male) with hydadit disease of spleen have been enrolied to this study.

РЕЗЮМЕ
ПЕРКУТАН И ЛАПОРАСКОПИЧЕСКОЕ ЛЕЧЕНИЕ ЛЕЧЕНИЕ ЭХИНОКОККОЗА СЕЛЕЗЕНКИ
Э.Ю.Бабабейли, М.Дулгяр,Н.Э.Бабабейли
Целью данного исследования было анализирование результатов клинических и рентгенологических исследований у пяти пациентов и обсуждение их лечения с учетом материалов текущий литературы. Наиболее часто поражаются органы печени (70%) и легких (15-20). Но почти каждый орган тела может быть затронут. Среди этих поражение селезенки варьируется от 0,9 до 8%.: Пять пациентов (четыре femate и один мужчина).: Средний возраст пациентов составил 48,8 (39-60).
Daxil olub:14.02.2011

AĞ CİYƏRİN XRONİK OBSTRUKTİV XƏSTƏLİYİ VƏ ÜRƏYİN İŞEMİK XƏSTƏLİYİ YANAŞI OLAN XƏSTƏLƏRİN MÜALİCƏSİNDƏ YÜKSƏK SELEKETİVLİ BETA-ADRENOBLOKATORLARIN TƏTBİQİNİN MÜASİR VASİTƏLƏRİ

V.A.Abdullayev
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi- tədqiqat Ağ ciyər xəstəlikləri institutu, Bakı

ÜİX və ACXOX çox zaman təqribən eyni yaşda baş verir və birlikdə rast gəlinir. Onları siqaret çəkmə kimi risk faktoru bir- birirnə daha yaxın edir. Onların patogenezinin bir çox bəndləri isə həm tac damarlar, həm də ürək- ağ ciyərlər çatışmamazlığının baş verməsinə səbəb olur. ÜİX və ACXOX-in geniş yayılmasını nəzərə alsaq, yaş artdıqca bu xəstəliklərin kilnik birliyinin tezliyinin də artdığını güman etmək olar. Son illər ACXOX-in artması fonunda onun ÜİX və arterial hipertenziya (AH) ilə birliyinin daha çox rast gəlinməsinə səbəb olmuşdur [1,2]. ÜİX, AXOX və AH birliyinin tezliyi müxtəlif aspektlərdən qiymətləndirildiyi üçün əldə olunan nəticələr də müxtəlif olmuşdur. Əksər müəlliflərin fikrincə ACXOX olan xəstələrdə ÜİX 18,7-62,8% hallarda qeydə alındığı halda, ACXOX olan xəstələrdə AH- in tezliyi 6,8-56,3% arasında olur [3]. ÜİX və ACXOX yanaşi olan xəstələrdə sistemli arterial təzyiqin (AT) artması səbəbi həm yanaşı gedən essensial, həm də ikincili ağ ciyər arterial hipertenziyası (ACAH) ola bilər. Həmin kateqoriyadan olan xəstələrdə AH yalnıəz AT- in artma dərəcəsinə dair təsnifata görə bir sindrom kimi nəzərdən keçirilməlidir. Çünki ÜİX olan xəstələrdə və ACXOX olan pasientlərdə heç də həmişə AH- in həmin xəstəliyə nəzərən birincili və ya ikincili olduğunu təyin etmək mümkün olmur.

Amerika kardioloqlar kollecinin və Amerika Ürək Assosiasiyasının (ACC/AHA 2003- cü il) tövsiyələrinə əsasən antianginal və a işemiyaəleyhinə preparatlar qrupuna beta- adrenoblokatorlar, kalsiun antaqonistləri, nitratlar daxildir. ACXOX olan xəstələrdə işemiyanın korreksiyası və miokardın struktur- funksional dəyişikliklərinin korreksiyası üçün alternativ preparatların axtarışı məsələsi aktual olaraq qalmaqdadır. Eyni zamanda bu pozuntuların korreksiyasında AÇFİ- in tətbiqi perspektivləri də öyrənilməmiş qalmışdır [3,4].

BAB- ın meydana gəlməsi ÜİX və AH olan xəstələr üçün yeni bir səhifə idi [5]. Müxtəlif müalicəvi təsir amplitudası ilə (ÜİX-in yüngül formasından xüsusi ağır formalarına qədər) xarakterizə olunaraq və heç olmasa bir uğurlu nəticə göstərərək monoterapiya və ya nitropreparatlar və kalsium antaqonistləri ilə kompleks müalicədə təyin olunan BAB bu xəstəliyin farmakoterapiyasında həlledici rol oynayır. Xüsusilə AH, ürək ritmi pozuntuları, miokard ikfarkrı olan bu xəstələrdə BAB nəinki ümumi əhval- ruhiyyəni yaxşılaşdırır, həm də ölümün 20-40% aşağı düşməsinə səbəb olur. BAB öz effektivliyinin hətta qoca yaşında olan xəstələrdə saxlayır. Hazırda bu qəbildən olan preparatların istifadə olunması tac damarları çatışmamazlığının medikamentoz müalicəsində ən səmərəli istiqamətlərdən biri hesab olunur. Lakin real klinik praktikada belə xəstələrdı çoxlu sayda yanaşı gedən xəstəliklər olur ki, onlara mütləq və ya qismən BAB- ın təyin olunmasına əks göstərişləri vardır. Bu xəstəliklərin sırasında bronxial spazmların yaranması və bronxların yüksək hiperaktivliyinin baş verməsi ehtimalı olduğu üçün ACXOX olan xəstələrə də təyin olunması potensial təhlükəli hesab olunur. 15 illik müşahidələrdən məlum olur ki, uzun müddət BAB qəbul edən xəstələr üçün xırda tənəffüs yollarının erkən ekspirator tutulması fenomeni mövcuddur. Eyni zamanda bronxlar, uşaqlıq, qan damarları və s. toplanan beta- 2-adrenoreseptorları ayırmağı da təklif edilmişdir. Həmin konsepsiyanın praktik reallaşan müddəalarının yekunu olaraq kardioselektiv BAB yaradılmışdır. ÜİX ilə yanaşı miokard infarktı keçirən, eləcə də aorta anevrizmi olan xəstələrdə başqa preparatların az effektiv olduqda və ya əlavə təsirlər göstərdikdə onların az dozada təyin olunması müzakirə oluna bilər[6].

Aparılan tədqiqatların MƏQSƏDI ACXOX və ÜİX yanaşı olan xəstələrdə xüsusi selektivliyə malik BAB- ın (nebivolol) effektivliyini təyin etmək və hər iki xəstəliyin gedişatına olan təsirini qiymətləndirməkdən ibarətdir.

TƏDQIQATIN MAETRIAL VƏ METODLARI. ACXOX, ÜİX ilə yanaşı ACXOX olan xəstələrin müalicəsinin effektivliyini təyin etmək üçün orta yaş həddi 61±4,7 (40-77 yaş arası) 110 xəstənin üzərində tədqiqat işi aparılmışdır. Bu xəstələrin diaqnozu və ACXOX-un ağırlıq dərəcəsi GOLD 2007 beynalxalq meyarlarına uyğun olaraq təyin olunmuşdur. Xəstələrə EXO-KQ, Holter müayinələri, AT- in sutkalıq monitoru tətbiq olunmuşdur. Onlarda xarici tənəffüs funksiyası, 1saniyəyə gücləndirilmiş tənəffüsün həcmi, siqaret çəkən şəxsin indeksi (SÇŞİ) (siqaret qutusu/il) kimi göstəricilər hesablanmışdır.

Tədqiqata 56 yalnız ACXOX olan, 54 ÜİX ilə yanaşı ACXOX olan xəstə daxil edilmişdir. Bütün xəstələr aparılan müalicələrin effektivliyini təyin etmək üçün ÜİX ilə yanaşı ACXOX olan xəstələri 2 qrupa bölünmüşlər:

I qrupa hipertoniya, aritmiya, taxikardiya kimi simptomların üstünlük təşkil etdiyi xəstələr daxil edilmişdir (34 xəstə).

II qrupa- ürək çatışmamazlığı, xronik ağ ciyər, ağ ciyər arteriyalarının hipertenziyasının üctünlük təşkil etdiyi xəstələr aid edilmişdir (20 xəstə).

Birinci qrup xəstələr Nebivalol (Almaniya istehsalı) 2,5-5 mq olmaqal sutkada bir dəfə təyin olunmuşdur (orta sutkalıq doza 62,50±33,58 mq).

İkiknci qrup xəstələrə isə kalsium antoqonistləri, diuretiklərlə yanaşı angiotenzinçevirən ferment inhibitorları (AÇFİ) da təyin olunmuşdur. Onlara amlodipin kalsium antqonisti və lizinopril AÇFİ preparatı təyin olunmuşdur. Birinci qrup xəstələrə də Nebivalol ilə yanaşı bu preparatlar təyin olunmuşdur.

Lizinopril 50 xəstəyə təyin olunmuşdur: 20 xəstə - ACXOX, 30 xəstə- ACXOX ilə yanaşı ÜİX. Lizinoprilin dozasının seçımı 7-10 gün ərzində fərdi aparılmışdır. İlkin doza gündə 2 dəfə olmaqla 5 mq olmuş, tədricən 10-20 mq/sut- ya çatdırılmışdır.

Amlodipin 55 xəstəyə təyin olunmuşdur: 20 xəstə- ACXOX, 35 xəstə- ACXOX ilə yanaşı ÜİX. Müayinə olunan ACXOX, ÜİX və ACXOX ilə yanaşı ÜİX olan xəstələr üqrupunda amlodipinin sutkalıq dozası gündə 1 dəfə olmaqla 5-10 mq/sut təyin olunmuşdur. Müayinə olunan qruplarda lizinoprilin monoterapiya kursu 6 həftə ərzində davam etmişdir. Müalicə prosesində preparatın klinik effektivliyi boğulma tutmalarının və qısa təsirli B2- aqonistləri ilə inhalyasiyanın həftəlik sayının dinamikasına, nitroqliserin həblərinin əlavə qəbuluna, təngnəfəsliyin kəskinliyinə, hipotenziv təsirin dərəcəsinə (AT və ATSM), müalicə kursundan əvvəl və sonra xəstələrin həyat keyfiyyətinə, əlavə təsirlərin baş verməsinə görə təyin olunmuşdur. Lizinopril və amlodipinlə müalicədən 6 həftə sonra həmin preparatların klinik effektivliyinin təyin olunması üçün yuxarıda qeyd olunan bütün müayinə metodikaları daxil olmaqla ixtisaslaşdırılmış instrumental müayinələr aparılmışdır.

NƏTICƏ VƏ MÜZAKIRƏ. Aparılan tədqiqatlardan məlum olmuşdur ki, kardioselektiv BAB antianginal, antiaritmik və antihipertenziv aktivliyə malik olaraq xoşagələmz bronxosturktiv təsir göstərmir. Lakin bronxial-ağ ciyər və ürək- damar yanaşı patologiyası olan şəxslərə onlar məhdud təyin olunur. Bu ilk növbədə həmin preparatların bronxial obstruktiv sindromu olan şəxslərdə bronxial keçməməzliyə təsirini öyrənən tədqiqatlarda zidiyyətli nəticələrin əldə edilməsi ilə bağlıdır. ACXOX və ÜİX yanaşi olan xəstələrə koordinasiya olunmuş müalicə ilə bağlı yuxarıda nəzərdən keçirilənləri qısaca yekunlaşdırılaraq qeyd etmək lazımdır ki, onun vəziyyəti müasir klininsistlərin tələblərinə cavab vermir. Bir xəstəliyin aktiv müalicə olunması yanaşı gedən digər patologiyanın yatrogen ağırlaşması üçün real təhlükə yarada bilər. ACXOX olan xəstələrə təyin olunan BAB-ın selektivliyi nə qədər çox yüksək və dozası az olarsa, bronxial obstruksiyanın yaranma ehtimalı o qədər aşağı olar.

ACXOX və ÜİX- in yanaşı olması uzun müddətli müalicə proqramlarını seçməyə imkan vermir. Bronxolitik preparatların daim qəbul edilməsi tələbatı onunla izah olunur ki, hipoksemiya və simpatoadrenalin sistemin aktivləşməsi nəticəsində uzun müddət mövcud olan ağ ciyər funksiyası pozuntuları ÜİX- in ağırlaşmasına səbəb ola bilər. Digər tərəfdən /32- aqonistlərin, hətta yüksək selektiv aqonistlərin farmakoloji effektləri əsas hemodinamik göstəricilərə təsir göstərir. Nəzəri olaraq ürək yığılmalarının tezliyinin artması, nəbz tazyiqinin artması, miokardın oksigenə tələbatının artması, aritmogen təsir mümkündür. Bu hallarda həkim adekvat müalicə təyin etdikdə gözlənilən faydanın müalicənin riskinə olan nisbətini əldə rəhbər tutmalıdır, bronxolitik preparatlardan daim istifadə olunduqda isə preparatın təhlukəsiszliyinə operativ nəzarət etmək üçün yaxşı alətlərə malik olmalıdır.

Bütün yuxarıda qeyd olunanlar ACXOX və ÜİX- in klinikasının üstünlük təşkil etməsindən asılı olaraq medikamentoz terapiya metodunun seçilməsi zərurilyini qarşıya qoyur.

ƏDƏBIYYAT

1. Симонова Ж.Г., Тарловская Е.И., Тарловская А.К. Оценка безопасности кардиоселективного β – блокатора небиволола в комлексной терапии больных ишемической болезнью сердца с сопутсвующим хроническим обструктивным бронхитом // Бьюлл Сиб отд.РРАМН, 203, №3, с.36-41
2. Dart R.A., Gollub S., Lazar J. et al. Treatment of systemic hypertension inpatients with pulmonary diseases: COPD and asthma //Chest, 2003, v.123, p.222-243
3. Ивашкин В.Т., Синопальников А.И. Кардиоселективный β –адреноблокатор метапролол и бронхиальная астма // Клин фармаколм и тер, 1993, №1, с.41-42
4. Каперко М.А. Кардиоваскулярные и бронхолегочные эффекты при кумулятивном ингаляционном бронхоспазмолизисе у больных бронхиальной астмой: Автореф. дис.. канд. мед. наук. М., 2002
5. Mattys H., Giebelhaus V., von Fallois j. Nebivolol (nebilet) a beta blokerof the third generation also for patients with obstructive lung diseases // Z Kardiol., 2001, v.90, p.760-765
6. Salpeter S., Ormiston T., Salpeter E., Wood- Baker R. Cardioselective beta – blokers for reversible airmay diseases // Cocharne Database Syst Rev,m 2002, v.1

РЕЗЮМЕ

СОВРЕМЕННЫЕ АСПЕКТЫ ПРИМЕНЕНИЯ ВЫСОКОСЕЛЕКТИВНЫХ БЕТА-АДРЕНОБЛОКАТОРОВ В ЛЕЧЕНИИ ХРОНИЧЕСКИХ ОБСТРУКТИВНЫХХБОЛЕЗНЕЙ ЛЕГКИХ И ИШЕМИЧЕСКИХ БОЛЕЗНЯХ СЕРДЦА

В.А.Абдуллаев

Целью исследования является определение особо селективных БАБ и оценка вляния этих препаратов на течение обеих болезней. Была проведена исследования на 110 больных в возрасте 61±4,7 лет. Исследоания показали, что кардиоселективный БАБ имеет антиангинальный, антиаритмический и антигипертензивный эффект. БАБ применяемый больным ХОБЛ будет эффективным взависимости от дозы и селективности этих препаратов.

SUMMARY

MODERN ASPECTS OF THE APPLICATION OF HIGH SELECTIVE BETA-BLOCKERS IN THE TREATMENT OF CHRONIC LUNG OBSTRUKTIVe DISEASES AND ISCHEMIC HEART DISEASEs

V.A. Abdullaev

The aim of the study is to determine the particular selective beta blockers and evaluation of these drugs on vlyaniya for both diseases. Research was conducted on 110 patients aged 61 ± 4,7 years. Issledoaniya showed that cardioselective beta blockers have antianginal, antiarrhythmic and antihypertensive effect. Blockers used COPD patients will be effective depending of type and dose of the selectivity of these drugs.

Daxil olub:25.01.2011

MÜNDƏRICAT- ОГЛАВЛЕНИЕ

ICMALLAR- ОБЗОРЫ

Гепатит Е: Новый взгляд на "старую" инфекцию
М.И.Михайлов, Е.Ю.Малинникова, М.К.Мамедов.....3

О перспективах применения тимозина-альфа1 в лечении инфекционных заболеваний вирусной и бактериальной этиологии
С.М.Сафарова, М.К.Мамедов.....7

Miokard infarktı olan xəstələrdə klopidoqrel rezistentliyi və onun aradan qaldırılması yolları
E.İ.Isayev, A.H.Bərdəli.....12

Дисфункция иммунной системы у больных талассемией: феноменология иммунологических расстройств и их патогенез
Р.К.Таги-заде, С.А.Алифаттахзаде, М.К.Мамедов.....16

Kemik iliği mikroçevre komponenti olarak mezenkimal kök hücreler
Ə.A.Quliyev.....19

Yumurtalıq xərçəngi. Kimyəvi terapiyanın müasir prinsipləri
R.R.Sultan.....24

ORIJINAL MƏQALƏLƏR- ОРИГИНАЛЬНЫЕ СТАТЬИ

Особенности распространения инфекций, вызванных вирусами гепатитов В и С и патогенетические варианты их течения у лиц с высоким риском парентерального инфицирования
А.Э.Дадашева.....28

Новые опыты по поводу искусственного влагалища из брюшины в Азербайджане
А.К.Курбанов.....34

Qanyaradıcı sistemin patologiyalarının ağız boşluğunda təzahürləri
F.Y.Məmmədov, K.S.Alkişiyev.....37

Изменение структурных показателей полости рта у больных с бронхиальной астмой после реализации комплексных лечебно-профилактических мер
А.М. Сафаров С.М. Алескерова.....40

Ağcaqanad sürfələrinin qidalanmasinda və inkişafinda su durğunluqlarinda mövcud olan ekoloji şəraitin öyrənilməsi
N.C.Namazov.....44

Обзор случаев острых отравлений пестицидами в Азербайджане в 1991-2010 гг.
И.Н.Эфендиев.....47

Коррекция цитопений препаратом "кошачий коготь" у больных хроническим вирусным гепатитом С, в процессе проведения противовирусного лечения альфа-интерферонами
С.Н.Малышев, А.И.Николаева, Э.И.Ахмедов.....50

Xroniki böyrək çatmamazliğinin terminal mərhələyə qədər müddətinin proqnozlaşdırılması barədə
Ş.M.Cabbarov.....52
Bud sümüyünün xronik osteomieltinin carrahi müaliəsində intellektual sistemlərin rolu

E.İ.Qubadov.....56

Dərinin açıq zədələnmələri ilə intensiv terapiya bölməsində müalicə alan xəstələrdən izolə edilmiş mikroorqanizmlərin morfobioloji xüsusiyyətləri və antibiotiklərə həssaslığı
H.T. Mansurova, R.B.Bayramlı.....63

Süd vəzisi xərçənginə görə cərrahi əməliyyatdan sonra tamoksifenin istifadəsi zamanı endometriyada baş verə biləcək patologiyaların histeroskopik diaqnostikası
Ə.X. Kərimov, G.A.Əliyeva.....67

Şəkərli diabet zamanı lipid mübadiləsi göstəricilərinin öyrənilməsi
O.S. Abdullayev, A.D. Məlikova, M.A. Əfəndiyev, V.İ.Yaqubova.....69

Динамика развития патологических процессов в тканях пародонта в эксперименте при применении различных лекарственных средств
Ф.Ю.Мамедов, А.М. Архмамедов, А.М.Сафаров.....73

"Thymus koci" preparatının eksperimental parodontitin inkişaf dinamikaslna təsiri
İ.T.Qacarov.....79

Uşaqlıq boynu və uşaqlıq yolunun involyutiv prosesləri olan qadınlarda klimakterik sindromun xüsusiyyətləri
J.R.Şərifova, E.M.Əliyeva.....85

Yad cisim aspirasyasının müalicəsi
A.Musayev, Ata Erdener, Coşkun Özcan.....89

Нелактационный мастит в подростковом и юношеском возрасте – особенности клиники, диагностики и лечения
В.В. Пирвелиев, Ю.А. Спесивцев, М.В.Любимов.....92

Vaskulyar endotelial böyümə faktoru (vegf) geni -460 C/T, -141 A/C, +405 G/C polimorfizmləri və hepatosellülyar karsinoma riski
M.M. Kazimi.....97

Trombofiliya – ekstrakorporal mayalanmanin uğursuzluqlarinin bir səbəbi kimi
F.Y. Qəhrəmanlı.....102

Mərkəzi venoz təzyiq ürək-damar fəaliyyətinin göstəricilərindən biri kimi
S.X.Tərlanova, M.Ə. Şükürov, R.M.Babaşov.....105

Динамика инвалидности детей вследствие психических расстройств в городе Баку
Г.Н. Мусабекова, З.Ф.Мусабеков.....110

Оптимизация лучевой терапии больных раком прямой кишки после паллиативных операций
Н.Г.Кулиева.....113

Uşaqlıq boynu xərçəngi, patoloji uşaqlıq boynu yaxmaları (pap smear) və biopsiyanın yeri
V.A. Bayramov, S. Tezcan.....117

Elmi- Tədqiqat Travmatologiya və Ortopediya Institutunun materiallari əsasinda xronik osteomielitli xəstələrin dispanser nəzatərinin vəzifələri və nəticələri
F.Quliyev, Q.Əliyev, Ç.A.Əli-zadə.....122
Определение объема расхода костно-замещающего материала при туннельной остеопластике на верхней челюсти

Э.Р. Ибрагим.....127

enterovirus infeksiyası olan hamilə qadınlarda ciftin funksional vəziyyəti
N.F.Heydərova.....130

Влияние эндокоагуляции яичников на репродуктивную функцию
Н.В. Алиева.....134

Dalağın exinokokkoz xəstəliyinin perkutan və laporaskopik müalicəsi
E.Y Bababəyli., M.Dülgər., N.E Bababəyli.....136

Ağ ciyərin xronik obstruktiv xəstəliyi və ürəyin işemik xəstəliyi yanaşi olan xəstələrin müalicəsində yüksək seleketivli beta- adrenoblokatorlarin tətbiqinin müasir vasitələri
V.A.Abdullayev.....140

Çapa imzalanıb: 29.09.2011
Sayı 250. Həcmi 20,5 çap vərəqi
Formatı 60X841/8 əla növ kağız
AzTU-nun mətbəəsi, H. Cavid pr.25